# Xalq qəzeti

Xalqın qəzeti!

№ 99 (30793) 15 may 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Qarabağ və Şərqi Zəngəzurda “yaşıl” layihələrə meydan açılır



Səhifə ⇨ 8

## Trampın yeni baxışı – gözləntilər və sabit Azərbaycan modeli

*Keçmişin tənqidi nikbin gələcək gətirəcəkmi?*

**ABŞ Prezidenti Donald Tramp Yaxın Şərq turnesi çərçivəsində Səudiyyə Ərəbistanına səfəri zamanı bildirdikləri fikirləri ilə bir çox mətləblərdən söz açdı. Əslində, Birləşmiş Ştatların dövlət başçısının mövqeyində hansısa fövqəladəlik yoxdur. Onun dilə gətirdiklərini proqnozlaşdırmaq mümkün idi. Amma...**

Başlıca məqam budur ki, Trampın timsalında ABŞ Yaxın Şərqdəki rolu və məqsədlərinə dair, bütövlükdə isə dünyaya baxışını əhatəli şəkildə diqqətə çatdırdı. Yəni, yenilik məhz bu baxışın ifadə olunmasındadır və mövcud məqam bir neçə cəhətdən xarakterik sayıla bilər. Yazımızda məsələyə diqqət yetirəcək, eyni zamanda, üzərində dayandığımız mövzunun Azərbaycanla əlaqəli hissələrinə toxunacağıq.

riyaya hərbi müdaxilələrini nəzərdə tutub. Hələ digər ölkələr də var. Onların hamısının adını çəkmirik. Çünki müdaxilələr eyni təbiətə malikdir. Məsələn, ABŞ 2003-cü ildə İraqda kimyəvi silah axtarırdı. Həmin vaxt dünya mediası bu barədə ajiotaj qaldırmış, İraq lideri Səddam Hüseynin despot obrazını canlandırmışdı. Elə fon yaradılmışdı ki, sanki, belə bir şəxsin mövcudluğu dünya üçün qlobal fəlakət vəd edir.



Beləliklə, D.Tramp ABŞ-ın əvvəlki administrasiyalarını Yaxın Şərqdəki hərbi müdaxilələrə görə kəskin tənqid atəşinə tutub və “sabiqləri” dağıdıcılıqda ittiham edib. Aydındır ki, Birləşmiş Ştatların lideri ölkəsinin Əfqanıstana, İraqa və Su-

Nəticə etibarilə, ABŞ “beynəlmiləl missiya” yerinə yetirərək, guya, tiranı zərərsizləşdirdi (Səddam Hüseyni devirdi – red.), dünyanı onun əlindən aldı, məhvdən qurtardı. Bəs sonra nə baş verdi?

*(ardı 5-ci səhifədə)*

## Cənubi Qafqazda Hindistan izi: İrəvanla hərbi əməkdaşlığın pərdəarxası məqamları



**Bu ilin martında Ermənistan və Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzərində danışıqlar prosesinin başa çatdığı açıqlandı. Hazırkı mərhələdə ölkəmizin İrəvandan legitim gözləntiləri var. Bu gözləntilər Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddiasının çıxarılması və münaqişənin öz həllini tapması nəticəsində fəaliyyətinə ehtiyac duyulmayan ATƏT-in Minsk qrupunun ləğvidir.**

Nikol Paşinyanın özü və hökumətinin yüksək vəzifəli məmurları tərəfindən sülh sazişini imzalamağa hazır olmaları barədə verilən pozitiv açıqlamalara baxmayaraq, ölkəmizin legitim gözləntilərinin həllini tapması üzrə hələ də irəliləyiş müşahidə edilmir. Bu isə prosesin tormozlanmasına gətirib çıxarır. Buna paralel olaraq, İrəvan silahlanma istiqamətlərini intensiv şəkildə genişləndirməkdədir. Ermənistanın Fransa və Yunanıstan kimi tarixən yaxın olduğu, hərbi və hərbi-texniki sahədə sıx əməkdaşlıq etdiyi ölkələrin sırasına son illərdə Hindistan da qoşulub. Artıq nəinki Ermənistanın müdafiə naziri, təhlükəsizlik şurasının katibi səviyyəsində də Nyu Delhi ilə hərbi və təhlükəsizlik sahəsində müzakirələr aparılır. İşğalçı keçmişə malik ölkə rəsmisinin apardığı bu müzakirələrin Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasına xidmət etmədiyi gün kimi aydındır. Ehtimal etmək olar ki, bu danışıqların yekunu kimi, Ermənistanın Hindistanla silah alqı-satqısı barədə yeni müqavilə imzaladığına dair məlumatlar yayılacaq.

*(ardı 3-cü səhifədə)*

## *Ali Attestasiya Komissiyasının sədri:* Elmi dərəcə və adların verilməsi ilə bağlı meyarlar yenilənib

Səhifə ⇨ 9

## USCIRF-dən Azərbaycana qarşı növbəti böhtan kampaniyası



Səhifə ⇨ 5

## Korsika müstəqillik tələb edir




Səhifə ⇨ 3

## “Şərq və Qərblə əməkdaşlıqda əsas amil milli maraqlarımızdır”



Səhifə ⇨ 4

## Avropanın açıq qapıları bağlanırmı? – Şengenin siyasi sınağı




Səhifə ⇨ 4

# Paraqvay Respublikasının Prezidenti Zati-aliləri cənab Santyaqo Penyaya

**Hörmətli cənab Prezident!**

Paraqvay Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə Azərbaycan-Paraqvay dostluq əlaqələri daha da inkişaf edəcək, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost Paraqvay xalqına əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 may 2025-ci il**

# Həmrəylik və dəstəyə görə Azərbaycana minnətdarlıq



**Pakistanın Baş naziri Şahbaz Şərif Pakistanla sarsılmaz həmrəyliyə və dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, qardaş Azərbaycan xalqına dərin minnətdarlığını bildirib.**

Baş nazir Şahbaz Şərif ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadovu qəbul edərkən, Azərbaycanın nümayiş etdirdiyi mövqenin iki xalq arasında möhkəm dostluğun və qardaşlığın təzahürü olduğunu deyib.

Regionda baş verənlər və əldə olunmuş atəşkəs razılaşması barədə danışan Baş nazir ölkəsinin gələcəkdə də hər hansı təcavüz qarşısında öz suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə müdafiə etməyə hazır olduğunu bildirib.

Baş nazir strateji xarakter daşıyan Azərbaycan–Pakistan münasibətlərinin inkişafından söz açaraq, ikitərəfli əməkdaşlığın müsbət inkişafından məmnunluğunu ifadə edib. O, Prezident Əliyevin ötən ilin iyulunda Pakistana tarixi səfərinin iqtisadiyyat, ticarət və investisiya sahələrində yeni əməkdaşlıq imkanlarının açılması ilə mühüm mərhələ olduğunu bildirib. Baş nazir fevralda Bakıya səfərini xatırladaraq, Pakistanın ikitərəfli əlaqələri qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa yüksəltmək istəyini bir daha təsdiqləyib.

Azərbaycan və Pakistanın dost və qardaş ölkələr kimi hər zaman birlikdə olduğunu bildirən ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadov, dövlətimizin başçısı İlham Əliyevin iki ölkə arasındakı qardaşlıq əlaqələrinə böyük önəm verdiyini və son illər ərzində tərəflər arasında əlaqələrin sürətlə inkişaf etdiyini bildirib.

# Parlamentdə Qlobal Cənubla bağlı müzakirələr



**Mayın 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin genişləndirilmiş iclası keçirilib.**

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov gündəlikdəki məsələlərdən söz açıb. Azərbaycanın Qlobal Cənub və Qərb arasında siyasi və iqtisadi dialoqun gücləndirilməsi istiqamətində mühüm körpü rolu oynamaq potensialından bəhs edən Səməd Seyidov qeyd edib ki, ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi və COP29 kimi beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, ölkənin qlobal iqlim gündəliyindəki rolunu və Qlobal Cənub və Qərb arasında iqlim məsələlərində əməkdaşlığın inkişafına verdiyi töhfəni göstərir.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Azərbaycanın son illər Qlobal Cənubda getdikcə güclənən və beynəlxalq səviyyədə tanınan mövqeyi barədə danışıb. Bildirib ki, Azərbaycan xarici siyasətdə çoxtərəfliliyə böyük dəstək verən ölkələrdən biridir. Azərbaycanın Qlobal Cənub ölkələrinin səsi sayılan Qoşulmama Hərəkatına sədrliyi illərində təşkilat Prezident İlham Əliyevin təşəbbüsləri ilə qlobal siyasətdə kifayət qədər aktiv rol oynayıb, inkişaf etməkdə olan ölkələrin səsini beynəlxalq platformalara çatdırıb, onun institusional inkişafında əməli addımlar atılıb, təşkilatın parlament şəbəkəsi və gənclər təşkilatı yaradılıb. Azərbaycan COP29-a sədrliyi dövründə də Qlobal Cənubda liderlik rolunu bir daha təsdiqləyib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Qlobal Cənub platformasının gündəliyindən söz açıb, Azərbaycanın bu platformada əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb.

Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri Leyla Həsənova, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, deputatlar Fariz İsmayılzadə, Asim Mollazadə, Sevinc Fətəliyeva, Zaur Şükürov, Nəsib Məhəməliyev, Pərvanə Vəliyeva, Rizvan Nəbiyev, Sevil Mikayılova, Gülşən Paşayeva və Nigar Məmmədova çıxışlarında bugünkü müzakirənin əhəmiyyətini vurğulayıb, Azərbaycanın Qlobal Cənubla münasibətlərinin perspektivləri barədə fikirlərini bölüşüblər.

***XQ***

# Media üçün kibertəhlükəsizlik təlimi





**Bakıda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Medianın İnkişafı Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON Holdinq) tərkibində fəaliyyət göstərən "AzInTelecom" MMC-nin birgə tərəfdaşlığı ilə media subyektlərinin nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunda təlim keçirilib. Məqsəd media nümayəndələrini müasir kibertəhlükələr barədə məlumatlandırmaq, onların bu təhdidlərə qarşı daha dayanıqlı və hazırlıqlı olmasına töhfə verməkdir.**

Prezident Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, İRİA-nın İdarə Heyətinin sədri Fərid Osmanov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, ETX-nin rəisi Samir Rəsulov çıxış ediblər. Çıxışlarda media sahəsində baş vermiş mövcud kiberinsidentlər və kiberdayanıqlıq səviyyəsi məsələlərinə toxunulub, eyni zamanda, media subyektlərində İT infrastrukturunun təkmilləşdirilməsi və kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsinin vacibliyi önə çəkilib.

50-dən çox media subyektinin nümayəndəsinin iştirak etdiyi təlim sessiyalarında müvafiq qurumların aidiyyəti sahə üzrə ekspertləri, həmçinin İsrailin "Technion" Texnologiya İnstitutunun və Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin təlimçisi tərəfindən kiberdayanıqlılıq, kiberinsidentlərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər, fişinq və sosial mühəndislik texnikaları, media qurumlarının sosial media hesablarının qorunması, təhlükəsizlik üçün tövsiyə olunan bulud xidmətləri kimi media üçün mühüm əhəmiyyət kəsb edən məsələlərə toxunulub.

***XQ***

# T.Q.Piriyevin Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Tural Qüdrət oğlu Piriyev Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 may 2025-ci il**

# Yeni hərbi prokuror kollektivə təqdim edildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 may 2025-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilmiş Bəhruz Əhmədov, Baş prokuror Kamran Əliyev tərəfindən Hərbi Prokurorluğun kollektivinə təqdim edilib.**

Kamran Əliyev prokurorluq orqanlarına göstərilən yüksək etimada, daima olan diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib, həmçinin Hərbi Prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, eləcə də bu sahədə digər dövlət qurumları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

Bəhruz Əhmədov göstərilən yüksək etimada görə minnətdarlığını ifadə edərək qanunla Hərbi Prokurorluq orqanlarının üzərinə qoyulmuş vəzifələrin layiqli şəkildə icra ediləcəyinə əminliyini bildirib.

***XQ***

# AŞ-nin sessiyasında Azərbaycanın sülh təşəbbüslərindən danışılıb



**Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Şurası Nazirlər Komitəsinin mayın 13-14-də Lüksemburq şəhərində keçirilmiş 134-cü sessiyasında iştirak və çıxış edib.**

Nazir müavini cari ilin mart ayında Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını diqqətə çatdırıb. Bununla yanaşı, o, Ermənistanın konstitusiyasına dəyişiklik edilməli olduğu, Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv edilməsinin zəruriliyi vurğulanıb.

Nazir müavini çıxışında 2024-cü ilin yanvar ayında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin Avropa Şurası Parlament Assambleyası tərəfindən təsdiq edilməməsinin hüquqi baxımdan tamamilə əsassız olduğunu bildirib və parlamentlərarası dialoq və əməkdaşlıq platforması rolunu həyata keçirməli olan Assambleyada Azərbaycanın iştirakını qeyd-şərtsiz bərpa etmək məqsədilə vəziyyətin tezliklə həll edilməsinin zəruri olduğunu vurğulayıb.

# "Yaşıl" enerji və əlaqəliliyin Azərbaycan nümunəsi Londonda



**Londonda Avropa Yenidənqurma və İnkişaf Bankının baş qərargahında keçirilən 34-cü İllik Toplantı çərçivəsində "Azərbaycan: yaşıl artım və əlaqəliliyə açılan qapı" mövzusunda investisiya sessiyası təşkil olunub.**

Paneldə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, energetika nazirinin müavini Elnur Soltanov, "Masdar" şirkətinin maliyyə direktoru Mazin Xan, "McKinsey & Company" şirkətinin baş tərəfdaşı Yermolay Soljenitsın və AYİB-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Natali Mouravidze iştirak ediblər.

Nazir Mikayıl Cabbarov Azərbaycanın "yaşıl" enerji strategiyası, qanunvericilik islahatları və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanlarından danışaraq qeyd edib ki, bərpaolunan enerji, nəqliyyat və sənaye sahələrində əlaqəlilik ölkənin uzunmüddətli inkişaf modelinin əsasını təşkil edir.

***XQ***

# Cənubi Qafqazda Hindistan izi: İrəvanla hərbi əməkdaşlığın pərdəarxası məqamları

(əvvəli 1-ci səhifədə)

Söhbət, təbii ki, Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Nyu Delhiyə səfərindən, orada Hindistan baş nazirinin milli təhlükəsizlik üzrə müşaviri Adcit Dovalla görüşündən gedir. Mayın 13-də baş tutan görüş zamanı həmsöhbətlər Ermənistan–Hindistan ikitərəfli gündəliyinə aid bir sıra məsələləri müzakirə ediblər. Xüsusilə, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi prosesi və təhlükəsizlik sahəsində cari qarşılıqlı fəaliyyət vurğulanıb. Eyni zamanda, tərəflər beynəlxalq və regional təhlükəsizlik mövzusuna da toxunublar. A.Doval bu çərçivədə Ermənistan təhlükəsizlik şurası katibinin xahişi ilə son günlər Hindistan–Pakistan sərhədində baş verən hadisələrin mümkün inkişafı ilə bağlı məlumat verib. A.Qriqoryan isə Hindistan tərəfinin xahişi ilə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması prosesini təqdim edib.



*

Bu səfər və keçirilən görüş regionda baş verən geosiyasi proseslər kontekstində olduqca əhəmiyyətlidir və bir neçə istiqamətdə şərh oluna bilər. Birinci istiqamət Ermənistan–Hindistan münasibətlərinin intensivləşməsidir. Qriqoryanın Nyu Delhiyə səfəri və ölkənin baş nazirinin milli təhlükəsizlik üzrə müşaviri ilə görüşü göstərir ki, Ermənistan son illər strateji tərəfdaş axtarışında Hindistanla əlaqələrini dərinləşdirməkdə maraqlıdır. Bu münasibətlər təkcə diplomatik və iqtisadi deyil, açıq şəkildə təhlükəsizlik və hərbi-texniki əməkdaşlıq çərçivəsinə keçməkdədir. Bu kontekstdə Qriqoryanın Doval kimi nüfuzlu fiqurlarla görüşməsi həm Ermənistana siyasi legitimlik, həm də regiondakı rolunu gücləndirmək imkanı verir.

Görüşdə iki maraqlı xətt müşahidə olunur. Ermənistan rəsmisinin Hindistan tərəfinin xahişi ilə Azərbaycanla münasibətləri təqdim etməsi göstərir ki, Nyu Delhi Cənubi Qafqazda baş verən proseslərə diqqət ayırır və İrəvan vasitəsilə bölgədə informasiya və təsir imkanlarını artırmağa çalışır. Eyni zamanda, Ermənistan Hindistan–Pakistan sərhədindəki vəziyyətlə maraqlanır. Bu isə İrəvanın öz növbəsində Hindistan–Pakistan ziddiyyətləri fonunda yeni geosiyasi tutumlar formalaşdırmaq cəhdidir. Bu yanaşma Ermənistanın müxtəlif geosiyasi oyunçular arasında manevr etmək, eyni zamanda, münaqişəli regionlarda baş verənlərdən öz maraqları üçün istifadə etmək niyyətini göstərir.

Digər tərəfdən, qeyd etmək lazımdır ki, Hindistan son dövrlərdə Mərkəzi Asiya və Cənubi Qafqazda nüfuz dairəsini genişləndirməyə çalışır. Ermənistan isə bu prosesdə, necə deyərlər, körpü rolu oynamaq istəyir. Azərbaycanla gərgin münasibətləri fonunda Ermənistan Hindistanla yaxınlaşaraq həm təhlükəsizlik zəmanəti, həm də alternativ tərəfdaşlıq əldə etməyə çalışır. Bu, Azərbaycanın Pakistanla strateji müttəfiqliyinə qarşı dolayısı cavab kimi də qiymətləndirilə bilər.

Bu müzakirələr fonunda Ermənistanın Hindistandan yeni silah-sursat alması ehtimalı çox yüksəkdir. Mövcud regional və qlobal dinamikanı nəzərə alsaq, bir neçə əsas məqam bu ehtimalı gücləndirir. 2022 və 2023-cü illərdə Ermənistan Hindistandan "Pinaka" raket sistemləri, artilleriya qurğuları və müxtəlif tipli pilotsuz uçuş aparatları daxil olmaqla yeni silahlar alıb. Bu alqı-satqılar rəsmi İrəvanın Rusiya hərbi asılılığından çıxmaq və alternativ tərəfdaşlar tapmaq istəyini açıq şəkildə göstərdi. Qriqoryan–Doval görüşü isə bu trendin strateji səviyyədə davam etməsinə zəmin yaradır. A.Doval Hindistanın təhlükəsizlik üzrə ali orqanlarının rəhbərlərindən biridir və onunla aparılan müzakirələr sadəcə, protokol görüşü deyil, konkret razılaşmalara zəmin yaradan dialoq ola bilər. Bu tip görüşlər, adətən, silah alqı-satqısı, təlim əməkdaşlığı və hərbi-strateji planlaşdırma məsələlərini əhatə edir.

Nyu Delhinin İslamabadla ziddiyyətləri fonunda Ermənistanla hərbi əməkdaşlıq, xüsusilə də Pakistan–Azərbaycan yaxınlığını nəzərə alsaq, Hindistan üçün də strateji dividendlər vəd edir. Hindistan Ermənistan vasitəsilə Cənubi Qafqazda təsir zonası yaratmaq, həmçinin silah ixracatını artırmaq istəyir.

İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistan ordusu, demək olar ki, darmadağın olub. Paşinyan hakimiyyəti son bir neçə ildə bu sahədə islahatlara və yeni silah alınmasına xüsusi diqqət ayırır. Hindistandan yeni alınan silahlar ordunun yenidən qurulması üçün vacibdir. Həmçinin siyasi sabitlik üçün "güvənlik buferi" rolunu oynayır. Bundan əlavə, ölkə daxilində revanşist dairələr üçün siyasi mesaj kimi çıxış edir.

Qriqoryan və Doval arasında baş tutan təhlükəsizlik dialoqu, böyük ehtimalla, silah alqı-satqısı üzrə yeni müqavilələrin başlanğıcı və ya davamı olacaq. Ermənistan Hindistandan həm texniki, həm də strateji dəstək almağa çalışır. Bu isə Azərbaycan üçün ciddi siqnaldır.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Hindistanın Cənubi Qafqazla bağlı atdığı destruktiv addımlar bir neçə istiqamət üzrədir. Ölkə qlobal strateji kommunikasiya şəbəkəsində mühüm rol oynamaqda maraqlıdır. Ərazi və coğrafi resursları da nəzərə alınmaqla bunun üçün onun müəyyən imkanları var. Bununla belə, Hindistanın dəstəklədiyi kommunikasiya layihələri onun rəqibləri tərəfindən irəli sürülən layihələr kimi iqtisadi cəhətdən sərfəli deyil. Hindistanın Ermənistanla münasibətlərinə də Nyu Delhinin Cənubi Qafqazdakı strateji maraqları kontekstində baxmaq lazımdır. Regionumuz bu ölkə tərəfindən özünün qlobal kommunikasiya layihəsinin bir hissəsi kimi qəbul edilir.

Son illərdə Çinin kommunikasiya təşəbbüslərinə, xüsusilə "Bir kəmər, bir yol" layihəsinə qarşıdurma ideyası Hindistan siyasi diskursunda getdikcə daha çox səslənir. Hindistanın sosial-iqtisadi vəziyyətini nəzərə alsaq, bu qarşıdurma paradoksal görünür: əhalinin təxminən 95 faizi yoxsulluq həddində, təhsilsiz, içməli suya çıxışı olmadan yaşayır və orta ömür uzunluğu təxminən 40-45 ildir. Yəni beynəlxalq arenada bəyan edilən bütün ambisiyalara baxmayaraq, təhsil, səhiyyə, sosial müdafiə kimi daxili göstəricilər dünya üzrə elan edilmiş standartlardan xeyli geridə qalır.

Üstəlik, ölkənin özü sistematik şəkildə korrupsiyadan və siyasi elitanın hakimiyyətdən sui-istifadə etməsindən əziyyət çəkir. Çox qəribədir ki, belə bir ölkə qlobal kommunikativ oyunçu roluna iddialıdır. Nyu Delhidə hesab edirlər ki, kommunikasiya ambisiyaları məsələsində onlar Çinlə rəqabət apara, özlərini qlobal oyunçu kimi göstərə bilərlər. Bu isə Hindistanın daxili imkanları ilə yumşaq desək, qeyri-mütənasibdir. Hindistan tərs-müəyyən gələcəyə malik ölkədir. Bu, ölkənin imici ilə reallıq arasında uçurum yaradır.

Ermənistan isə Hindistanın qlobal kommunikasiya təşəbbüslərində həm Avropaya, həm də Yaxın Şərqə keçid ölkədir. Bundan əlavə, onları birləşdirən digər məqamlar da var. Məsələn, etnik-mental oxşarlıq üzərindən Hindistan və Ermənistan arasında münasibətlər formalaşmaqdadır.

Hindistan Ermənistanı silahlandırmaqla ilk növbədə öz maraqlarını irəli aparır. Nyu Delhinin məqsədi Cənubi Qafqazda möhkəmlənməkdir. Əlbəttə, bu intensiv silahlanma regionda yeni gərginliyə aparır. Hindistan bununla "regionda mənim də maraqlarım var və onlar həyata keçirilməlidir" mesajını verir. Bu isə Hindistan xarici siyasətinin əsrlər boyu yetişdirilmiş siyasi romantizmə əsaslandığını bir daha sübut edir.

## Ekspert rəyi



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

– Ermənistanın silahlanması prosesinin sürətlə getməsi gündəmdən düşmür. Azərbaycan Vətən müharibəsində qalib gəldikdən, suverenliyini bərpa etdikdən sonra Ermənistan dərhal silah axtarışına çıxdı. Özünə havadarlar tapdı və sürətlə silahlanma prosesinə başladı. Təəssüf ki, bu proses sürətlə davam edir.

Ermənistan təhlükəli oyun oynayır. Bu oyun nəinki ölkəmizin, bütövlükdə, regionun təhlükəsizliyinə təsir edir. Eyni zamanda, İrəvanın bu siyasəti Ermənistanın bir dövlət kimi mövcudluğunu da sual altına qoyur.

Əgər Ermənistan özü silahlansaydı, bu, başqa məsələ idi. Amma Ermənistanın silahlandırılması daha təhlükəli prosesdir. Aydındır ki, ölkəni silahlandırmaqda maraqlı olan qüvvələr keçmiş münaqişədən yararlanaraq öz maraqlarını bu regionda çirkin əməlləri ilə təmin etmək istəyirlər. Bu da çox təhlükəli addımdır. Ermənistan rəsmiləri dildə sülhdən danışaraq, delimitasiya-demarkasiya prosesini də dondurublar. Əgər dondurmasaydılar, bəlkə də indiyədək şərti sərhədin yarısı ilə bağlı bu proses başa çatardı.

İrəvanın bu gün delimitasiya prosesini dayandırması, fortifikasiya qurğularının qurulması, şərti sərhədə yaxın təlimlərin aparılması, Avropa İttifaqı missiyasının kəşfiyyat xarakterli müşahidələri aparması qətiyyən sülhə xidmət etmir.

Onu da deyim ki, verilən silahlar o qədər də güclü, müasir silahlar deyil. Əvvəla, Hindistanın hərbi-sənaye kompleksi keçmiş SSRİ-nin və Rusiyanın verdiyi, yəni artıq köhnəlmiş patentlər əsasında istehsalla məşğuldur. Bir sıra hallarda Fransa patenti əsasında Ermənistan üçün silahlar istehsal olunur. Hindistanın verdiyi 6 ədəd "Haubitsa"nın dördündə nöqsanlar tapılmışdı. Əgər bu gün Hindistanın silah bazarına çıxardığı son silahlara nəzər salsaq deməliyik ki, "Akash" tipli hava hücumundan müdafiə sistemlərini alan yeganə dövlət Ermənistandır. Yəni, silah bazarında Hindistan hərbi-sənaye kompleksinin istehsal etdiyi və Ermənistana göndərilən silahlar müasir döyüşlərin tələblərinə cavab vermir.

# Korsika müstəqillik tələb edir

## Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkənlərin yanındadır

**Gün gələcək, təkcə korsikalılar deyil, həmçinin Fransanın müstəmləkəsi altında əziyyət çəkən digər xalqlar da əsarətdən qurtulacaqlar. Dünyada cərəyan edən hadisələrin gedişatı və müstəqillik işartıları məhz bu qaçılmaz perspektivdən xəbər verir. Hələlik müstəqilliyini və kimliyini Parisdən daha qətiyyətlə tələb etmək mərhələsini yaşayan Korsikanın səsinə azadlığı və ədaləti sevən ölkələr səs verməkdədirlər. Onların arasında Azərbaycanın səsi daha gur eşidilir.**

İtaliyanın Roma şəhərində "Milli kimlik, müqavimət və suverenlik: Korsika üçün perspektivlər" adlı tematik konfrans keçirilib. Tədbir Bakı Təşəbbüs Qrupu və Fransa müstəmləkəçiliyindən əziyyət çəkən, Korsikanın müstəqilliyi uğurunda mübarizə aparan "Nazione" Hərəkatının birgə təşkilatçılığı ilə baş tutub.




Konfransda "Nazione" Hərəkatının rəhbər heyəti və üzvləri, həmçinin İtaliyada fəaliyyət göstərən beyin mərkəzlərinin nümayəndələri, dekolonizasiya hüququ üzrə ekspertlər, eləcə də Milli Məclisdə fəaliyyət göstərən Korsika Xalqına Dəstək Qrupunun üzvü iştirak edib. Onlar Fransanın müstəmləkə istibdadından əziyyət çəkən Korsika xalqının qarşılaşdığı problemlər, habelə siyasi, hüquqi, iqtisadi, sosial, mədəni və digər məsələləri müzakirə ediblər.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov mediaya açıqlamasında bildirib ki, konfrans çərçivəsində Fransa müstəmləkə siyasətindən əziyyət çəkən Korsika xalqının qarşılaşdığı əsas problemlər – siyasi, hüquqi, iqtisadi, sosial, mədəni və digər məsələlər müzakirə olunub. O qeyd edib ki, BTQ adada Fransa tərəfindən Korsika dilinin dövlət dili kimi tanınmamasını və yerli mədəniyyətin sıxışdırılmasını insan hüquqlarının pozulması kimi qiymətləndirir və assimilyasiya siyasətinə qarşı çıxır.

Konfransda, həmçinin milli kimliyin və Korsika dilinin rəsmi statusunun tanınması, mədəni irsin qorunması, korsikalıların öz müqəddəratını təyin etmək hüququnun təmin edilməsi, BMT və digər beynəlxalq təşkilatların müvafiq mexanizmlərini rəhbər tutaraq müstəqillik perspektivləri də təhlil olunub.

*

Bəli, Korsika Fransa müstəmləkəsindən azad olmaq istəyir. Amma Emmanuel Makron hökuməti onların azadlıq səsini boğmaqda israrlı görünür. Paris, əslində, dünyanın XIX əsrdə qalmadığını, artıq XXI əsrlə nəfəs aldığını unudur. Mütəmadi olaraq Korsika xalqına qarşı müstəmləkəçi siyasət yürüdən rəsmi Paris yenə də onların iradələri əleyhinə addımlar atmaqda, bu xalqın azadlıq istəyinin qarşısına çəpər çəkməkdə davam edir.

Korsika parlamenti adanın muxtariyyətinə dair qanun layihəsini bir il bundan əvvəl qəbul edib. O zaman "Le Figaro" qəzeti yazırdı ki, 6 maddədən ibarət sənəd 3 hissəyə bölünərək səsverməyə çıxarılıb. Qanunun birinci maddəsinə görə, Korsikanın Fransa hüdudları daxilində muxtariyyəti tanınır, icmanın tarixi, linqvistik və mədəni xüsusiyyətləri nəzərə alınırdı. Parlamentin 63 deputatından 62-si bu maddənin lehinə səs vermişdi.

Digər maddələr normativ hüquqlara, sığorta və digər məsələlərə aiddir. Bu maddələr də səs çoxluğu ilə qəbul edildi. Amma müstəqillik tərəfdarı olan "Nazione" Hərəkatı bu irticaçı qanun layihəsinin əleyhinə çıxmışdı. Hərəkatın Korsika parlamentindəki yeganə deputatı Jozefa Ciakometti Piredda bütün maddələrin əleyhinə səs vermişdi. Xanım deputatın fikrincə, Parisdə daxili işlər naziri Jerar Darmaninin rəhbərliyi altında hazırlanan qanun layihəsi irəliyə doğru addım deyil, əksinə, korsikalılar üçün buxovdur. Məqsəd konstitusiya baxımından əhəmiyyət daşımayan məsələləri rəsmiləşdirməkdir.

Parlamentin səs verdiyi həmin sənədin qanuni qüvvəyə minməsi üçün, o, Fransa parlamentinin hər iki palatası tərəfindən təsdiqlənməlidir. Yəni Makron hakimiyyəti muxtariyyət oyunu ilə Korsikanın müstəqilliyə gedən yolunu birdəfəlik bağlamaq istəyir. Fəqət Paris azadlıq selinin qarşısını heç bir bəndlə kəsə bilməyəcək. Çünki Korsikanın öz müqəddəratını təyinetmə və müstəqillik uğrunda mübarizəsi Fransanın digər müstəmləkə ərazilərində aparılan azadlıq hərəkatları ilə həmrəylik nümayiş etdirən ümumi müstəmləkəçilik siyasətinə qarşı vahid müqavimət dalğasının tərkib hissəsidir.

Oxuculara xatırladaq ki, Fransa müstəmləkəsindən əziyyət çəkən xalqların son illər Bakıda toplaşması, buradan dünyaya müstəqillik arzularını bəyan etməsi, eləcə də Türkiyədə, Rusiyada, digər ölkələrdə analoji tədbirlər keçirməsi nəticəsiz qalmayacaq. Korsika xalqına azadlıq vermək istəməyən, onların başını muxtariyyət oyunu ilə qatan Makron hökuməti Qarabağda bir ovuc erməniyə "müstəqillik" tələb edirdi. Özünün "ərazi bütövlüyünü" bu şəkildə qoruyan, xalqların müstəqillik hüququnu tanımaqdan boyun qaçıran Fransanın Azərbaycanın ərazi bütövlüyünə qarşı düşmən münasibət bəsləməsinə nə ad vermək olar? İkili standart, qərəz və ermənidən artıq ermənilik! Azərbaycanın ərazi bütövlüyünün əleyhinə çıxan Makron hökuməti vaxtilə işğal etdikləri ərazilərin əsl sahiblərinin müstəqil dövlət qurmaq istəyinə niyə qısqanc yanaşır?

Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini təmin edib. Eyni qisməti Korsika da yaşayacaq. Fransanın bunu həzm edə bilib-bilməməsindən asılı olmayaraq.

***İ.HƏSƏNQALA***
***XQ***

## Ekspert rəyi



**Faiq ƏLƏKBƏRLİ,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru:**

– Fransa öz irticaçı siyasətini dayandırmaq istəmir, bu səbəbdən də korsikalıların müstəmləkə buxovundan azad olunmasını əngəlləyir. Korsika parlamentində adanın muxtariyyətinə dair qanun layihəsinin qəbul edilməsinin müstəqillik tərəfdarları tərəfindən narazılıqla qarşılanması təbii idi. Çünki korsikalılar müstəqil olmaq istəyirlər, rəsmi Parisdən asılılığa son qoymağa çalışırlar. Amma Makron hökuməti yenə də onların bu istəklərinin, uzun illərdən bəri apardıqları mübarizənin qarşısını öz absurd addımları ilə almağa çalışır. Bütün dünya bilir ki, Korsika adasının əhalisi müstəqil olmaq istəyir və bu, onun haqqıdır.

Bakı Təşəbbüs Qrupunun məlum konfransın təşkilatçısı qismində çıxış etməsi təqdiredici haldır. Bu, Azərbaycanın neokolonializmə qarşı apardığı məqsədyönlü siyasətinin ayrılmaz tərkib hissəsidir.

Bir il bundan əvvəl Fransa hüdudları daxilində Korsikanın muxtariyyətinə dair qərarın qəbul edilməsi korsikalıların müstəqilliyə gedən yolunu bağlamağa xidmət edirdi. Müstəqillik tərəfdarı olan qüvvələr bu layihənin Fransa parlamentinin hər iki palatasında təsdiqlənməsinin baş tutmaması üçün addımlar atdılar. Düzdür, birdən-birə müstəqillik aktını imzalamaq çətindir. Amma buna nail olmaq üçün korsikalılar illərdir mübarizə aparırlar. Fransa hökuməti muxtariyyət oyunu ilə onların müstəqilliyə gedən yolunu birdəfəlik bağlamaq istəyir.

Amma burada bir məqam da var ki, onu nəzərdən qaçırmamalıyıq. İndiyə qədər onlar çox böyük çətinliklə öz dillərini, mədəniyyətlərini, milli kimliklərini qoruyub saxlamağı bacarıblar. Həm də bu səbəbdən Korsikanın yaxın gələcəkdə müstəqil olması qaçılmazdır. Makron hökuməti elə zənn edir ki, muxtariyyət oyunu ilə bu prosesin qarşısını ala biləcək. Qətiyyən belə deyil. Onlar öz mübarizələrini davam etdirəcəklər. Ola bilsin, Korsikanın daxilində kimlərsə muxtariyyət məsələsi ilə razılaşsın, amma müstəqillik tərəfdarları öz mübarizəsini dayandırmayacaqlar. Milli kimliyini və suverenliyini tələb edən korsikalılar üçün uğurlu perspektivi indidən görmək mümkündür.

# Avropanın açıq qapıları bağlanırmı? – Şengenin siyasi sınağı

**Bir vaxtlar Avropa İttifaqının ən parlaq nailiyyətlərindən biri kimi təqdim olunan Şengen zonası bu gün tənəzzül dövrünü yaşayır. Şengen Avropa siyasi mədəniyyətinin, ortaq dəyərlərin və qarşılıqlı etimadın təcəssümü idi. Ancaq son onillikdə baş verən siyasi təlatümlər – miqrasiya böhranı, pandemiya, artan terror təhlükələri və populist liderliyin yüksəlişi – bu nizamın sütunlarını sarsıdıb. Bu gün biz artıq bir sualla qarşı-qarşıyayıq: Avropa ideyasının real bünövrəsi hesab edilən Şengen məhv olurmu, yoxsa sadəcə, səssiz-səmirsiz, tədricən dağıdılır?**




Şengenin aşınması birbaşa Avropa siyasi iradəsinin zəifləməsi, suverenliklə birlik ideyası arasında gərginliyin dərinləşməsi və ittifaq daxilində güvənin çökməsi ilə bağlıdır. Əslində, Şengen böhranı — Avropa İttifaqının içindəki daha geniş bir siyasi parçalanmanın simptomudur.

Məsələ tək sərhədlərin açıq və ya qapalı olmasında deyil. Məsələ belədir: Avropa dövlətləri bir-birinə nə qədər etibar edirlər? Və bu etimad hansı şərtlərlə qoruna bilər?

Əgər Şengenin dayandığı əsas prinsip qarşılıqlı etimad və məsuliyyət paylaşımıdırsa, bu gün Avropa liderləri bu iki anlayışın dağılmasına səssiz qalmaqla həmin prinsipləri şübhə altına alırlar. Özünü "vahid dəyərlər birliyi" kimi təqdim edən Avropa İttifaqında artıq dövlətlər ikitərəfli ittifaqlara üstünlük verirlər, ortaq Avropa mexanizmləri isə səmərəsiz və zəif görünür.

Əlavə olaraq, populist və sağçı siyasi qüvvələrin yüksəlişi Şengen rejiminə qarşı siyasi hücumların artmasına səbəb olub. Millətçi ritorika bu sərbəst hərəkət sistemini milli təhlükəsizliyə və kimliyə təhdid kimi təqdim edir. Bunun nəticəsində siyasi elitalar daha çox daxili seçki maraqları naminə ortaq Avropa dəyərlərindən uzaqlaşırlar.

1985-ci ildə imzalanan və 1995-ci ildən tam fəaliyyətə başlayan Şengen Sazişi Avropanın siyasi yaddaşına vurulan mühüm bir möhür idi: Avropa artıq müharibə, parçalanma və şübhə dövrlərini arxada qoymuşdu.

Şengen – tarix boyu savaşlarla bölünmüş bir qitənin birlik və etimad üzərində qurulmuş yeni siyasi mədəniyyətini bəyan edirdi. Bu sistemə təkcə Avropa İttifaqının üzvləri deyil, İsveçrə, Norveç, İslandiya kimi qeyri-üzv dövlətlər də qoşulmaqla onun cazibəsini və effektivliyini təsdiqlədilər.

Əslində, Şengen Avropa inteqrasiyasını insanların gündəlik həyatına gətirdi. Tələbələr sərbəst təhsil aldılar, iş adamlarının ayağı sərhədsiz bazarlara açıldı, turistlər bir ölkədən digərinə keçərkən artıq sərhəd gözləmələrində vaxt itirmədilər. Nəticədə, gündəlik həyatla siyasi vizyon vəhdətə çevrildi.

Ancaq daha önəmlisi odur ki, Şengen Avropa İttifaqının "vahidlik içində fərqlilik" prinsipinin canlı nümunəsidir. Saziş Avropanın yalnız iqtisadi layihə olmadığını, həm də sülh, birgəyaşayış və qarşılıqlı məsuliyyət ideyası olduğunu sübut etdi. Şengen bu ideyanın fiziki simvoluna çevrildi – yox olan sərhədlər yerinə qurulan etimad körpüləri oldu. Bu gün isə həmin körpülər çat verir.

2015-ci ilin qaçqın axını Avropanın insan haqları və humanitar prinsipləri ilə sərhəd nəzarəti və milli təhlükəsizlik arasında necə ikili standartlara yuvarlana biləcəyini göstərdi. Yüz minlərlə insan Yaxın Şərqdən Avropaya axışanda ilk reaksiya həmrəylik oldu – lakin çox keçmədən bu həmrəylik qorxuya çevrildi.



Almaniyanın "açıq qapı" siyasəti bir tərəfdən təqdir olunsa da, digər tərəfdən, Şərqi və Mərkəzi Avropa dövlətlərində sərt reaksiyalara səbəb oldu. Macarıstan tikanlı məftillərlə sərhədlərini bağladı, Polşa, Slovakiya və Çexiya isə Brüsselin miqrant bölgüsü planını açıq şəkildə rədd etdilər. Nəticə? Şengenin əsas prinsipi olan qarşılıqlı etimad dağıldı.

Məsələ yalnız miqrant sayında deyildi – məsələ birgə məsuliyyətin yoxluğunda, ortaq Avropa yanaşmasının çat verməsində idi.

2015-ci ildə Parisdə, 2016-cı ildə Brüsseldə baş verən qanlı terror aktları Avropa ictimai fikrində sərhədsizliyin təhlükəsizliklə ziddiyyət təşkil etdiyi düşüncəsini gücləndirdi. Baxmayaraq ki, əksər hallarda terrorçular artıq Avropa vətəndaşları olsalar da, siyasi ritorika fərqli istiqamət aldı: "Açıq sərhədlər terrorçulara sərbəst hərəkət imkanı verir."

Nəticədə bu addımlar populist qüvvələrin əlinə fürsət verdi. Sərhədləri qapamaq yalnız təhlükəsizlik tədbiri kimi deyil, milli suverenliyin bərpası kimi təqdim olundu ki, bu da birbaşa Şengenə qarşı yönəlmiş siyasi kampaniyalara zəmin yaratdı.

2020-ci ildə dünya pandemiya ilə çalxalananda ilk reaksiyalar yenə milli oldu. Avropa ölkələri ardıcıl şəkildə sərhədlərini bağladı. Hətta qonşular arasında illərlə mövcud olan sərhədsizlik də ləğv edildi. Fransa ilə Almaniya arasında, İtaliya ilə Sloveniya arasında sərhəd keçidlərində yüzlərlə kilometr tıxaclar yarandı.

Bunlar pandemiyadan çox əvvəl baş vermiş böhranların davamı idi – Şengenin mexanizmlərinin kollektiv cavab vermək gücündə olmadığını göstərdi.Pandemiya sübut etdi ki, siyasi iradə olmadıqda Avropa ideyası öz-özünə ayaqda dura bilmir.

Şengen sisteminə qarşı ən böyük siyasi təhlükə onun arxasında dayanan ictimai və siyasi konsensusun zəifləməsidir. Bu gün Avropa ölkələrində populist partiyalar parlamentlərə daxil olur, hakimiyyətə yüksəlir və milli sərhədlərin "müqəddəsliyini" siyasi gündəmin mərkəzinə çəkirlər.

Onlar üçün Şengen sərhədsizlik deyil – Avropa İttifaqının özüdür: bürokratik, uzaq, hesabat verməyən bir struktur. Elə həmin ritorika "Brexit" kimi qərarların da psixoloji əsasını təşkil etdi. Belə siyasətçilərin səsi artdıqca, sərhədsizlik "risk" kimi göstərildikcə Şengenin siyasi dayaqları da süquta uğrayır.

Bugün isə biz bu sərhədlərin bir-bir geri qayıtdığını, Avropa ölkələrinin milli maraqları ön plana çəkərək "birlik ideyası"ndan uzaqlaşdığını müşahidə edirik və tənəzzülün nəticələri iqtisadi, sosial və geosiyasi sahələrə qədər sirayət edir.

Şengenin zəifləməsi Avropanın açıq bazar sistemini də təhdid edir. Sərhədlərin yenidən nəzarət altına alınması logistika xərclərini artırır, ticarət zəncirlərini ləngidir və əmək bazarının çevikliyini zəiflədir. Pandemiya dövründə bir neçə həftəlik sərhəd bağlanmaları Avropa iqtisadiyyatına milyardlarla avro ziyan vurdu. Daimi sərhəd yoxlamaları isə ixracatçıların və nəqliyyat sektorunun üzərinə əlavə yük gətirir. Avropa Komissiyasının hesablamalarına görə, Şengen rejiminin tam iflası ildə təqribən 100 milyard avroya qədər ziyan deməkdir.

Avropa birliyi layihəsi təkcə iqtisadi deyil, həm də mədəni inteqrasiya layihəsidir. Şengen sistemi sayəsində Avropa vətəndaşı olma anlayışı formalaşmışdı. İnsanlar özlərini bir ölkənin deyil, Avropanın vətəndaşı kimi hiss etməyə başlamışdılar. İndi isə sərhədlərin qapanması, millətçi ritorikanın güclənməsi və "digərinə" qarşı qorxuların artması bu identiteti zəiflədir. Əgər sərhəd gözləmələri, pasport yoxlamaları, ayrı-seçkilik ritorikası gündəlik həyata qayıdırsa, Avropa dəyərləri arxa plana keçəcək.

Şengen böhranı, eyni zamanda, Avropa İttifaqının geosiyasi təsirini də zəiflədir. Xarici tərəfdaşlar – ABŞ, Çin, Rusiya, Türkiyə və digərləri – artıq Aİ-yə siyasi cəhətdən zəif, daxili birliyi pozulmuş struktur kimi baxırlar. Nəticə etibarilə, bu amil Avropanın beynəlxalq diplomatiyada manevr imkanlarını azaldır.

Unutmaq olmaz ki, Avropa İttifaqının "yumşaq gücü" onun daxili modelinin cazibəsində idi. Şengen rejimi bu modelin görünən vitrinlərindəndir. İndi isə həmin vitrin sarsılırsa Aİ-nin xarici tərəfdaşlar üzərindəki yumşaq gücü də ciddi sual altına düşür.

Şengenin böhranı təkcə keçmişin dağılması deyil, gələcəyin də qurulması üçün fürsət ola bilər. Avropa ölkələri ya qorxu siyasətinə təslim olacaq, ya da yenidən birgə məsuliyyət modelini gücləndirəcəklər. Bunun üçün isə siyasi liderlik, cəsarətli qərarlar və populizmdən uzaq, strateji yanaşma tələb edilir.

Avropa İttifaqının ruhu birlikdə qərar vermək, ortaq məsuliyyəti daşımaq və fərqliliklər içində ahəng yaratmaq üzərində qurulmuşdu. Lakin son illərdə baş verən miqrasiya böhranı, pandemiya, "Brexit", Rusiya–Ukrayna müharibəsi və artan sağ-populist axın bu modeli sarsıdıb. Şengen böhranı bu zəncirin həm simvolik, həm də funksional qırılma nöqtəsinə çevrilib.

Əgər Avropa bu böhrandan konstruktiv nəticə çıxara bilməzsə, sərhədsiz səyahətin yoxa çıxması ilə yanaşı, daha dərin bir təhlükə – Avropa ideyasının özünün aşınması baş verəcək. İnsanlar artıq Aİ-ni rahatlıq və rifah mənbəyi kimi deyil, qərarsız və təzadlarla dolu bir struktur kimi görəcəklər. Nəticədə növbəti siyasi qütbləşmələr, ifrat sağın güclənməsi və inteqrasiyanın daha da zəifləməsi sürətlənə bilər.

Avropa indi bir yol ayrıcındadır. Ya o, Şengen rejimini yenidən quracaq, daha çevik və ədalətli mexanizmlərlə onu gücləndirəcək, ya da bu rejim populizm və siyasi eqoizm dalğasında boğulacaq.

Mövcud mənzərədə Aİ liderlərinə düşən vəzifə aydındır: etimadı bərpa etmək, həmrəylik prinsipini praktik siyasətə çevirmək və avropalı olmaq anlayışını yalnız pasportlarda deyil, gündəlik həyatda yaşatmaq.

Əks-təqdirdə, gələcək tarix kitablarında Şengenin dağılması bir ideyanın – sərhədsiz, tolerant və vahid Avropanın – sonu kimi anılacaq.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# "Şərq və Qərblə əməkdaşlıqda əsas amil milli maraqlarımızdır"

**Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev Milli Məclisdə "Qlobal Cənubun yüksəlişi və Qərb: Azərbaycanın rolu, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı dedi.**



Bu gün qloballaşan dünyada güclərin dəyərlər deyil, maraqlar üzərində təmərküzləşməsi prosesini müşahidə etməkdəyik. Yeni mərkəzlərin yaranması, ittifaqların qurulması ilə müşayiət olunan qloballaşmada ölkələr yerini və mövqeyini necə müəyyən etməlidirlər? Onlar regional, yaxud qitələrarası məsələlərin müzakirəsində, problemlərin həllində hansı addımları atmalıdırlar? Bu suallar dünənədək müttəfiq olmuş, bu gün əks qütblərdə yer alan "böyük güclər"i də ciddi seçim qarşısında qoyub.

"Bu kontekstdən yanaşanda Qlobal Cənubun hazırda gündəliyində çox ciddi məsələlər durur. Bunlar ikili standartlar, Rusiya–Ukrayna münaqişəsi, qaçqınların qəbulu və s. kimi məsələlərdir. Bu prioritet məqamlardan irəli gələn beynəlxalq hüquq məsələlərinə də diqqət yetirilir". Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev mövzu ilə bağlı XQ-yə açıqlamasında Qlobal Cənubun nə beynəlxalq təşkilat, nə də ayrıca platforma olduğunu bildirdi: "Bunun siyasi-iqtisadi anlayış kimi qəbul edilməsini ən doğru variant sayıram. Azərbaycan bugünədək bu çərçivədə müəyyən fayda əldə edib və bundan sonra da faydalana biləcək".

BMTM sədri burada həm siyasi dividendlərin, həm nüfuzun daha da artırılması, həm də əldə ediləcək geniş siyasi dəstəkdən söhbət getdiyini önə çəkdi. Buna misal olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin BMT Təhlükəsizlik Şurası çərçivəsində Azərbaycana göstərdikləri dəstəyi xatırladan F.Şəfiyev artıq münaqişə bitdikdən sonra buna ehtiyac qalmadığını da deməyi unutmadı: "BMT Təhlükəsizlik Şurasında üç dəfə (2020–2023-cü illərdə) Azərbaycan əleyhinə qərar və qətnamə qəbuluna cəhdlər göstərilsə də, bunların qarşısı operativ şəkildə alındı və neytrallaşdırıldı". O, bundan sonra da Azərbaycanla bağlı hər hansı siyasi məsələ gündəliyə gətirilərsə, Bakının yenə də həmin dəstəyə ümid edə biləcəyini xüsusi vurğuladı.

*

Azərbaycana beynəlxalq mustəvilərdə dəstəyin, ilk növbədə, Qoşulmama Hərəkatına üzv ölkələrinin hesabına baş tutduğunu bir daha qeyd edən BMTM sədri sözlərinə onu da əlavə etdi ki, ticarət baxımından bir neçə ölkənin Azərbaycandan asılılığı var: "Enerji məhsulları Avropaya, kənd təsərrüfatı məshulları isə daha çox Rusiyaya ixrac edilir. Afrika ölkələri ilə əməkdaşlıq, ticarət məsələləri gücləndirilərsə, həmin ölkələrə də bu kimi məhsulları sata bilərik. Milli təhlükəsizlik məsələsinə çevrilən strategiyaya əsasən enerji gəlirlərindən asılılığımızı da azaltmalıyıq. Çünki dünya bazarında neftin qiyməti aşağı düşməkdədir".

Bizimlə söhbətində mövzu ilə bağlı xüsusi bir məqama da toxunan BMTM sədri Qlobal Cənubun müəyyən dərəcədə anti–Qərb xarakter daşıdığı barədə fikirlərini bölüşdü: "Müzakirəyə çıxarılan bu və ya digər məsələdən asılı olaraq, Azərbaycan, təbii ki, məhz bu çərçivədə dəstəyini əsirgəmir. Buna misal olaraq, COVID-19 epidemiyası dövründə Qərbin yürütdüyü peyvəndləmə siyasətində Azərbaycan Qoşulmama Hərəkatı adından Qlobal Cənub platformasını dəstəkləmişdi. Bununla bağlı bir sıra müraciətlər edildi, bəyanatlar verildi. Amma, bu, o demək deyil ki, Azərbaycan, ümumiyyətlə, anti–Qərb siyasəti aparır. Xeyr, bu, belə deyil. Bütün dünya görür ki, Bakı Avropanın aparıcı dövlətləri ilə enerji təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığını inkişaf etdirməkdədir. Əslində, bu, çox doğru siyasətdir. Yəni ortaya çıxan məsələdən, problemdən asılı olaraq, Azərbaycan istər Qərblə, istərsə də Şərqlə əməkdaşlığını davam etdirəcək. Burada başlıca amil Azərbaycan dövlətinin və Azərbaycan xalqının milli maraqlarıdır". Daha sonra Azərbaycanın Braziliya, Çin, Hindistan kimi ölkələrlə əməkdaşlığın artırılmasına ehtiyac duyduğunu qeyd edən F.Şəfiyev bu sırada Hindistanla əlaqələrin böyük əhəmiyyət kəsb etdiyini önə çəkdi: "Məsələn, Hindistan qlobal arenada aktiv ölkələrdəndir. Doğrudur, bu ölkə ilə bəzi problemlərimiz var. Buna görə onunla əməkdaşlıq qapalı şəraitdə müzakirə oluna bilər. Çünki Qlobal Cənub Azərbaycan üçün çox önəmli platformadır".

*

Hər şeydən göründüyü kimi, Qlobal Cənub özünün inkişaf mərhələsindədir. Yəni istər iqtisadi baxımdan, istərsə də siyasi nüfuzun və təsir dairələrinin genişləndirilməsi bu düşərgədə yer alan ölkələr tamamilə yeni bir dövrə qədəm qoyurlar. Bu, həm də çox böyük coğrafiyanı əhatə edən yeni beynəlxalq areal deməkdir. Statistikaya nəzər salsaq görərik ki, dünya əhalisinin 85 faizi, qlobal ümumdaxili məhsulun isə 39 faizi məhz bu ölkələrin payına düşür. Digər tərəfdən, Qlobal Cənub dövlətləri hazırda həm iqtisadi, həm də siyasi transformasiya dövründən keçirlər.



Son proseslər Qlobal Cənubun dünyanın aparıcı təşkilatları və güc mərkəzləri tərəfindən qəbul edilməsindən xəbər verir. Bunun bariz nümunəsini bir neçə beynəlxalq təşkilatın timsalında görə bilərik. Son vaxtlar baş verən önəmli dəyişikliklərdən biri – "Böyük 20-lik" (G20) təşkilatının Afrika İttifaqını tamhüquqlu üzv kimi sıralarına qəbul etməsidir. Bu fakt "Qara qitə"nin getdikcə artan nüfuzunun göstəricisi sayılmalıdır. Başqa bir nümunə kimi BRICS-i göstərə bilərik. Yarandığı zaman beş dövlətdən ibarət olan bu beynəlxalq alyans sonradan daha dörd tamhüquqlu üzv dövlətin qoşulması ilə genişləndi. Bu isə BRICS-in artıq Qlobal Cənubun mühüm təmsilçilərindən birinə çevrildiyi deməkdir.

*Təqdim etdi:*
*İ.HƏSƏNQALA*
*XQ*

(əvvəli 1-ci səhifədə)

# Trampın yeni baxışı – gözləntilər və sabit Azərbaycan modeli

Məlum oldu ki, İraqda nəinki kimyəvi, heç bir kütləvi qırğın silahı olmayıb. Maraqlıdır ki, bunu da Birləşmiş Ştatların İraq intervensiyasının ilhamvericiləri olan media orqanları bəyan etdilər. Onlardan biri, hətta, yaydığı yanlış məlumata görə üzr də istədi. Dəhşətli mənzərədir, minlərlə dinc insan həyatını itirir, bir üzrlə hər şey yoluna qoyulur. Ancaq başqa dəhşətlər də var...

Bəli, İraq neft ölkəsidir, deməli, Birləşmiş Ştatların hərbi kampaniyasının məqsədi məlumdur, bu, öz yerində. Hazırda isə Trampın dəst-xətti Amerikanı ənənəvi kollektiv Qərb siyasəti kontekstindən uzaqlaşdırmağı rəhbər tutur. Tam aydındır ki, ikincinin təlqin etdiyi dəyərlərlə Ağ evin yeni sahibinin baxış bucağı arasında ciddi ziddiyyətlər var. Qərb aləmi uzun illərdir digər xalqlara insan haqları, söz azadlığı kimi demokratik dəyərləri gətirdiyini iddia edir. Bu kimi təqdimatların nəyə hesablandığını yaxşı bilirik.

Onu da bilirik ki, belə saxta yanaşmaların başlıca katalizatoru rolunda çıxış edən məhz ABŞ olub. Avropa, prinsip etibarilə, Vaşinqtonun direktivlərinin lobbiçiliyini aparıb və sabiq SSRİ-nin dağılması, “soyuq müharibə”nin bitməsindən sonra müşahidə edilən başlıca tendensiya budur. Hələ kollektiv Qərbin Birləşmiş Ştatların hakim rol oynadığı NATO seqmenti kimi güc aparatı da iş başında olub. “Yumşaq güc” alətləri də öz yerində.

“Yumşaq güc”dən söz düşmüşkən, D.Tramp Səudiyyədəki çıxışında neokonservatorları, liberal yönümlü QHT-ləri, ayrı-ayrı Qərb fondlarını kəskin şəkildə pisləyib və onları trilyonlarla dolları havaya sovurmaqda günahlandırıb. Axı həmin QHT-lər və fondlar idilər ki, Kabildə, Bağdadda və digər yerlərdə, guya, sabitlik yaradır, insanları xoşbəxt gələcəyə inandırırdılar. Nə etdikləri yaxşı məlumdur.

Əslində, məqsəd, obrazlı desək, beyinləri yumaq, ənənəvi dəyərləri sıradan çıxarmaqla insanları manqurtlaşdırmaq, kosmopolit dünya üçün heç bir milli hissləri olmayan biganə, siyasi manipulyasiyalara açıq şüursuz kütlə formalaşdırmaq idi. Əlbəttə, bu gedişata uymayanlar, öz yolunu tutanlar oldu. Qürurla deyə bilərik ki, Azərbaycan da onların sırasındadır və bu barədə söz açacağıq.

...D.Tramp hələ 2024-cü ildə, yəni ikinci dəfə Prezident seçilməzdən əvvəl ABŞ-ın xarici yardımı yalnız kredit şəklində və ya müəyyən şərtlərlə verməli olduğunu açıqlamışdı. O, “biz artıq heç bir ölkəyə qarşılıqsız pul verməməliyik” deyərək, bu yardımların Birləşmiş Ştatlara geri qaytarılmasının vacibliyini bildirmiş və ya müəyyən faydalar gətirməsini tələb etmişdi. 2025-ci ildə isə o, dövlət başçısı səlahiyyətlərinin icrasına başlayar-başlamaz “Executive Order 14169” (Birləşmiş Ştatların Xarici Yardımının Yenidən Qiymətləndirilməsi və Düzəldilməsi) adlı sərəncam imzalayaraq, ABŞ-ın xarici yardım proqramlarını 90 gün müddətinə dayandırdı. D.Tramp həmin proqramların bir çoxunu “bizə nifrət edən ölkələrə milyardlarla dollar vermək” kimi qiymətləndirərək, yardımlara son qoydu. O, ABŞ Beynəlxalq İnkişaf Agentliyi – USAID-i ləğv etdi, addımının hökumət israfçılığının qarşısını almaq və səmərəliliyi artırmaq məqsədi daşıdığını açıqladı.



Əlqərəz, D.Trampın hazırda da bildirdiyi budur ki, ABŞ əvvəlki siyasətindən daha istifadə etməyəcək, çünki səmərəsizdir. Ağ evin sahibi onu da deyib ki, Səudiyyə Ərəbistanının və Birləşmiş Ərəb Əmirliklərinin indiki uğurları bölgə xalqlarının sırf özlərinin nailiyyətidir və müsbət durumu heç bir halda Qərbin, o cümlədən ABŞ-ın xidməti kimi dəyərləndirmək olmaz.

Onu da bildirək ki, Tramp administrasiyası 2025-ci ildə ABŞ-ın Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və GAVI kimi qlobal sağlamlıq təşkilatlarına maliyyə dəstəyini də dayandırıb. Bu addımlar inkişaf etməkdə olan ölkələrdə peyvənd proqramlarının və digər sağlamlıq təşəbbüslərinin zəifləməsinə səbəb olub. Mütəxəssislər vəziyyətin qlobal səhiyyə sisteminə mənfi təsir göstərə biləcəyini və Birləşmiş Ştatların beynəlxalq nüfuzunu zəifl ədəcəyini vurğulayırlar ki, mövcud məqamın Trampı bir o qədər düşündürdüyünü söyləmək mümkün deyil. Çünki onun başqa prioritetləri var.

Trampın Ər-Riyadda bildirdiklərindən gəlinən daha bir nəticə budur ki, ABŞ qarşıdakı müddətdə regional liderlərlə əməkdaşlığa, terrorizmlə mübarizəyə, habelə, qarşılıqlı iqtisadi maraq yaradacaq layihələrə köklənəcək. Bir sözlə, Vaşinqton Birləşmiş Ştatların əvvəlki administrasiyasının zamanında olduğu kimi, neoimperialist ovqatdan geri duracaq. Hesab edirik ki, bu məqam son dərəcə vacibdir. Çünki adını çəkdiyimiz USAID və digər qurumlar məhz imperialist maraqların təminatına girişmişdilər. Bu barədə bir çox məqamları vurğulamaq mümkündür. Onlardan yalnız birinin üzərində dayanaq. Həm də ona görə ki, ABŞ-da məsələni indinin özündə də gündəmə gətirənlər var. Söhbət Gürcüstanın Hesabatlılıq, Davamlılıq və Müstəqilliyini Qurmaq üçün Seçimlərini Səfərbər Etmək və Genişləndirmək Aktı (“Mobilizing and Enhancing Georgia’s Options for Building Accountability, Resilience, and Independence Act”) kimi adlandırılan “Megobari aktı”ndan gedir. O akt ki, ABŞ Konqresinin Nümayəndələr Palatasında ilk dəfə 2024-cü ilin mayında konqresmen Co Uilyams tərəfindən təqdim olunmuş, lakin qəbul edilməmişdi. Bu ilin yanvarında isə yenə həmin Uilyams həmkarları Stiven Koen, Riçard Hanson və Mark Vizi ilə birlikdə sənədi gündəmə gətirmişdi. Akt Konqresin müvafiq komitələrində müzakirəyə çıxarılmış, Senatın Xarici Əlaqələr Komitəsi qanun layihəsini martın 27-də nəzərdən keçirmişdi. Bu günlərdə isə Nümayəndələr Palatası layihəni yenidən müzakirəyə çıxarıb.

Gürcüstan hökumətinin etirazına səbəb olmuş sözügedən qanun layihəsinin 2025-ci ilin martında ABŞ Konqresinin saytında yer alan mətnində bildirilir ki, sənəd Gürcüstan Prezidentindən ölkənin təhlükəsizliyini və ya sabitliyini pozan müəyyən xarici şəxslərə, o cümlədən hökumət rəsmilərinə qarşı sanksiyaların tətbiqini tələb edir. Bir qədər ətraflı yanaşsaq, layihə, həmçinin Prezidentdən Gürcüstanın təhlükəsizliyini və sabitliyini pozmağa yönəlmiş hərəkətlərdə və ya siyasətdə iştirak edən istənilən xarici şəxsə qarşı viza məhdudiyyətinin (vizanın bloklanması) tətbiqini və dövlət başçısına həmin şəxsin əmlakını müsadirə səlahiyyəti verilməsini rəsmiləşdirməyə çağırır. Sənədə görə, sanksiya tətbiq olunan vəzifəli şəxslərin ailə üzvləri də (əgər onların hərəkətindən faydalanıblarsa) məhdudiyyətlərə məruz qalırlar. Ümumən, bu layihənin məramı və məqsədi Gürcüstanda Prezident üsul idarəsini möhkəmləndirməklə hakimiyyət ikitirəliyi yaratmağa, həmçinin ölkəni qlobal rəqabətə daxil etməyə hesablanıb ki, bunun və “Megobari aktı”nda nəzərdə tutulan digər məqamların yalnız bir adı var – daxili işlərə qarışmaq.

D.Tramp isə Səudiyyə Ərəbistanındakı çıxışında ölkəsinin indiyədək digər dövlətlərin daxili işlərinə müdaxiləsini tənqid etdi. Yeri gəlmişkən, ondan əvvəlki Bayden–Blinken administrasiyasının Azərbaycana münasibəti də tənqidə layiqdir. Ümumən, xarici donor təşkilatları, o cümlədən ABŞ-a məxsus USAID, Açıq Cəmiyyət İnstitutu – Soros Fondu, Avropa İttifaqının maliyyələşdirdiyi qurumlar və digər QHT-lər ölkəmizdə uzun illər fəaliyyət göstəriblər. Onlar vətəndaş cəmiyyətinin inkişafı, media azadlığı və jurnalistikaya dəstək, seçki islahatları və demokratik institutların təşviqi, təhsil və qadın hüquqları kimi layihələr gerçəkləşdiriblər. Ən əsası isə həmin sahələri dirçəltmək adı altında xalqımıza yad dəyərləri təlqin etməyə cəhd göstəriblər. Bu yönümlü layihələr, habelə, daxili siyasi proseslərə təsir göstərmək, müxalifət qüvvələrini maliyyələşdirmək, toplumda parçalanma yaratmaq, milli təhlükəsizlik üçün risk formalaşdırmaq məramına söykənib. Əlbəttə, sözügedən təsisatların başlıca hədəflərinin ölkəmizdə “rəngli inqilab” ssenarisi gerçəkləşdirmək olduğunu da yaxşı bilirik. Azərbaycan dövlətinin xalq-iqtidar vəhdəti sayəsində məhz belə mənfi təmayülləri yendiyini söyləyə bilərik. Buna görə qürurluyuq.

Sonda onu da bildirək ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, xarici təsirlərə qarşı da düşünülmüş siyasi xətt gerçəkləşdirilib. Bu baxımdan qeyri-şəffaf maliyyə axınlarına qarşı ciddi nəzarət tədbirlərini vurğulamaq yerinə düşər. Əminliklə deyə bilərik ki, Azərbaycan dövlətinin daxili işlərimizə müdaxilələrə, suverenliyimizin əsaslarının zəifl ədilməsinə qarşı mübarizə modelinin uğuru regionda da yüksək qiymətləndirilir. Qonşu və dost Gürcüstanın bu modelə üstünlük verməsi fikrimizin sübutudur.

Ən sonda bir məqamın da üzərində dayanaq. ABŞ Prezidenti Donald Trampın Səudiyyə Ərəbistanında açıqladığı fikirlər Birləşmiş Ştatların yeni dünya quruculuğundakı mövqeyinin pozitiv çalarlarını vurğulayır və nikbinlik üçün əsas verir. Ancaq gedişat Trampın dediyi kimi olacaq? Yaxud onun dilə gətirdiklərinin hamısı reallığa çevriləcəkmi? Ən başlıcası, hazırkı mürəkkəb geosiyasi mühitdə Vaşinqtonun prioritetləri beynəlxalq miqyasda dinclik və əmin-amanlığın təmin olunması baxımından pozitiv mənzərə formalaşdıracaqmı? Hesab edirik ki, bütün bu kimi suallara cavab olmasa da, qarşıda hər şeyi göstərəcək əlahəzrət zaman var.

***XQ-nin analitik qrupu***

# USCIRF-dən Azərbaycana qarşı növbəti böhtan kampaniyası

## *Bədxahlarımız ölkəmizdəki yüksək dini tolerantlığı niyə görmək istəmirlər?*

**ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar Komissiyasının (USCIRF) bu il iyunun 5-də Azərbaycana həsr olunmuş virtual dinləmələr keçirməsi gözlənilir. Ölkəmizə qarşı irəli sürülən iddialar isə əvvəlki kimi saxta və əsassızdır: guya, Azərbaycanda erməni dini-mədəni irsi məhv edilir və dini azadlıqlar pozulur?! Yalandır!**



USCIRF-in qarayaxma kampaniyası yeni deyil. Demək olar ki, hər il təkrarlanan və heç bir hüquqi əsası olmayan bu böhtanlar, sadəcə, acı təəssüf doğurur. Fakt və reallıq budur ki, komissiyanın müzakirəsinə çıxarılan “hesabat” Bakıya qarşı siyasi qərəzdən qaynaqlanır.

Lakin bu dəfə məsələ daha dərindir. Bu, sadəcə, qərəz deyil – bu, beynəlxalq hüquq və real tarixin açıq-aşkar təhrifidir. Reallıq isə tamam başqadır. Heç kim üçün sirr deyil ki, müasir Azərbaycan dünyada dini dözümlülük və tolerantlıq məkanıdır. Bu, hər kəsin gördüyü və qəbul etdiyi həqiqətdir.

2025-ci ilin ilk günlərində Prezident İlham Əliyev ölkəmizdəki dini qurumlara maliyyə yardımı məqsədilə mühüm sərəncam imzalayıb. Sənədə əsasən, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3 milyon, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min, Avropa yəhudilərinin Bakı dini icmasına 350 min, Sefarad yəhudilərinin Bakı dini icmasına 350 min, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350 min və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350 min, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılıb.

Bu faktın özü xalqımızın bədxahlarına təkzibolunmaz cavabdır. Bəli, Azərbaycanda dinə və etnik-mədəni müxtəlifliyə qarşı deyil, əksinə, onun yaşamasına və inkişafına şərait yaradılır.

Bundan əlavə, Azərbaycandakı dini liderlər – istər müsəlman, istər xristian, istərsə də yəhudi dininin daşıyıcıları olaraq daim vurğulayırlar ki, ölkəmizdə dini zəmində heç bir ayrı-seçkilik yoxdur. Yeri gəlmişkən, USCIRF nümayəndələri bu ilin fevralında Azərbaycana gələrkən həmin liderlərlə şəxsən görüşüblər və bu fikirləri onların dilindən bir daha eşidiblər. Belə olan halda sözügedən saxta hesabatın arxasında durmaq, sadəcə, riyakarlıqdır, deyilmi?

### “Erməni mirası” mifi

Hər kəsə bəllidir ki, Azərbaycanın ərazilərində, xüsusilə Qarabağda yerləşən bir çox Alban kilsələri 1990-cı illərdən bəri erməniləşdirilərək mənşəyi dəyişdirilib. İndi USCIRF-in “erməni dini irsi məhv edilir” iddiası, əslində, işğal dövrü cinayətlərinin legitimləşdirilməsi cəhdidir. Bu “fakt”lar əsassız iddialar üzərində qurulubsa, hansı erməni irsindən danışmaq olar?

“Holokost” şahidi danışır: Azərbaycan 55 min yəhudini xilas edib

İsrailin sabiq baş ravvini Meir Lounun bu ilin yanvarında AŞPA-da etdiyi təsirli çıxışı çoxlarının yadındadır. Hörmətli yəhudi din xadimi həmin tribunadan bəyan etdi ki, “Holokost” zamanı 55 min yəhudi Azərbaycanda gizlənərək ölümdən qurtulub. Bu bəyanat təkcə tarixi fakt deyil, həm də Azərbaycana qarşı irəli sürülən hər hansı saxta dini dözümsüzlük iddiasını kökündən dağıdan mənəvi sübutdur.

### Ermənistanda dini və milli nifrət yayılır

Bu gün Ermənistanda dövlət səviyyəsində Azərbaycan və Türkiyəyə qarşı qatı millətçi təbliğat aparılır. Vəziyyət o yerə çatıb ki. İrəvanda və digər iri şəhərlərdə keçirilən mitinqlərdə Azərbaycan və Türkiyə bayraqları kütlənin gözü qarşısında yandırılır. Bu, həmin işğalçı Ermənistandır ki, 1988-ci ildən başlayaraq ərazisindən yüz minlərlə azərbaycanlı etnik və dini əsaslar zəminində qovulub.

Erməni millətçiləri tarix boyu yəhudi xalqına qarşı çox haqsızlıqlar ediblər. Təsadüfi deyil ki, Ermənistanın özündə yəhudilərə qarşı hücumlar, rəsmi şəxslərin antisemit bəyanatları çoxsaylı beynəlxalq hesabatlarda yer alıb. Ancaq, nədənsə, USCIRF bu faktlara göz yumur?! Bu, artıq siyasi məqsədlərlə manipulyasiya edilən “dini azadlıq” anlayışının alətə çevrildiyini göstərir.

### 907-ci düzəlişin “kölgə”si

1992-ci ildə ABŞ Konqresi “Azərbaycana yardımın dayandırılması” haqqında 907-ci düzəlişi qəbul etmişdir. Həmin ilin fevralında dünyanın ən qəddar qətliamlarından olan Xocalı soyqırımı baş vermişdir. Biz bu sonsuz, ağrı, kədər və məyusluq doğuran bu faktı unutmamışıq. Bu ədalətsiz addım da məhz erməni lobbisinin təsiri altında, həqiqətlərə göz yumaraq atılmışdı. USCIRF-in Azərbaycana qarşı yeni ritorikası, fikrimizcə, həmin köhnə stereotiplərin davamıdır.

### Azərbaycan reallığı dəyişdirir

Bugünün reallıqlarını gözardı etmək mümkünsüzdür. Azərbaycan öz ərazisində suverenliyini tam bərpa edib. İstər 44 günlük Vətən müharibəsi, istərsə də sonrakı antiterror əməliyyatları, ölkənin beynəlxalq hüquqa uyğun hərəkət etdiyini təsdiqləyir. Ermənistan ərazisində heç bir müharibə aparılmayıb. Bütün qarşıdurmalar Azərbaycanın sərhədləri çərçivəsində baş verib – işğala qarşı, azadlıq uğrunda!

**PS.** USCIRF-in bu qəbildən olan hesabatları əslində, belə bir məntiqi sual doğurur: bu qurum dini azadlıqları qorumaq üçün, yoxsa geosiyasi manipulyasiya niyyətilə yaradılıb? Cavab özlüyündə bəllidir və təəssüf doğurur!

Azərbaycan dini dözümlülük, etnik rəngarənglik və hüquqi sabitlik baxımından Cənubi Qafqazın nümunəvi ölkəsidir. İddialar, kampaniyalar, təzyiqlər – heç biri bu reallığı dəyişməyəcək. Çünki faktlar, tarix və xalqın yaddaşı – bizim tərəfimizdədir.

***Rəna DADAŞOV,***
***hüquqşünas***

*Köşə*

# “Hitler Ermənistanı”

## *İşğalçı ölkədə yeni siyasi termin gündəliyə gətirildi*

**Azərbaycan mətbuatında və ölkəmizdəki ictimai müzakirələrdə “faşist Ermənistan”, yaxud, “erməni faşizmi” ifadələrinin işlədilməsi İrəvanda ciddi etirazlarla qarşılanırdı. Halbuki, bizim həmin “qiymətləndirmələrimiz” əsassız deyildi. Çünki ermənilər bizimlə “mübarizədə” faşist Almaniyasının öz rəqiblərinə qarşı törətdiklərindən qat-qat artıq vəhşiliklərə imza atıblar. Təbii ki, bu başqa yazının mövzusudur.**

Bu yazıda isə Marianna Mkrtçyan adlı jurnalistin erməni politoloq, Stenford Universitetinin ( ABŞ-ın və dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biridir) professoru Artur Xaçikyana istinadən işlətdiyi “Hitler Ermənistanı” ifadəsindən söz açmaq istəyirik. Mayın 13-də “Arminfo.am” xəbər portalında “Vilson Ermənistanı bizə az idi, indi də Hitler Ermənistanına doğru” (https://arminfo.info/full_news.php?id=91438&lang=2) adlı yazı ilə çıxış edən Marianna erməni politoloqun Ermənistan rəhbərliyinə qarşı ağır ittihamlarla çıxış etməsindən, daha çox isə hay xəyalpərəstliyindən söz açır.



***İttifaq MİRZƏBƏYLİ***
***i-mirzebeyli@mail.ru***

Xatırladaq ki, “Vilson Ermənistanı” deyiminin artıq yüzdən çox yaşı var. Belə ki, ABŞ Prezidenti Vudro Vilsonun təyin etdiyi arbitraj qərarı ilə 1920-ci il noyabrın 22-də Cənubi Qafqazda ermənilər üçün yaradılmış “dövlət”in sərhədləri daxilindəki əraziyə “Vilson Ermənistanı” adı verilmişdi.

Erməni politoloqun fikrincə, onun ölkəsinin siyasi həyatına yeni anlayış gətirilir: “Hitler Ermənistanı”: “İnciməyin, bu termini bizə ermənilərin düşmənləri yox, Ermənistan İctimai televiziyası sırıyır.”

Söhbət nədən gedir və Ermənistan İctimai televiziyası nədə suçlanılır? Politoloq xatırladır ki, Ermənistan Müdafiə Nazirliyinin keçmiş mətbuat katibi, həmin nazirliyin Hərbi Akademiyasının Marşal Baqramyan adına Komanda-qərargah İnstitutunun rəhbəri Artsrun Hovanisyan mayın 9-da Ermənistanın İctimai televiziyası ilə çıxış edərkən “Almaniyanın SSRİ üzərində qələbəsi Ermənistan üçün böyük qazanc olacaqdı” deyibmiş. Onun sözlərinə görə, Almaniya Stalinqrad döyüşündə qalib gəlsəydi, daha sonra Türkiyəni işğal edəcəkdi və... “Berlinin Stalinqraddakı məğlubiyyəti vahid Ermənistan yaranmasına mane oldu”.

İddianın “yekə”liyinə baxın. Guya, Almaniya Türkiyəni işğal edən kimi həmin ölkənin bir hissəsini ermənilərə verəcəkdi ki, gedin, böyük (vahid) Ermənistan yaradın. Stenford Universitetinin professoru soruşmaq istəyir ki, ermənilər bu miflər, uydurmalar, utopiyalar, bir sözlə, xəstəliklərlə hara qədər gedəcəklər?

Hər halda Ermənistan parlamentinin deputatları baş prokuror Anna Vardapetyana müraciət ediblər ki, İctimai televiziada səsləndirilən bu cəfəngiyyatlara münasibət bildirilsin.

Amma baş prokuror nəyəsə münasibət bildirmək iqtidarında olsaydı, Hitlerin əlaltısına İrəvanın mərkəzində ucaldılan abidənin taleyi başqa cür ola bilərdi. Yeri gəlmişkən, həmin faşist erməninin işğal olunmuş ərazilərimizdəki abidələrinin hər ikisi – həm Xankəndidə, həm də Xocavənddəki heykəlləri 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın bütün xülyaları kimi gorbagor olmuşdur.

Hər halda “Hitler Ermənistanı” daha təmtaraqlı səslənir. Görək sonu necə olur. Amma bunu da unutmasınlar: 80 ildən çoxdur ki, Hitlerin özü də yoxdur, qurduğu faşist dövləti də. “Hitler Ermənistanı” isə hələ ki, ... var.

# Saxta konsepsiyalar belə dağıdılır

## *Bakı İrəvanı ideoloji bazadan məhrum edib*

**Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov yerli elektron mediaya müsahibəsində son vaxtlar bölgədə və dünyada cərəyan edən siyasi prosesləri analitik süzgəcindən keçirərkən, əvvəlcə özünün intensivliyi ilə heyrət doğuran beynəlxalq gündəmə nəzər saldı. Onun aktual mövzulara münasibətinin yer aldığı müsahibəsini qısa ixtisarla oxucuların diqqətinə çatdırırıq.**

### Müdhiş dağıntılar, hədər itkilər

T.Zülfüqarov əvvəlcə planetin qaynar nöqtələrinə çevrilmiş Rusiya–Ukrayna və Yaxın Şərqlə bağlı hərbi teatr meydanında deyil, diplomatik cəbhədə baş verənlərin fonunda tərəflərdən hər birinin uğur elementlərini toplamaq cəhdlərini önə çəkdi: “Burada kimin haqlı, kimin haqsız olması, demək olar ki, arxa plana keçir. Barışıq prosesində yeni təşəbbüskar kimi çıxış edən ABŞ Prezidenti Donald Tramp tərəflərə qarşılarına qoyduqları məqsədlərə çatmaqdan ötrü zəruri imkan və vasitələrə malik olmadıqları prizmasından çıxış edir. Özünün dediyi kimi, mənasız itkilərin qarşısını almaq lazımdır. Baxmayaraq ki, bu kontekstdə Ukraynanın məqsədinin legitim, Rusiyanın isə beynəlxalq hüquq və normalarla zidd, qeyri-legitim xarakter daşıdığını qeyd etməliyik. Bu gün söhbət danışıqların harada aparılacağından, orada kimlərin iştirak edəcəyindən, kimlərin bu prosesdə tərəf kimi tanınmasından gedir. Belə təsəvvür yaranır ki, sanki hamı atəşkəsdən sonrakı vəziyyətə hazırlaşır. Yəni belə demək mümkünsə, siyasilər bundan sonra ya öz vətəndaşları, ya da elektoratı ilə necə işləyəcəkləri barədə düşünürlər.

Əgər mövzunu ümumiləşdirməyə çalışsaq, deyə bilərik ki, tərəflərdən heç birində qarşıya qoyduqları vəzifələrə heç vaxt çata bilməyəcəkləri həqiqəti ilə barışmaq düşüncəsi yoxdur. Kiyev deyir ki, mən Qərbin dəstəyi ilə ölkənin ərazi bütövlüyünü bərpa edəcəyəm. Aydın olur ki, Ukrayna hüquqi baxımdan heç bir güzəştə getməyəcək, amma “de-fakto” Rusiyanın əlində olsa da, Kiyev öz ərazisinin bir hissəsi kimi görəcək.

Rusiya isə daha da irəli gedərək, hərbi əməliyyatların nəticəsində nəzarətə götürdüyü ərazilərdə mövcudluğunu möhkəmləndirməyə və imkan daxilində, legitimləşdirməyə çalışır. Ziddiyyətlər burulğanı göz qabağındadır. Bu həddi yalnız bir halda aşmaq mümkündür. Hər iki tərəf etiraf edir ki, üzləşdikləri problemi hərbi yolla həll etmək mümkün deyil. Bu reallığı etiraf edəndən sonra liderlər yürütdükləri siyasətin yalnız dağıntıya, itkilərə gətirib



çıxardığını imzaları ilə təsdiqləməlidirlər. Konkret atəşkəs rejiminə nail olmaq cəhdlərinə gəldikdə isə – bunu Tramp irəli sürmüşdü – bunlar başqa hərəkətlərlə əvəz olunmağa başlayıb”.

### Türkiyə etiraf edilən vasitəçi tərəfdir

Məlum silahlı qarşıdurmada Türkiyənin tərəflər arasında vasitəçisi kimi Ağ ev tərəfindən qəbul edilməsini böyük irəliləyiş kimi dəyərləndirən sabiq nazir bu kontekstdə Azərbaycandan danışmağın vacibliyini vurğuladı: “Çünki Azərbaycan hər iki istiqamətdə irəliyə getmiş münasibətlərə malikdir. Digər tərəfdən, Azərbaycan liderinin Qələbə paradında iştirak etməməsi, bir növ, “bərabər dərəcədə uzaqlaşma” vəziyyətini yaradıb. Bunun özü də mühüm amildir. Düşünürəm ki, Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik imkanları danışıqların hansısa variasiyasında istifadə oluna bilər. Hər şey hadisələrin gedişində asılı olacaq. Açıq demək lazımdır ki, bu gün ən çətin vəziyyətlə üzləşən Moskvadır. ABŞ Prezidentinin iştirak edəcəyi görüşdən imtina etmək ciddi imic itkisi deməkdir. Hər halda Tramp İstanbul görüşündə iştirakını mümkün saymışdı. Əlbəttə, bütün bunlar vəziyyətin doğurduğu ilkin assosiasiyalardır”.

Ardınca Yaxın Şərqdə baş verən hadisələrə toxunan T.Zülfüqarov PKK-nın silahı yerə qoyması və özünü buraxması, İsrail–Fələstin münaqişəsi və bu kontekstdə Donald Trampın fərqli addımlar atması məsələsinə münasibət bildirdi: “ABŞ Prezidentinin arxasında hələlik zəif görünən bir komanda çalışır. Əgər nəsə Trampın xoşuna gəlmirsə, yaxud onun diktəsindən kənara çıxırsa, dərhal bu və ya başqa liderin siyasi gələcəyini şübhə altına salmağa başlayır. Bu hal Zelenski ilə baş verdi və indi də Netanyahu əhvalatında da eyni ştrixləri müşahidə edirik. Çünki Netanyahunun yalnız Trampla problemi yoxdur, daxildə də etirazlarla üzləşir. Müxalif qüvvələr, siyasətçilər, hətta komandasının bəzi üzvləri ona qarşı ciddi ittihamlar irəli sürürlər. Yenə deyirəm, Trampın xoşuna gəlməyən ölkə başçısı siyasi gələcəyini yadından çıxarmalıdır. Bu üsul onu qəbul etməyən siyasiləri daha konstruktiv mövqe tutmağa xidmət edir.

Aydındır ki, Tramp İranla müharibə etmək istəmir. Təbii ki, Netanyahu bütün fəaliyyətinin nəticəsini İrana sonuncu zərbənin vurulmasına gətirib çıxarmağı



düşünür. Onun bu istəyi Tramp tərəfindən dəstəklənmir. Çoxçalarlı hadisələrin görünən tərəfləri güman etməyə əsas verir ki, Yaxın Şərqdə Ağ ev üçün iki oyunçu, yaxud iki müttəfiq məqbul sayılacaq. Birincisi, onu eşidəcək İsrail, ikincisi isə bölgədə hərəkətlərini koordinə edə biləcək Türkiyədir. Burada məntiqi alqoritm görürük. Bəli, Türkiyə haradasa son 20 ildə irəliyə doğru böyük sıçrayış edib. Dünyanın iqtisadi “iyirmiliy”inə, ən güclü orduya malik “onluğ”una daxil olub. Türkiyə özünün yeni potensialına uyğun olaraq, beynəlxalq münasibətlər sistemində öz yerini tutması üçün cəsarətli addımlar atır. Trampın Ərdoğana tərəf etdiyi jesti onu ABŞ-ın yeni partnyoru kimi görməsinin təzahürüdür”.

### Qafqazda nə baş verir?

Azərbaycanın erməni işğalı dövründə vurduğu zərəri ardıcıl surətdə aradan qaldırdığını deyən sabiq nazir Qarabağın münaqişəyə qədərki vəziyyətə qayıtmağa başladığını deməyi unutmadı: “Amma Ermənistanın işğalçılıq siyasəti onun ideoloji və təbliğati fəaliyyətinin tərkib hissəsi olaraq qalmaqdadır.

Rəsmi Bakı “indi top Ermənistan tərəfdədir” deyəndə söhbət yalnız konstitusiyada dəyişiklik edilməsindən getmir. Bu, ictimai şüura ünvanlanan ismarıcdır. Çünki konstitusiya referendum – ümumxalq səsverməsi yolu ilə dəyişdirilə bilər. Yəni bu məsələ ictimai meydançada yarış xarakteri daşıyacaq. Ermənistan indiki konstitusiyası ilə, birmənalı şəkildə, qəsbkar dövlətdir. Onlardakı milli natamamlıq kompleksi hələ Ararat respublikası xəyalları ilə eyni vaxtda yaranmağa başlayıb. Yüz il bundan əvvəl Türkiyəyə qarşı silah qaldıranda da təsəvvürlərindəki “böyük Ermənistan” nağılını gerçəkliyə çevirməyi düşünürdülər. Son nəticədə nə qazandılar? Hamımız bilirik. Eyni siyasəti Azərbaycana qarşı tətbiq etməyə çalışdılar, bu dəfə də alınmadı. Nəhayət, Paşinyan hansı Ermənistanda yaşadıqları barədə qəti qərara gəlməlidir: mifik, yoxsa real Ermənistanda?

Məsələnin maraqlı tərəfi odur ki, Cənubi Qafqazda bu münaqişəni yaradanlar onun vasitəsilə bundan sonra da bölgəni idarə edə biləcəklərinə əmin idilər. Onlara Azərbaycanın qazandığı uğurlar sərf eləmir. Bu ideoloji bazanın dağılması onlar üçün çox təhlükəlidir. Həmin bazanın ən vacib dağıdıcı instrumenti Bakıda erməniəsilli təqsirləndirilən şəxslər üzərində davam edən mənkəmə – Nürnberq prosesidir. Orada nələr baş verir? Orada ermənilərin bizə qarşı vuruşmada silahlandıqları bütün “konsepsiyalar” uçulub dağılmaqdadır”.

***Hazırladı:***
***İmran BƏDİRXANLI***
***XQ***

---

# Oskanyan Paşinyanı devirmək istəyir... Bacaracaqmı?

**Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyan adəti üzrə baş nazir Nikol Paşinyanı və onun komandasını aşağılayıcı tərzdə tənqid edir. Ancaq o, hakim düşərgəni nə qədər “satqın” və “xain” adlandırsa da, xeyri olmur. Görünür, Vardan özü də durumun fərqindədir. Ona görə birbaşa ittiham ritorikasında dəyişiklik aparıb. Bu məxluqun indi nələrdən söz açdığına diqqət yetirəcəyik. Ancaq əvvəlcə bir məqamın üzərində dayanaq.**

Qeyd edək ki, V.Oskanyanın son illərdəki başlıca tezisi Qarabağdır. Vardan, öz aləmində, Qarabağ dirənişi yaradır, bu “dirənişi” beynəlxalq müstəviyə daşıyır. Elə fon yaradır ki, guya, bölgəni yenidən erməniləşdirmək mümkündür, şanslar tükənməyib və sair. Hiss olunur ki, o, dərin psixoloji sarsıntının və tipik erməni xəstəliyinin təsiri altındadır.

Əlbəttə, Oskanyanın bildirdikləri mənasızdır. Çünki Paşinyan və komandası bu məxluqun fövqəladə Qarabağ davası baxımından irəli sürdüyü sərsəmləmələrin hamısını sınaqdan çıxarıb, amma hansısa nəticə əldə edə bilməyib. Ancaq Vardan bu dəfə nə Qarabağdan söz açıb, nə də ölkəmizə ittiham yağdırıb. Onun “facebook” səhifəsində bildirdiklərini, müəyyən mənada, reallığın dərki kimi də qiymətləndirmək mümkündür. Amma...

Əlqərəz, sabiq baş diplomatın 14 məqsədi Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaqdır. Oskanyan bildirib ki, Ermənistanın böhranlı vəziyyətinə görə əsas məsuliyyət baş nazirin üzərindədir. Amma durum fərqlidir. Onun sözlərinə görə, Paşinyanı hakimiyyətə xalq gətirib və bu işdə hansısa xarici güclərin olması barədə nəzəriyyələr reallıqla səsləşmir. Görəsən, Oskanyan niyə belə deyir?

Məsələ ondadır ki, onun fikrincə, xalq amorf, düşüncəsiz kütlədir. Elə bir kütlə ki, onunla daim manipulyasiya etmək mümkündür. Kütlədən fərqli olaraq isə xarici güclər daha sistemli və planlıdır. Yəni, Oskanyan özünün yarımçıq diplomatik təfəkkürü ilə, bir növ, qorxunu aradan qaldırır. Təxminən belə: Nikolu hakimiyyətdə saxlayan güclü tərəf yoxdur və rahat şəkildə onu devirmək mümkündür. Əlbəttə ki, xalqı aldatmaqla.

Əslində, Oskanyan, eyni zamanda, onu deyir ki, Paşinyan 2018-ci ildə hakimiyyətə məhz erməni xalqını aldadaraq gəlib. Amma Vardan sadə ermənilərin nə üçün Nikola inandığına dair suala cavab vermir. Cavab isə çox sadədir. Məsələ ondadır ki, Oskanyanın da tərkibində təmsil olunduğu keçmiş hay hakim komandası, daha doğrusu, Qarabağ klanı erməni xalqını elə bir günə qoymuşdu ki, onun siyasətdən anlayışı olmayan Paşinyanın xoşbəxt gələcəklə bağlı nağıllarına inanmaqdan başqa çarəsi qalmamışdı.

Tam əminliklə deyə bilərik ki, Paşinyanın hazırda hakimiyyətdə qalmasının, yəni, erməni xalqının özünə yeni lider axtarmamasının əsas səbəbi dövləti quldur dəstəsi kimi idarə edən Koçaryan–Sarkisyan cütlüyünün əməlləridir. Bu gün də həmin cütlük ortalıqda görünməklə ölkənin əsas müxalifəti adına iddialı göstərməklə Paşinyanın hakimiyyətdə qalmasını təmin edirlər.

Bəli, indiki məqamda Vardanın erməni hakimiyyətini devirmək formulunda xalqı iqtidara qarşı qaldırmaq kazusu tam əhəmiyyətsizdir. Onun “Paşinyanın idarəetmə qabiliyyəti qalmayıb, xalq və xarici müttəfiqlərin dəstəyini itirib” şəklində fikir yürütməsinin mənası yoxdur. Eləcə də Oskanyanın Nikolu hakimiyyətə gətirən xalqın öz səhvlərini düzəltməyi bacardığını vurğulaması da tam anlamsızdır.

Ancaq keçmiş XİN rəhbərinin düzgün vurğuladığı bəzi məqamlar var. Məsələn, o, Paşinyanı səriştəsiz və təcrübəsiz biri kimi qələmə versə də, baş nazirin “əvvəlki hakimiyyətlərin nailiyyətlərini kölgədə qoyacaq uğurlar əldə etmək” istəyindən söz açıb. “Onun, guya, hansısa qüvvələr tərəfindən gətirilməsi, məqsədin isə Artsaxı təslim etmək, Ermənistanı zəiflətmək və bölmək olması haqda mifin də reallıqla heç bir əlaqəsi yoxdur. Qənaətim diplomatik təcrübəmə əsaslanır. 2018-ci ildə Paşinyan bu mürəkkəb regionda dövlət idarəçiliyinin çağırışlarına sadəcə hazır deyildi. O, təcrübəsiz, savadsız, bacarıqsız idi, beynəlxalq münasibətlər barədə heç bir təsəvvürə malik deyildi və eyni zamanda, həddindən artıq özünə güvənirdi. Məhz bu səbəblərdən



uğursuz oldu”, – deyən Oskanyan sui-qəsd cəhdlərinə ehtimal etməyin faydasızlığını vurğulayıb.

Əlbəttə, Nikol səriştəsiz və təcrübəsizdir. Məhz beləsinin üzərinə siyasi sərmayə yatırmaq xaricdəki, daha doğrusu, Qərbdəki qüvvələrin işi idi. Həmin qüvvələr xalqın Koçaryan–Sarkisyan rejiminə pataloji nifrətinə hesablanmış siyasi texnologiyanı işə salaraq uğur qazandılar və mövcud trayektoriyada Paşinyanın səriştəli və təcrübəli olmasına hansısa ehtiyac duyulmurdu.

Ümumən, Nikolu hakimiyyətə gətirənlərə təcrübəli siyasətçi o zaman da lazım deyildi, indi də buna gərək yoxdur. Çünki əsl siyasətçi səbəb və nəticə əlaqələrini duyaraq nəticə çıxarandır. Belə bir şəxs məsələləri dərk edər, məsuliyyət daşıyar, hansısa məqamı sorğulayar. Nikol və komandası isə zombilər yığınıdır.

Bəli, bu “plan” üçün Paşinyan və komandasının ağıllı adamlardan formalaşmasına ehtiyac duyula bilməzdi. Əlbəttə, ancaq zombi olan biri Qarabağı Ermənistan kimi göstərib, başı daşa dəydikdən sonra qədim diyarımızın Azərbaycana məxsusluğunu etiraf edə bilər. Çünki beləsi nə dərəcədə miskin və rəzil duruma düşdüyünün, alçaldığının fərqinə varmır.

Məsələn, bir vaxtlar Ağdamı öz vətəni kimi göstərən Ermənistan parlamentinin sədri Alen Simonyandan yenə sözünün üstündə dayanıb-dayanmadığını soruşurlar. Simonyan “hamının səhvi ola bilər” cavabının necə böyük rüsvayçılıq olduğunu düşünməyəcək dərəcədə rəzildir. Sanki, parlament sədri yox, balaca uşaqdır.

V.Oskanyanın tərkibində təmsil olunduğu komandanın üzvləri bir başqa cür zombi olublar. Onlar Rusiyanın aləti rolunda çıxış ediblər. Vardan özü isə zombinin yekəsi idi və belə bir sərsəm düşüncəli məxluq Paşinyana xas mənfi cəhətləri sadalamaqla, onun hakimiyyətdən getməsinin vacibliyini əsaslandırmağa girişir. Ən başlıcası isə Oskanyan intuitiv proqnoz verərək deyir ki, Paşinyan hakimiyyəti asanlıqla təhvil vermək istəməz. Hesab edirik ki, sabiq XİN rəhbəri bu məqamı da doğru vurğulayır.

Fikrimizi əsaslandırmaq üçün bir nüansın üzərində dayanaq. Ötən həftə N.Paşinyan parlament tribunasından çıxışı zamanı “eksləri” ölkənin Dövlət Təhlükəsizliyi Komitəsinin zirzəmilərində işgəncə verilməli adamlar kimi təqdim etdi. Əminliklə deyə bilərik ki, qarşı tərəf də onun və komandasının üzvləri barədə tam eyni şeyi düşünür. Ona görə Oskanyan deyir ki, Nikol üçün hakimiyyətdə qalmaq ölüm-qalım məsələsidir. Vardan belə bir durumda Ermənistanı böyük qarşıdurmanın gözlədiyini vurğulayır ki, bu qənaətində də haqlı sayıla bilər.

Sonda bildirək ki, istər V.Oskanyanın vaxtaşırı, istərsə də digər revanşistlərin mütəmadi sərsəmləmələri Ermənistan cəmiyyətindəki dərin psixoloji sarsıntının göstəriciləridir. Hay cəmiyyəti mövcud acınacaqlı durumdan xilas yolu tapa bilmir. Daha dəqiq desək, o yolu görməyi bacarmayacaq qədər kordur. Söhbət Azərbaycanla sülhə gəlməkdən, səmimi münasibətlər yaratmaqdan gedir. Bu olmadıqca, Ermənistan üçün ölüm-qalım dilemması aktuallığını saxlayacaq. Yəni, cəmiyyətdəki, ictimai-siyasi mühitdəki təbəddülatlar ölkənin varlığını şübhə altına alacaq. Həm də ona görə ki, erməni mühiti vardanyanlardan və onun kimilərindən təmizlənmir və bu çirkli şəraitdə Paşinyan iqtidarının süddən çıxmış ağ qaşıq olmaq şansı yoxdur. Deməli, iflas labüddür.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Süni intellektlə becərilən torpaq – parlaq gələcəyin təcəssümü

**Kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov Bakıda keçirilən 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" Sərgisinin açılış mərasimində bildirib ki, son illərdə ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilib, dövlət dəstək mexanizmləri gücləndirilib, fermerlərin texnologiya və maliyyə resurslarına çıxışı asanlaşdırılıb. Eyni zamanda, respublikamızda fermerlərin müasir kənd təsərrüfatı texnikası, dəqiq əkinçilik sistemləri, rəqəmsal idarəetmə vasitələri və ekoloji təmiz istehsal texnologiyaları ilə tanış olmaları üçün imkanlar yaradılıb.**



Nazir müavini, həmçinin vurğulayıb ki, bu il sərgidə süni intellektin tətbiqinə əsaslanan yeni həllər, "ağıllı" idarəetmə sisteminə əsaslanan avtomatlaşdırılmış texnologiyalar, enerji və resursqoruyucu texnologiyalar, alternativ enerji mənbələrindən istifadə edən avadanlıqlar, iqlim dəyişikliyinə davamlı kənd təsərrüfatı məhsulları, habelə dayanıqlı təsərrüfatçılıq həlləri xüsusi vurğulanır. Bundan başqa iqlim dəyişikliklərinin təsirlərini azaltmaq, torpaq və su ehtiyatlarından səmərəli istifadəni genişləndirmək və kənd təsərrüfatını daha ekoloji və səmərəli hala gətirmək üçün innovativ yanaşmaların da tətbiqi diqqətdə saxlanılır.

E.Zeynalovun sözlərinə görə, bu gün ölkədə daha çox rəqəmsal həllərin tətbiqi, elektron kənd təsərrüfatı platformalarının genişləndirilməsi, aqrar sahədə çalışan sahibkarlar üçün maliyyə və sığorta alətlərinin əlçatanlığının artırılması da qarşıya mühüm vəzifələr kimi qoyulur. Eyni zamanda, respublikamızda yeni bitki sortlarının və heyvandarlıqda məhsuldar cinslərin tətbiqi, müasir texnologiyalar əsasında təsərrüfat modellərinin formalaşdırılması və istehsal proseslərinin avtomatlaşdırılması aqrar sektorun inkişafına müsbət təsir göstərəcək amillər hesab edilir.

Bildirilib ki, kənd təsərrüfatı respublikamızın iqtisadiyyatında mühüm yer tutan, sosial sabitliyin və ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsində əsas rol oynayan sektorlardan biridir. Ölkədə hazırda bu sahənin inkişafı istiqamətində mühüm islahatlar həyata keçirilir, rəqəmsallaşma, subsidiya siyasəti, texnoloji yeniliklərin tətbiqi və beynəlxalq əməkdaşlıq genişləndirilir. Bununla yanaşı, bu sahədə hələ də bir sıra ciddi problemlər həllini gözləyir.

2015-ci ildən sonra kənd təsərrüfatı sahəsində struktur islahatları sürətlənib. Prezident İlham Əliyevin tapşırığı ilə aqrar sahənin dayanıqlı inkişafını təmin etmək məqsədilə Aqrar Kredit və İnkişaf Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Aqrar Sığorta Fondu yaradılıb. Bu qurumlar tərəfindən fermerlərin texniki, maliyyə və informasiya təminatı gücləndirilib.

2019-cu ildən etibarən kənd təsərrüfatı məhsullarının subsidiyalaşdırılması sistemi tamamilə dəyişdirilib. Artıq subsidiyanın yalnız əkin sahəsinə görə deyil, məhsuldarlıq, texniki təminat və innovativ yanaşmalar əsasında fərqləndirilərək verilməsinə başlanılıb. Bununla da fermerlər daha məhsuldar və səmərəli fəaliyyətə təşviq edilib.

2020-ci ildən etibarən istifadəyə verilən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə fermerlər subsidiyalar, gübrələr, texnika və digər xidmətlərə elektron formada müraciət edə bilirlər. Bu sistem şəffaflığın artırılması, vaxt itkisinə yol verilməməsi və korrupsiya hallarının qarşısının alınmasında mühüm rol oynayır.

Son illərdə aqrar sahədə pilotsuz uçuş aparatlarının – aqrodronların tətbiqi də genişlənib. Təkcə bu fakt deməyə əsas verir ki, rəqəmsal kənd təsərrüfatının yeni mərhələsi başlanıb. Xüsusilə süni intellektə əsaslanan texnologiyalarla pestisidlərin və gübrələrin dəqiq və səmərəli tətbiqi nəticəsində məhsuldarlıq yüksəlib, bunun nəticəsində təbii ki, xaricə məhsul satışı da çoxalıb.

Ekspertlər bildirirlər ki, ənənəvi kənd təsərrüfatı bir vaxtlar təcrübə və hava şəraitinin diktəsi ilə inkişaf etdirilirdisə, bu gün məlumat analitikası, sensor texnologiyaları və süni intellektlə idarə olunan sistemlər aqrar sektorda tamamilə yeni mərhələ yaradır. Azərbaycanda son illər sürətlənən "Smart agro" yanaşması da fermerin əli ilə deyil, ağlı ilə torpağa toxunmaqdır. Bu texnoloji dəyişiklik, eyni zamanda, təkcə məhsuldarlığın artımı deyil, həm də resursların daha qənaətli istifadəsi, ekosistem balansının qorunması, kənddə həyatın cəlbedici olması deməkdir.

Bu gün süni intellekt aqrar sektorun "beyin mərkəzinə" çevrilir. "Ağıllı" suvarma sistemlərinin torpağın rütubət səviyyəsini müəyyənləşdirərək təhlil etməsi, yalnız lazım gəldiyi anda suyun istifadəsinə şərait yaratması, dronlarla çəkilən multispektral görüntülərin torpaq eroziyası və xəstəliklərin ilkin mərhələdə aşkarlanmasını gerçəkləşdirməsi, hətta bəzi texnologiyaların bitkinin fotosintez prosesini izləyərək "stress əlamətləri"ni əvvəlcədən xəbər verməsi də süni intellektin aqrar sektorun "beyin mərkəzinə" çevrilməsindən xəbər verir. Məsələn, bu sistemlər fermerin qərarlarını dəstəkləyir – nəyi, harada və nə zaman əkmək daha məqsədə uyğundur sualı artıq intuitiv yox, məlumat əsaslı cavablandırılır.

Yeri gəlmişkən, 2025-ci ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi süni intellektin tətbiqini aqroparklar və iri təsərrüfatlarda sistemli şəkildə genişləndirir. "e-Agro" portalı, "AgroDrive" mobil tətbiqi, pilotsuz texnikalar artıq ölkə üzrə 200-dən çox təsərrüfatda tətbiq olunur. Zəngilan və Ağdamda yaradılan "ağıllı" kənd layihələrində bu texnologiyalar torpaqla insan arasında yeni etimad körpüsünə çevrilir. Eyni zamanda, Azərbaycan universitetlərində aqrar informatika və aqro-alqoritmik mühəndislik kimi ixtisasların açılması gələcəyin kadr bazasını formalaşdırır.

Qlobal istiləşmə, su ehtiyatlarının azalması və ekstremal hava hadisələri kənd təsərrüfatını ən həssas sektora çevirib. Süni intellekt bu baxımdan "öncəgörmə gücü" olan bir alət kimi diqqət çəkib. Məsələn, beynəlxalq aqroplatformalarda istifadə olunan modellər iqlim dəyişikliklərinin lokal əkinlərə necə təsir edəcəyini əvvəlcədən simulyasiya etməyə imkan verib.

Burada məsələ yalnız texnologiyada deyil, həm də düşüncə tərzində dəyişiklikdədir. Süni intellektli kənd təsərrüfatı fermerin alternativini yaratmır, əksinə, onun müttəfiqinə çevrilir. Bu yanaşma kənd gəncliyinin diqqətini geri qaytarır. Artıq texnologiyaya maraqlı gənclər üçün kənd həyatında da perspektiv var. Ümumiyyətlə, kənd və şəhər, insan və texnika, torpaq və informasiya arasında yeni harmoniya yaranır. Bu harmoniyanı qorumaq isə həm strateji, həm də mədəni vəzifəyə çevrilir.

Beləliklə, "AgroDrive", "e-Agro" və "Smart Agro" layihələri sayəsində hər bir fermer torpaq təhlilindən məhsul satışına qədər bütün prosesləri izləyə bilir. Rəqəmsal xəritələr, süni intellektlə işləyən dronlar, smart suvarma sistemləri artıq Azərbaycanda da tətbiq olunur. Sumqayıt Kimya Sənaye Parkında "sənaye 4.0" texnologiyalarının tətbiqi istehsal proseslərini rəqəmsallaşdıraraq məhsuldarlığı artırır.

İşğaldan azad edilmiş ərazilərdə "ağıllı" kənd və "ağıllı" şəhər konsepsiyaları – Zəngilanın Ağalı kəndindən Füzuliyə qədər – rəqəmsal iqtisadiyyatın real təzahürləridir. Elektron idarəetmə, alternativ enerji, rəqəmsal nəqliyyat sistemləri burada sinxron şəkildə qurulur. Bu bölgələr "rəqəmsal inkişafın yaşıl nümunəsi" kimi təqdim edilir və gələcəkdə beynəlxalq sərgilərdə model olaraq çıxış edə bilər.

Azərbaycanın innovasiya yolu artıq dönüşü olmayan strateji xəttdir. Bu yol iqtisadiyyatın rəqəmsallaşması ilə həm yeni iş yerləri açır, həm də idarəetmədə şəffaflıq və çeviklik reallaşdırır. Gələcəyin iqtisadiyyatı kağız üzərində deyil, kodların arxasında yazılır. Bu kodları doğru oxuyan, innovasiyaya açıq olan bir dövlət kimi Azərbaycan artıq regional model statusunu qazanmaqdadır.

# Bu il 524 xarici investisiyalı müəssisə qeydiyyata alınıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, cari ilin yanvar-aprel aylarında 4 min 995 kommersiya qurumu dövlət qeydiyyatına alınıb. Onların 89,5 faizi (4 min 471) yerli, 10,5 faizi (524) isə xarici investisiyalıdır. Kommersiya qurumlarının 86,3 faizi elektron qaydada rəsmiləşdirilib. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin "e-qeydiyyatı"nın xüsusi çəkisi 97,1 faizə yüksəlib.**



Qeyd edək ki, son illərdə Azərbaycan iqtisadiyyatının diversifikasiyası, biznes mühitinin liberallaşdırılması və xarici investisiyaların cəlbi istiqamətində mühüm addımlar atılıb. Enerji sektorundakı sabit mövqeyini qorumaqla yanaşı, qeyri-neft sahələrinə investisiyaların artırılması da dövlətin əsas prioritetlərindən biri kimi diqqətdə saxlanılıb. Ölkənin geosiyasi mövqeyi, nəqliyyat-logistika imkanları, geniş infrastruktur layihələri və islahat yönümlü iqtisadi siyasəti nəticəsində Azərbaycan regionda cəlbedici investisiya məkanına çevrilib.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2023-cü ildə əsas kapitala yönəldilmiş ümumi investisiyaların həcmi 19,3 milyard manat təşkil edib. Bunun, təxminən, 40 faizi qeyri-neft sektorunun payına düşüb. Xarici sərmayələr üzrə əsas tərəfdaş ölkələr isə Çin, Rusiya, Türkiyə, Böyük Britaniya və ABŞ olub.

Adıçəkilən komitədən bildirilib ki, 2023-cü ildə Azərbaycana daxil olan birbaşa xarici investisiyalar 4,5 milyard ABŞ dolları səviyyəsinə yüksəlib. Bu göstərici pandemiyadan sonrakı bərpa dövründə sabit artım tendensiyasının davamı kimi qeydə alınıb.

İnvestisiya mühitini müəyyənləşdirən əsas amillərə gəldikdə isə qeyd edə bilərik ki, bu məsələdə hüquqi bazanın yaradılması və islahatların həyata keçirilməsi mühüm önəm daşıyıb. Azərbaycan "İnvestisiyaların təşviqi haqqında" qanunvericilik bazasını yenilənməsi, investorların hüquqlarının qorunması, arbitraj mexanizmlərinin təkmilləşdirilməsi və lisenziya-vergi yüklərinin azaldılması istiqamətində mühüm tədbirlər görüb. Əlavə olaraq, "İnvestisiya təşviqi sənədi" alan layihələr 7 il müddətinə vergi güzəştləri əldə edib.

Ölkənin mühüm beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi, o cümlədən Orta Dəhliz və Şimal-Cənub istiqamətləri – Azərbaycana strateji tranzit mərkəzi rolu qazandırır. Bakı Beynəlxalq Dəniz Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Füzuli Beynəlxalq Hava Limanı kimi layihələr investorlar üçün logistik baxımdan əlverişli mühit yaradır.

Bu məsələdə əmək bazarı və insan kapitalı amilləri də əhəmiyyətli rol oynayır. Azərbaycanda ali təhsilli əhali nisbətən yüksək olsa da, ixtisaslı kadr çatışmazlığı müəyyən sahələrdə, xüsusilə texnologiya və aqrobiznes istiqamətlərində hiss olunur. Bu səbəbdən də dövlət əmək bazarının çevikləşdirilməsi və peşə təhsili proqramlarını genişləndirmək üçün islahatlar həyata keçirir.

Azərbaycanda əlverişli xarici investisiya mühitindən danışarkən bu məsələdə beynəlxalq reytinqlərin ölkəmizin investisiyatı barədə qiymətləndirmələrinə də diqqət yetirmək istərdik. Məsələn, Doing Business (Dünya Bankı) hesabatına əsasən, Azərbaycan 191 ölkə arasında 34-cü yerdə qərarlaşıb. Bu göstərici "biznesin qeydiyyatı", "tikintiyə icazə", "vergi ödəmələri" və "müqavilələrin icrası" kimi sahələrdə irəliləyişləri əks etdirib. Qlobal Rəqabətlilik İndeksində isə ölkəmiz 141 ölkə arasında 58-ci yeri tutub, infrastruktur, makroiqtisadi sabitlik və bazar ölçüsü üzrə yüksək nəticələr göstərib.

Kredit reytinqlərinə gəldikdə isə qeyd edə bilərik ki, Fitch Ratings (2024-cü ilin əvvəlində) Azərbaycanın suveren kredit reytinqini "BB+" (stabil) səviyyəsində təsdiqləyib. Bu, fiskal ehtiyatların möhkəmliyi və borc yükünün aşağı olması ilə əsaslandırılıb.

Respublikamızda investorlara cəlbedici olan sahələr də artıq müəyyənləşdirilib. Bura bərpa olunan enerji, aqrobiznes, turizm və xidmət sektoru kimi sahələr daxil edilib. Bu fikri konkret ifadə edərək bildirək ki, xüsusilə Qarabağ və Naxçıvan bölgəsində günəş və külək enerjisi potensialı yüksək qiymətləndirilib. BP, ACWA Power (Səudiyyə Ərəbistanı) və Masdar (BƏƏ) kimi şirkətlər bu sahəyə daxil olunub. İxracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə investisiyalar üçün də əlverişli imkanlar yaradılıb. Aqroparklar və xüsusi iqtisadi zonaların bu sahəyə marağı gücləndirilib. Nəhayət, turizm və xidmət sektoru üçün Qarabağ bölgəsində "yaşıl" turizm, sağlamlıq və mədəni turizm istiqamətləri üzrə layihələr planlaşdırılıb və icrasına başlanılıb.

Lakin əldə olunan irəliləyişlərə baxmayaraq, hələ də icazə və qeydiyyat proseslərinin sürətləndirilməsinə ehtiyac olduğu bildirilir. Məhkəmə-hüquq sisteminə inamın zəifliyi də ciddi narahatlıq doğurur. Mübahisələrin həlli və hüquqların qorunması baxımından məhkəmə sistemində institusional islahatlara ehtiyacı duyulur. Geosiyasi gərginliklər və Ermənistanla normallaşma prosesi fonunda bəzi xarici investorlarda ehtiyatlı yanaşma özünü büruzə verir.

Beləliklə, Azərbaycan investisiya mühiti baxımından Cənubi Qafqazın ən sabit və perspektivli ölkələrindən biri hesab olunur. Enerji və nəqliyyat sektorundakı möhkəm baza, islahatlar yönümlü iqtisadi siyasət və strateji coğrafi mövqe ölkəyə sərmayə üçün cəlbedici imkanlar təqdim edir. Lakin uzunmüddətli və sabit investisiya axını üçün hüquqi sistemin təkmilləşdirilməsi, institusional şəffaflıq və insan kapitalının inkişafı kimi sahələrdə əlavə layihələrin reallaşdırılmasına ehtiyac duyulur.

**Gəncə Şəhər Statistika İdarəsinin yaydığı məlumata görə, cari ilin yanvar-mart aylarında Gəncə şəhərində fəaliyyət göstərən sənaye müəssisələri və fiziki şəxslər tərəfindən faktiki qiymətlərlə 150 milyon manatlıq sənaye məhsulu istehsal edilib və sənaye xarakterli xidmətlər göstərilib. Məhsulun və xidmətlərin 30,5 milyon manatı, yaxud 20,3 faizi dövlət sektorunun sənaye müəssisələri, 119,5 milyon manatı, yaxud 79,7 faizi qeyri-dövlət sektorunun sənaye müəssisələri və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri (fiziki şəxslər) tərəfindən istehsal edilib.**

# Gəncə bu il 124 traktor, 6 yük avtomobili buraxıb



Emal sektorunun müəssisələri tərəfindən 118,9 milyon manatı, yaxud 93,5 faizi qeyri-dövlət sektoruna aid olmaqla 127,2 milyon manatlıq məhsul istehsal edilib və sənaye xarakterli xidmətlər göstərilib. Hesabat dövründə 124 traktor, 6 MAZ yük avtomobili, 3561,3 ton emal edilməmiş alüminium ərintiləri, 3604 ədəd elektron, 111893 ədəd mexaniki su və qaz sayğacı istehsal edilib.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunun müəssisələri tərəfindən 2025-ci il yanvar-mart ayları ərzində 15,8 milyon manatlıq təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda 6,5 milyon manatlıq məhsul istehsal edilib və xidmətlər göstərilib.

# Kəndə güzəştli dəstək



**Ölkəmizdə kənd təsərrüfatının inkişafına dəstək məqsədilə bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Dövlətin ayırdığı güzəştli kreditlər də bu baxımdan mühüm əhəmiyyət daşıyır. Artıq bu mexanizmdən yararlanan fermerlərin sayı xeyli artıb. Sərfəli şərtlərlə kredit əldə edən hüquqi və fiziki şəxslər isə bu imkandan maksimum istifadə etməklə əkin sahələrini, eləcə də heyvandarlıq təsərrüfatlarını getdikcə genişləndirməyə nail olurlar.**

Aqrar Kredit və İnkişaf Agentliyi əvvəlki dövrlərdə olduğu kimi, bu ilin birinci rübündə də kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən fermerlərə və fərdi təsərrüfat sahiblərinə güzəştli kreditlərin ayrılmasını davam etdirib.

Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin məlumatına görə, cari ilin yanvar-mart aylarında kənd təsərrüfatında çalışan 1036 şəxsin güzəştli kreditlə bağlı müraciətinə baxılıb. Həmin müraciətlərin nəticəsi olaraq Aqrar Kredit və İnkişaf Agentliyinin xətti ilə hüquqi və fiziki şəxslərə 19,6 milyon manat məbləğində güzəştli kredit verilib. Bunun isə 19,5 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, qalan hissəsi isə güzəştli və mikrokreditlərdir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qarabağ və Şərqi Zəngəzurda “yaşıl” layihələrə meydan açılır

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyat tədricən əvvəlki məcrasına qayıdır. Düşmənin 30 il ərzində viran qoyduğu, daşı daş üstə saxlamadığı yurd yerlərimiz Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı, eləcə də dövlət xəzinəsi hesabına yenidən bərpa olunur. Yeni salınmış yaşayış məntəqələri ilk sakinlərini qəbul edir, keçmiş məcburi köçkünlər yurda qayıdışın sevincini yaşayırlar. Sakinlərin rahat yaşayışını təmin etmək, eləcə də regionu əlverişli turizm məkanına çevirmək üçün ən müasir infrastruktur yaradılır. Bir sözlə, 44 günün döyüş meydanı indi əsl quruculuq, hünər meydanına çevrilib.**



Yüksək sənaye, kənd təsərrüfatı və turizm imkanlarına malik olan bu ərazilər, həm də alternativ və bərpa olunan enerji potensialı ilə zəngindir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilər və yaşayış sahələri ilə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasında həmin ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Məhz belə bir zənginliyi nəzərə alan dövlətimizin başçısı Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini “yaşıl enerji” zonası elan edib. Bu məqsədlə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” 2021-ci il 3 may tarixli sərəncam imzalanıb. Sənədə əsasən, Nazirlər Kabineti tərəfindən “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə “yaşıl enerji” zonasının yaradılması ilə bağlı Tədbirlər Planı” təsdiq edilib.

Mütəxəssislərin son hesablamalarına görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 10 min meqavatadək “yaşıl” enerji potensialı mövcuddur. Elə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi də bildirir ki, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları texniki potensialı 7200 meqavatdan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şəraitə malikdir. Bununla yanaşı, ilkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialı 2 min meqavat həcmində qiymətləndirilir. Kəlbəcər və Şuşa rayonlarının geotermal mənbələri də “yaşıl” enerji istehsalı üçün olduqca əlverişlidir. Son tədqiqatlara əsasən, Kəlbəcər rayonunun ərazisində 3093 kubmetr-gün, Şuşada isə 412 kubmetr-gün termal su ehtiyatları mövcuddur.

Artıq işğaldan azad edilmiş ərazilərimiz beynəlxalq səviyyəli “yaşıl” layihələrin icra olunduğu məkana çevrilib. Məlum olduğu kimi, hazırda BP şirkəti ilə sıx əməkdaşlıq şəraitində Cəbrayıl rayonunda “Şəfəq” Günəş Elektrik Stansiyasının tikintisi intensiv şəkildə davam etdirilir. Bununla yanaşı, yaxın gələcəkdə rayon ərazisində daha 100 meqavat gücündə stansiyaların inşası nəzərdə tutulur.

Yeri gəlmişkən, ekspertlər günəş elektrik stansiyasının tikintisi üçün Cəbrayıl rayonunun ərazisinin seçilməsini heç də təsadüfi saymırlar. Onların fikrincə, bu sahədə aparılan tədqiqatlar Azərbaycanda günəş enerjisini orta illik zaman çərçivəsində elektrik enerjisinə çevirməyin ən yüksək faydalı iş əmsalının məhz bu rayonun ərazisinə düşdüyünü təsdiqləyib. Görünür, BP şirkətinin stansiyanın tikintisi üçün həmin ərazini seçməsi də məhz bu amillə bağlıdır. BP “Şəfəq” layihəsinin ilkin yeganə investoru olaraq “SOCAR Green” və Azərbaycan İnvestisiya Şirkəti ilə səhmdarlar sazişi imzalayıb. Sazişə əsasən “Şəfəq (Cəbrayıl) Solar Limited” adlı yeni birgə müəssisə yaradılıb. “Şəfəq” layihəsi ilə bağlı birgə investisiya fəaliyyəti məhz həmin müəssisə tərəfindən həyata keçirilir.

Xatırladaq ki, postsovet məkanının ilk ən böyük günəş elektrik stansiyalarından biri kimi tarixə düşəcək “Şəfəq” Günəş Elektrik Stansiyasının istehsal gücü 240 meqavat təşkil edəcək. Bütövlükdə isə, stansiyada il ərzində, təqribən, 700 milyon kilovat-saat elektrik enerjisinin əldə edilməsi planlaşdırılır ki, bu da kifayət qədər böyük rəqəmdir. Xəzər regionunda ən böyük, eləcə də dünya üzrə ilk beşliyə daxil olan Səngəçal terminalının elektrik təchizatı da tam olaraq “Şəfəq”dən alınan “yaşıl” enerji hesabına ödəniləcək.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisi hidopotensialının zənginliyi ilə də seçilir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanın yerli su ehtiyatlarının 25 faizi, yəni ildə, təqribən, 2 milyard 560 milyon kubmetri məhz bu ərazidə formalaşır. Regionun Tərtər, Bazarçay (Bərgüşadçay), Həkəri kimi əsas çayları və digər kiçik çayları böyük su elektrik enerjisi potensialına malikdir. Yeri gəlmişkən, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı “Caspian Agro” sərgisi çərçivəsində keçirilən “Ağıllı kəndlərin inkişaf perspektivləri: sistemli və institusional aqro və yaşıl yanaşmalar diplomatların gözü ilə” konfransında bildirib ki, yaxın zamanlarda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, təxminən, 500 meqavat gücündə yeni su elektrik stansiyalar istismara veriləcək ki, bu da ölkə miqyasında kifayət qədər böyük göstəricidir.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra bölgənin hidropotensialının səmərəli istifadəsinə başlanılıb. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hidroenerji potensialının yenidən tədqiqi barədə tapşırığına əsasən, “AzərEnerji" ASC tərəfindən işğal dövründə dağıdılan su elektrik stansiyalarından əlavə, ekoloji normalar daxilində yenilərinin tikintisi barədə hesabat hazırlanıb. Həmin hesabata əsasən, bölgədə ümumi gücü 467 meqavat olan 72 kiçik su elektrik stansiyasının inşa olunacağı nəzərdə tutulub.

Ölkə rəhbərinin Qarabağ və Şərqi Zəngəzurun dayanıqlı elektrik təchizatı infrastrukturunun yaradılması, eləcə də hidroenerji ehtiyatlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıqlarına əsasən regionun sərt, keçilməz iqlim və relyef şəraitinə baxmayaraq, ötən 4 ilə yaxın müddətdə bölgədə ümumi gücü 270 meqavat olan 32 kiçik su elektrik stansiyası tikilib və ya yenidən qurulub. Yeri gəlmişkən, dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında bildirib ki, işğaldan azad olunmuş ərazilərimizdə növbəti beş ildə əlavə 30 kiçik su elektrik stansiyasının tikilib istismara verilməsi ilə bu rəqəm 500 meqavata çatdırılacaq.

Bütövlükdə isə, işğaldan azad olunmuş ərazilərimizin hidroenerji potensialının hərəkətə gətirilməsi istiqamətində həyata keçirilən tədbirlərin iqtisadi səmərəsi getdikcə artır. Elə 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurda 32 kiçik su elektrik stansiyası üzrə 550 milyon kilovat-saatadək təmiz enerjinin istehsalı da bunu təsdiqləyir.

# Bakıda II Beynəlxalq Aqrar İnnovasiya Forumu keçirilib



**Dünən Bakıda Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi (“Caspian Agro”) və 30-cu yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi (“InterFood Azerbaijan”) çərçivəsində II Beynəlxalq Aqrar İnnovasiya Forumu keçirilib. Forumda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov çıxış edərək bildirib ki, kənd təsərrüfatı sərgisi gələn ildən başlayaraq yeni formatda təşkil olunacaq.**

Qeyd olunub ki, “Agri Week”, yəni kənd təsərrüfatı həftəsi çərçivəsi keçiriləcək sərgi çox sayda yerli fermer, təsərrüfat və təchizatçı şirkətlərə fərqli məkanlarda daha çox əlaqələr quramağa və fürsətlər əldə etməyə imkan yardacaq. Onun sözlərinə görə, tədbirlər Bakı Ekspo Mərkəzi ilə yanaşı, özəl təsərrüfatların ərazisində də təşkil olunacaq. Bununla yanaşı, 3 gün ərzində təşkil olunacaq Beynəlxalq Aqrar İnnovasiya Forumunda kənd təsərrüfatının əsas prioritet istiqamətləri müzakirə olunacaq.

Azərbaycan Robototexnika və Mühəndislik Akademiyasının əməliyyatlar üzrə baş meneceri Ziya İsmayılov isə çıxışında ölkəmizin kənd təsərrüfatı sahəsində yerli istehsal olan süni intellekt əsaslı texnologiya istifadə olunduğuna diqqət çəkib. O, hazırda dövlət subsidiya layihəsi çərşivəsində fəaliyyət göstərən Azərbaycan istehsalı olan “Nutlab” startap layihəsi barədə məlumat verərək bildirib ki, fındıqyığan aqreqat 50 işçinin bir gündə görə biləcəyi işi bir neçə saatda icra edir. Bu da gün ərzində 2 hektarlıq bir ərazidə fındıq yığımını həyata keçirməyə imkan yaradır. Z.İsmayılovun sözlərinə görə, hazırda fındıqçılıq üzrə ixtisaslaşmış Zaqatala və Balakən rayonlarında istifadə olunan aqreqat təkcə fındıq yığımında deyil, həm də yer belləmə, əkin, suvarma və kartof yığımı ilə bağlı fəaliyyət göstərə bilir. Baş menecer bununla yanaşı, yeni startap layihəsi olan “Ağıllı tasma” barədə də tədbir iştirakçılarına məlumat verib. Qeyd olunub ki, bu, heyvandarlıqla məşğul olan fermerlər üçün düşünülən bir layihə olacaq.

İtaliyanın “TİM International” şirkətinin şöbə müdiri Attilio Somma isə çıxışında ölkəmizdəki aqroparklarda iri layihələr üçün süni intellektin tətbiqinin çevik imkanlar yarada biləcəyini vurğulayıb. O, təmsil etdiyi qurumun fəaliyyəti barədə məlumat verərək bildirib ki, şirkət müxtəlif sahələr üzrə ixtisaslaşmış böyük bir komandadan ibarətdir və burada bir sıra qabaqcıl texnologiyalar – bulud həlləri, IoT (əşyaların interneti), süni intellekt və kibertəhlükəsizlik inteqrasiya olunaraq tətbiq edilir.

Qeyd olunub ki, İtaliya və Avropada süni intellektin ümumi tətbiqi 50 faizdən çox olduğu halda, aqrar sektorda bu göstərici cəmi 20 faiz təşkil edir. Onun sözlərinə görə, süni intellekt bütün sahələrə təsir göstərsə də, onun digər texnologiyalarla birlikdə istifadəsi daha səmərəli nəticələr verir, çünki süni intellekt yalnız bir vasitədir. A.Somma əlavə edib ki, süni intellekt alqoritmlərinin biznes planlaşdırması və büdcəyə nəzarət sahələrində tətbiqi məhsuldarlığın artırılmasına və xərclərin azaldılmasına mühüm töhfə verir.

Forumda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Rəqəmsal İnkişaf və İnnovasiya Mərkəzinin direktoru Elviz İsmayılov, “Digital Umbrella” MMC-nin İnnovasiya və Rəqəmsal inkişaf şöbəsinin rəhbəri Leyla Hacıyeva, “Peerstack Akademy”nin baş icraçı direktoru Camal Rzayev və başqaları çıxış edərək aqrar sektorun prioritet istiqamətləri ilə bağlı fikir və mülahizələrini bölüşüblər.

Forum öz işini panel müzakirələrlə davam etdirib.

**2025-ci ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10 faiz artaraq 1083,8 manat təşkil edib. İlin ilk rübündə iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

# Muzdla çalışanların maaşı 10 faiz artıb



Bildirilib ki, cari il aprelin 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 774,9 min nəfər təşkil edib ki, onların da 880,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 894,8 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Hesabat dövründə muzdla işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,6 faizi təhsil, 13,7 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

# Sumqayıt Kimya Sənaye Parkında “Bayraktar” PUA-ları istehsal ediləcək

**Mediada yayılan məlumata görə, “Bayraktar Teknoloji Azərbaycan” MMC-yə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Bununla da parkın rezidentlərinin sayı 39-a yüksəlib.**



Bildirilir ki, “Bayraktar Teknoloji Azərbaycan” MMC qarşısında sənaye parkının ərazisində “Pilotsuz uçuş aparatları istehsalı” layihəsini həyata keçirmək mühüm vəzifə kimi qoyulub. Bu isə Azərbaycan Müdafiə Nazirliyi və Türkiyənin “Baykar” şirkəti arasında 2023-cü ildə imzalanan niyyət protokolunda respublikamızda pilotsuz uçuş aparatlarının birgə istehsalına dair əməkdaşlığı ilə gerçəkləşdirilib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkında investisiya portfeli 6 milyard manatdan artıq olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən indiyədək sənaye parkına 5,5 milyard manatdan çox investisiya yatırılıb, 6200-dən çox insan daimi işlə təmin olunub. Həmçinin mövcud layihələr üzrə növbəti mərhələdə sənaye parkına əlavə olaraq 515 milyon manat investisiyanın yatırılması, 2700-ə yaxın daimi iş yerinin yaradılması nəzərdə tutulub.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən, ümumilikdə, 14 milyard manatlıq satış həyata keçirilib ki, bunun da 5 milyard manatlıq hissəsi ixracın payına düşür. Cari ilin I rübü ərzində sənaye parkında 659 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 251 milyon manatlıq hissəsi ixrac edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Bu ilin I rübü ərzində Sumqayıt Kimya Sənaye Parkının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 13,5 faiz, ixracında isə 26,1 faiz təşkil edib.

# 4 ayda ölkədə 16,7 milyard kubmetr “mavi yanacaq” hasil olunub

**2025-ci ilin yanvar-aprel aylarında ölkədə 16,7 milyard kubmetr təbii qaz hasil edilib. Bunun da 4,5 milyard kubmetri “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun, 9 milyard kubmetri “Şahdəniz” və 0,5 milyard kubmetri “Abşeron” yataqlarının, 2,7 milyard kubmetrə yaxını isə SOCAR-ın payına düşüb. Hesabat dövründə hasil olunmuş “mavi yanacağ”ın 8 milyard kubmetri ixraca nəql olunub.**



Energetika Nazirliyinin məlumatına əsasən, “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqları istismara veriləndən 2025-ci il mayın 1-dək, ümumilikdə, 480 milyard kubmetr qaz hasil edilib. Bunun isə 234,2 milyard kubmetri (səmt qazı) “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun, 245,8 milyard kubmetri isə “Şahdəniz” yatağının payına düşüb. Ötən müddətdə ölkəmiz Türkiyə, Gürcüstan və Avropadakı alıcılarına 176,5 milyard kubmetr qaz satıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

## *Ali Attestasiya Komissiyasının sədri:*

# Elmi dərəcə və adların verilməsi ilə bağlı meyarlar yenilənib

**Elmi dərəcə və elmi ad verilməsi, kadrların attestasiyası, dissertasiya şuralarının fəaliyyəti, elmi etika və beynəlxalq təcrübə ilə uyğunluq kimi məsələlər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) əsas fəaliyyət istiqamətlərindəndir. Son dövrlərdə bu sahədə həyata keçirilən islahatlar, yeni qaydalar və rəqəmsallaşma prosesi elmi ictimaiyyətin də diqqətindədir. Bu və digər aktual mövzularla bağlı AZƏRTAC-ın suallarını Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev cavablandırıb.**



**– Azərbaycanda son illərdə elm sahəsində həyata keçirilən islahatlar və tədqiqatyönümlü ali təhsil modelinə keçid hədəflənir. Bu islahatlar fonunda Ali Attestasiya Komissiyasının fəaliyyətinin elmi sistemin inkişafına verdiyi töhfələr nədən ibarətdir? Sizcə, bu sahədə hansı əsas çağırışlar aktuallığını saxlayır?**

– Son dövrlərdə Ali Attestasiya Komissiyasının fəaliyyəti elmi dərəcə və elmi adların verilməsində həm struktur, həm də məzmun baxımından nəzərəçarpacaq dərəcədə yenilənib. 2019-cu ildən etibarən qəbul edilmiş normativ sənədlər əsasında müdafiə və attestasiya prosedurlarında əsaslı dəyişikliklər aparılıb, elmi seminarların təşkili, müdafiə iclaslarında elektron səsvermə və şəffaflıq prinsipləri tətbiq olunub. Tələb olunan monoqrafiya, dərslik, dərs vəsaitləri və ümumiləşdirici işlərlə bağlı meyarlar təkmilləşdirilib, elmi plagiatla mübarizədə texniki və ekspert əsaslı nəzarət gücləndirilib.

Doğrudur ki, elm sahəsində aparılan islahatlar son illərdə daha sistemli xarakter alıb və bu, çox müsbət haldır. Çünki elmə dair sistemli yenilənmə olmadan ali təhsil sistemində baş verən dəyişikliklər tamamlanmış sayılmaz. Bu baxımdan, Komissiyanın rolu əsasən bu islahatların son mərhələsində – yəni elmi dərəcə və elmi adların verilməsi mərhələsində – keyfiyyətin qorunması və təmin edilməsi üzərində qurulub. Məhz bu səbəbdən Komissiyanın öz daxilində də struktur və normativ islahatlar həyata keçirilir.

Bununla yanaşı, aydın şəkildə qeyd olunmalıdır ki, elmi fəaliyyətin keyfiyyəti yalnız Attestasiya mərhələsində deyil, bütövlükdə elmi kadr hazırlığı prosesində formalaşır. Alim olmaq istəyən şəxslərin tədqiqat vərdişləri və elmi düşüncə tərzi bakalavriat və magistratura səviyyələrindən başlayaraq sistemli şəkildə inkişaf etdirilməlidir. Əgər ali təhsilin ilkin mərhələlərində tələbələrdə tədqiqat bacarıqları, elmi üslubda yazı vərdişləri və elmə maraq aşılanmazsa, daha sonra təqdim olunan dissertasiya işlərində keyfiyyətin təmin edilməsi olduqca çətinləşir. Yəni, problemin tam həlli üçün ali təhsilin bütün səviyyələrində elmi mədəniyyətin formalaşdırılması və tədqiqatyönümlü yanaşmanın gücləndirilməsi həlledici rol oynayır.

Öz növbəsində, komissiya fəaliyyətində keyfiyyəti artırmaq və prosedurları sadələşdirmək məqsədilə yaxın gələcəkdə bir sıra islahatlara başlayacaq. Bu islahatların əsas istiqamətlərindən biri sənədlərin qəbulundan ekspertizasına qədər mərhələlərin rəqəmsallaşdırılması və elektron sistem üzərindən idarə olunmasıdır. Eyni zamanda, elmi dərəcə və elmi adların verilməsi üzrə prosedurların yüngülləşdirilməsi, o cümlədən dissertasiyaların struktur və həcm baxımından çevikləşdirilməsi, akademik yazı tərzinə dair yeni yanaşmaların tətbiqi nəzərdə tutulur. Komissiya sənəd dövriyyəsinin azaldılması və xarici dil tələblərinin tətbiq mexanizmlərində yeniliklər, eləcə də professor elmi adının verilməsi meyarlarının təkmilləşdirilməsi istiqamətində də dəyişikliklər planlaşdırır. Bu addımlar həm şəffaflığı, həm də funksionallığı artırmaq məqsədi daşıyır.

**– Azərbaycanda doktorantura təhsilinin mövcud vəziyyətini necə qiymətləndirirsiniz? Əsas islahat istiqamətləri hansılar ola bilər?**

– Doktorantura sistemində elmi rəhbərlik, dissertasiya mövzularının təsadüfi və təkrar xarakter daşıması, metodoloji hazırlıqla bağlı müəyyən çatışmazlıqlar mövcuddur.

Doktorantura təhsili elmi kadr hazırlığının əsas mərhələsidir və bu sahədə keyfiyyətin təmin olunması ölkənin intellektual potensialının formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanda bu istiqamətdə mühüm addımlar atılıb, lakin kifayət qədər təkmilləşdirilməli olan məsələlər də mövcuddur.

Əminliklə demək olar ki, doktorantura təhsilində islahatlara ehtiyacın olması bu gün elmi ictimaiyyət tərəfindən də birmənalı şəkildə qəbul olunur. Bunun başlıca səbəbi odur ki, mövcud model əsasən fərdi təşəbbüslər üzərində qurulub, sistemli akademik mühit və dəstəkləyici strukturlar isə məhdud şəkildə fəaliyyət göstərir. Bu da tədqiqat prosesinin keyfiyyətinə, metodoloji hazırlığın səviyyəsinə və nəticələrin tətbiq potensialına birbaşa təsir edir.

Qeyd etmək yerinə düşər ki, beynəlxalq təcrübədə doktorantura təhsili üzrə müxtəlif modellər mövcuddur və onlar arasında ciddi struktur fərqləri var. Məsələn, Avropa ölkələrinin bir çoxunda tətbiq olunan "strukturlu doktorantura modeli" tədqiqat prosesinin əvvəlindən sonunadək sistemli şəkildə təşkil olunmasına yönəlib. Bu modeldə doktorantlar üçün nəzəri-metodoloji hazırlıq kursları, seminarlar, aralıq qiymətləndirmələr və monitorinq mexanizmləri institusional şəkildə qurulur. Tələbənin təkcə elmi işini deyil, ümumi akademik bacarıqlarını da inkişaf etdirməsi nəzərdə tutulur.

Digər tərəfdən, ABŞ modeli daha çox mərhələli yanaşmaya əsaslanır. Bu modeldə doktorantura təhsili magistratura səviyyəsindən sonra 5–7 illik dövrü əhatə edir və ilkin mərhələdə geniş kurs proqramı ilə müşayiət olunur. İmtahan mərhələsini uğurla keçdikdən sonra tələbə dissertasiya mərhələsinə keçir. Burada da təkcə tədqiqat deyil, həm də pedaqoji fəaliyyət, elmi nəşrlər və layihələrdə iştirak vacib komponentlər hesab olunur. Bu yanaşma tədqiqatçının həm akademik, həm də praktiki baxımdan hazırlanmasını təmin edir.

Doktorantura təhsilinin bütün mərhələlərinin məqsədyönlü və ardıcıl şəkildə təşkili vacib olsa da, ən əsas prioritet sayılan nəticə tədqiqatın doktorant tərəfindən elmi üslubda, müvafiq metodoloji çərçivə əsasında və mövcud elmi standartlara uyğun şəkildə hazırlanmasıdır. Bu baxımdan, istənilən struktur modelinin – istər strukturlu Avropa modeli, istərsə də mərhələli Amerika modeli – seçilməsi ikinci dərəcəlidir. Əsas məsələ odur ki, seçilən model həmin elmi keyfiyyəti, akademik dürüstlüyü və tədqiqatın standartlara uyğunluğunu təmin edə bilsin. Komissiyanın funksiyası da məhz bu keyfiyyət meyarlarının qorunmasına nəzarət etməkdir.

**– Elmi dərəcələrin verilməsi prosesində elmi müəssisə və təşkilatlarda, eləcə də ali təhsil müəssisələrində fəaliyyət göstərən dissertasiya şuralarının fəaliyyəti, müdafiə prosedurlarının ləng və çoxpilləli olması, etik standartlar, qeyri-şəffaf yanaşmalar və subyektivlik ilə bağlı iddialar var. Mövcud müdafiə mexanizmlərində hansı sistem problemləri var və bu sahədə nə kimi dəyişikliklər planlaşdırılır?**

– Dissertasiya müdafiə mexanizmləri ilə bağlı müzakirələrin aktuallığı həm komissiyanın müşahidələri, həm də elmi ictimaiyyətin müzakirələri fonunda başadüşüləndir. Ölkəmizdə hazırda tətbiq olunan müdafiə sistemi tarixi olaraq formalaşmış hibrid bir modeldir – burada həm klassik sovet modelinin elementləri, həm də müasir keyfiyyət meyarları paralel şəkildə mövcuddur.

Vacib bir məsələ ondan ibarətdir ki, dissertasiya şuralarının yaradılması, şura tərkibi və müdafiə iştirakçılarının müəyyən olunması Komissiya tərəfindən deyil, elmi müəssisə və ali təhsil müəssisələri tərəfindən təqdim olunan vəsatətlər əsasında həyata keçirilir. Komissiyanın rolu burada prosedur uyğunluğuna və normativ tələblərə riayət olunmasına nəzarətlə məhdudlaşır.

Bununla belə, müdafiə mərhələsində müəyyən sistem problemləri davam etməkdədir. Bura sənədlərin tamlığı ilə bağlı çatışmazlıqlar, elmi seminar və şura iclaslarında texniki və metodoloji tələblərin tam yerinə yetirilməməsi, opponent seçiminin keyfiyyət meyarlarına tam uyğun gəlməməsi və bəzən prosesin formal xarakter daşıması kimi hallar daxildir. Bu səbəbdən bəzi dissertasiyalar ilkin mərhələdə müsbət rəy alsa da, attestasiya zamanı ciddi elmi və etik pozuntulara görə elmi dərəcə verilməsindən imtinaya səbəb olur. Komissiyanın mövqeyi burada aydındır – biz yalnız nəticəyə deyil, həmin nəticəyə gətirən elmi və prosedur yolun keyfiyyətinə də ciddi yanaşırıq.

Son illərdə bu sahədə daha şəffaf və keyfiyyətə əsaslanan mühitin formalaşdırılması məqsədilə bir sıra mühüm addımlar atılıb. Belə ki, müdafiələrin yekun mərhələsində elektron səsvermə tətbiq edilib, "aparıcı təşkilat" ləğv olunaraq rəsmi opponentlərin sayı artırılıb. Həmçinin xarici dil və ixtisas imtahanlarının keçirilməsində daha çevik və beynəlxalq standartlara uyğun mexanizmlər tətbiq olunub, B2 səviyyəsində dil sertifikatlarının tanınması təmin edilib. Elmi seminarların ixtisas üzrə ayrıca təşkili təmin olunub, dissertasiyaların ingilis dilində hazırlanması və müdafiəsi üçün hüquqi və təşkilati imkanlar yaradılıb. Plagiatla mübarizə isə yalnız texniki vasitələrlə deyil, alternativ ekspertiza əsaslı yanaşmalarla gücləndirilib.

Komissiyanın əsas məqsədi müdafiə prosedurlarını sadəcə texniki baxımdan deyil, mahiyyət etibarilə də gücləndirməkdir. Yəni məqsəd təkcə sənədlərin düzgünlüyünə nəzarət deyil, təqdim olunan dissertasiyanın elmi keyfiyyətini, metodoloji əsaslarını və aktuallığını da sistemli şəkildə qiymətləndirməkdir. Bəzən iddiaçılar dissertasiya şuralarından keçmiş işlərinə Komissiya səviyyəsində irad bildirilməsini qeyri-obyektivlik kimi qiymətləndirirlər. Əslində, bu yanaşma sistemin keyfiyyət filtri kimi son mərhələdə Komissiyanın məsuliyyətli və ciddi şəkildə işləməsinin göstəricisidir.

**– Fəlsəfə doktorluğu elmi dərəcəsinin verilməsində mövcud vəziyyət necədir? Prosedurlarda edilən dəyişikliklərin effektivliyi, elmi keyfiyyətin və ədalətli qiymətləndirmənin təmin olunmasına təsiri nə dərəcədə təmin olunub və gələcəkdə daha hansı addımlar nəzərdə tutulur?**

– Son illərdə fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi sahəsində bir sıra sistemli dəyişikliklər həyata keçirilib. Bu dəyişikliklərin əsas məqsədi həm prosedurların sadələşdirilməsi, həm də elmi keyfiyyətin və ədalətli qiymətləndirmənin təmin olunması olub. Mövcud vəziyyəti real və obyektiv şəkildə qiymətləndirmək üçün ilk növbədə nəzərə almalıyıq ki, elmi dərəcə təkcə formallıq deyil, tədqiqatın keyfiyyəti və elmi dürüstlüyün göstəricisidir.

İmtahan sistemində də ciddi dəyişikliklər baş verib. Xarici dil imtahanı artıq Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir və beynəlxalq sertifikatlara malik olan şəxslər bu mərhələdən azad olunurlar. Bu, obyektivliyin artırılması baxımından önəmlidir.

Elmi nəşrlərə dair tələblər də beynəlxalq standartlara uyğunlaşdırılıb. Artıq fəlsəfə doktoru dərəcəsinə iddia edən şəxslər elmi məqalələrini müəyyən olunmuş xülasələndirmə və indeksləmə bazalarına daxil olan jurnallarda dərc etdirməlidirlər. Bu tələbin tətbiqi nəticəsində Azərbaycan alimlərinin beynəlxalq elmi bazalardakı aktivliyində nəzərəçarpacaq artım müşahidə olunur.

Məsələn, Nazirlər Kabinetinin 2024-cü il üzrə fəaliyyət hesabatında da qeyd olunduğu kimi, 2024-cü ildə "Scopus" bazasında Azərbaycan alimləri tərəfindən dərc olunan elmi nəşrlərin sayı əvvəlki illə müqayisədə təxminən 40 faiz artaraq 4000-ə çatıb (2023-cü ildə bu göstərici 2816 idi). Eyni zamanda, "Web of Science" bazasında indekslənmiş nəşrlərin sayı 52.9 faiz artaraq 1885-dən 2882-yə yüksəlib. Bu dinamika göstərir ki, elmi keyfiyyətə yönəlmiş prosedur dəyişiklikləri real nəticələr doğurur və alimlərimizin elmi nəticələrinin qlobal elmi məkana inteqrasiyasını sürətləndirir.

Onu da qeyd edim ki, Komissiya fəlsəfə doktorlarının statusunun artması istiqamətində də müəyyən addımlar atıb. Belə ki, yeni qaydalara görə fəlsəfə doktorları həlledici səslə bütün dissertasiya müdafiələri ilə bağlı iclaslarda (ilkin müzakirə, seminar və bilavasitə müdafiədə), Komissiyanın ekspert şuralarının tərkibində ekspert qismində işə cəlb edilirlər. Bundan başqa, fəlsəfə doktorlarına 2 nəfər doktoranta elmi rəhbərlik üçün heç bir icazə tələb olunmur. Əvvəllər bunun üçün komissiyadan xüsusi icazə almaq lazım olurdu.

Lakin etiraf etməliyik ki, tətbiq olunan dəyişikliklər təkcə mükəmməl prosedur deyil, eyni zamanda, məsuliyyətli akademik mədəniyyət tələb edir. Bəzi hallarda müdafiə mərhələsindən uğurla keçmiş dissertasiya işlərində, attestasiya mərhələsində ciddi elmi, etik və metodoloji pozuntular aşkarlanır. Belə ki, 2019-2024-cü illərdə 1985 şəxsə fəlsəfə doktoru elmi dərəcəsi verilib, 791 şəxsə fəlsəfə doktoru elmi dərəcəsi verilməsindən imtina edilib. Bu da onu göstərir ki, islahatlar yalnız qayda dəyişiklikləri ilə məhdudlaşmamalı, elmi mədəniyyətin və etik davranışın da sistemli şəkildə təşviqinə yönəlməlidir.

**– Müasir beynəlxalq təcrübədə doktorantura təhsili əsasən PhD dərəcəsi ilə məhdudlaşır. Lakin Azərbaycanda elmlər doktoru mərhələsi ayrıca elmi pillə kimi saxlanılır. Bu modelin davam etdirilməsi elmi keyfiyyətin artırılması baxımından müdafiə olunsa da, bəzi ekspertlər onun funksional səmərəliliyini və beynəlxalq uyğunluğunu sual altına alırlar. Elmlər doktoru dərəcəsinin saxlanması ilə bağlı mövqeyiniz nədir və bu sistemin transformasiyası gündəmdə varmı? Sizcə, elmlər doktoru dərəcəsinin ayrı mərhələ kimi saxlanılması indiki mərhələdə zərurətə uyğundurmu, yoxsa bu sistemin beynəlxalq modellərə uyğun təkpilləli strukturla əvəzlənməsi məqsədəuyğundur?**

– Elmlər doktoru elmi dərəcəsi ölkəmizdə uzun illərdir ki, akademik sistemin tərkib hissəsidir. Bu dərəcə təkcə doktorantura pilləsinin davamı deyil, həm də müstəqil və fundamental elmi tədqiqatların nəticəsi kimi nəzərdə tutulub. Bununla yanaşı, qeyd etməliyik ki, bu model hazırda yalnız Azərbaycanda deyil, bir sıra Avropa və MDB ölkələrində də tətbiq olunmağa davam edir.

Biz bu məsələyə radikal deyil, mərhələli və məsuliyyətli yanaşmanın tərəfdarıyıq. Elmlər doktoru dərəcəsinin ləğvi və ya təkpilləli sistemə keçid yalnız normativ sənəd dəyişikliyi ilə həll edilə biləcək məsələ deyil. Bu, həm də institusional mexanizmlərin, elmi tədqiqat infrastrukturunun və akademik mühitin hazır olması ilə bağlıdır.

İlk növbədə onu qeyd etməliyik ki, elmlər doktoru elmi dərəcəsinə yiyələnmək könüllü seçimdir. Bu, hər bir tədqiqatçının öz elmi yolunu necə davam etdirmək istəyinə bağlı qərardır və heç bir məcburiyyət elementi daşımır. Burada, əksinə, bu sistemin olmaması elmlər doktoru olmaq arzusunda olanlar üçün məhdudiyyətlər yarada bilər. Digər tərəfdən, son dövrlərdə vəzifə təyinatları da göstərir ki, hətta ali təhsil və elmi müəssisələrin rəhbər vəzifəliləri üçün də elmlər doktorluğu elmi dərəcəsinin olması şərt deyil. Belə olan halda bu mərhələnin mövcudluğu kimə mane olur?

Lakin bu mərhələ, məzmun baxımından, sırf elmi tutumun sübutuna əsaslanan və yüksək nəticə tələb edən bir elmi pillədir.

Mövcud qaydalara əsasən, elmlər doktoru olmaq istəyən tədqiqatçı müvafiq sahə üzrə ciddi elmi nəticələr ortaya qoymalıdır. Belə ki:

– Humanitar və ictimai elmlər üzrə dissertasiya mövzusuna uyğun azı 15 elmi məqalə, onlardan azı 3-ü beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda dərc olunmalıdır;

– Dəqiq və təbiət elmləri üzrə isə, azı, 10 elmi məqalə, onlardan azı 5-i beynəlxalq bazalarda yerləşdirilmiş jurnallarda dərc olunmalıdır.

Bu tələblər təsadüfi müəyyən edilməyib. Onların məqsədi – elmlər doktoru dərəcəsini daşıyan şəxsin həqiqətən sistemli, davamlı və əhəmiyyətli tədqiqat nəticələri ortaya qoyduğunu sübut etməkdir.

Statistikaya nəzər salsaq, 2019-2024-cü illərdə 365 nəfərə elmlər doktoru elmi dərəcəsi verilib. Bu şəxslər ümumilikdə, azı, 4420 elmi məqalə təqdim ediblər. Onlardan da azı 1521 məqalə beynəlxalq indeksləmə və xülasələndirmə sistemlərinə daxil olan jurnallarda yayımlanıb. Bu rəqəmlər elmlər doktorluğu institutunun ölkə elminə verdiyi konkret və ölçülə bilən töhfəni nümayiş etdirir.

Burada əsas sual budur: bu elmi pillənin ləğvi halında həmin məhsuldarlıq necə qorunacaq və ya əvəzlənəcək? Komissiya olaraq, bu məsələni təkcə formal idarəetmə çərçivəsində deyil, həm də ölkə elminə real təsir və töhfə prizmasından qiymətləndiririk.

**– Dosent elmi adının verilməsi prosedurunun sadələşdirilməsi və müasirləşdirilməsi istiqamətində müzakirələr aparılır. Bu istiqamətdə Komissiyanın planları və yanaşması nədir?**

– Dosent elmi adı elmi-pedaqoji fəaliyyətin mühüm mərhələsi kimi dəyərləndirilir və bu sahədə tətbiq olunan prosedurların həm şəffaf, həm də səmərəli olması komissiyanın diqqət mərkəzindədir. 2019-2024-cü illərdə 1326 şəxsə dosent elmi adı verilib. Komissiyanın yanaşması ondan ibarətdir ki, dosent elmi adının verilməsində əsas meyar yalnız formallıq deyil, iddiaçının ixtisası üzrə sistemli elmi fəaliyyəti, elmi rəhbərlik təcrübəsi, metodiki töhfələri və pedaqoji göstəriciləri əsasında qiymətləndirilməlidir. Bu baxımdan, gələcək mərhələdə elmi məqalələrin keyfiyyətinə dair tələblərin sahələr üzrə diferensiallaşdırılması, pedaqoji fəaliyyəti əks etdirən göstəricilərin sənədlə təsdiqi və bəzi texniki mərhələlərin rəqəmsallaşdırılması istiqamətində addımlar nəzərdə tutulur.

Eyni zamanda, komissiya nəzərə alır ki, elmi dərəcəsi olmayan, lakin ölkə daxilində ali təhsil, mədəniyyət, memarlıq, hərbi və idman sahələrində uzun müddət qüsursuz fəaliyyət göstərmiş və əhəmiyyətli nəticələr əldə etmiş şəxslər üçün də istisna hallarda elmi ad verilməsi mümkündür. Bu məqsədlə xüsusi qayda və meyarlar müəyyən edilib. Bu yanaşma elmi adların yalnız akademik dərəcə ilə deyil, sahəvi töhfə və tanınmış fəaliyyətlə də əsaslandırıla biləcəyini nəzərə alır.

Əlavə olaraq, beynəlxalq yanaşmalar göstərir ki, bir çox ölkələrdə "dosent" və ya ona ekvivalent statuslara seçim zamanı namizədin elmi nəşrlərinin səviyyəsi, tədris fəaliyyəti, elmi rəhbərlik təcrübəsi və beynəlxalq əməkdaşlıq göstəriciləri əsas meyar kimi götürülür. Bu modelin ölkəmizdə tətbiqi üçün ali təhsil müəssisələrində elmi fəaliyyətin qiymətləndirilməsi üzrə şəffaf və müstəqil daxili mexanizmlərin qurulması, universitetlərin akkreditasiya və keyfiyyət təminatı baxımından bu səlahiyyəti daşıya biləcək səviyyədə institusional potensiala malik olması, elmi rəhbərlik, nəşr keyfiyyəti və pedaqoji fəaliyyətin sənədlərlə əsaslandırıldığı daxili performans sistemlərinin mövcudluğu, plagiat və etik pozuntulara nəzarət üzrə milli mexanizmlərin işləkliyi və normativ-hüquqi bazanın uyğunlaşdırılması vacib şərtlərdir.

**– Professor elmi adının verilməsi üçün mövcud tələblərin elmi fəaliyyətin real göstəricilərini əks etdirmədiyi, formal meyarlarla məhdudlaşdığı barədə elmi ictimaiyyətdə müzakirələr aparılır. Digər tərəfdən, beynəlxalq praktikada bu adda və statusda vəzifələr çox zaman vəzifə təyinatı ilə tənzimlənir, elmi-pedaqoji fəaliyyətin təsdiqlənmiş nəticələrinə əsaslanır. Bu sahədə mövcud vəziyyət və problemlər nədir və daha şəffaf, obyektiv sistem qurmaq üçün hansı islahatlar mümkündür?**

– Professor elmi adının verilməsi mexanizmi Azərbaycanda son illərdə əhəmiyyətli şəkildə təkmilləşdirilib. 2019-2024-cü illərdə 225 nəfərə professor elmi adı verilib. Bu ad yalnız müvafiq elmi dərəcəsi olan və ixtisası üzrə elmi və ya elmi-pedaqoji fəaliyyət göstərən şəxslərə verilir. Tələblər sırasında beynəlxalq indeksli jurnallarda dərc olunmuş məqalələrin sayı, H-indeks göstəricisi, elmi rəhbərlik nəticələri və metodiki fəaliyyətin keyfiyyəti əsas yer tutur.

Bununla belə, elmi ictimaiyyətdə bu sistemin bəzi hallarda fəaliyyətin real elmi-pedaqoji çəkisini tam əks etdirmədiyi, xüsusilə humanitar sahələrdə meyarların uyğunlaşdırılmasının çətinliyi ilə bağlı suallar mövcuddur. Eyni zamanda, bəzi iddiaçılar tərəfindən məzmun keyfiyyətindən çox say göstəricilərinə önəm verildiyi müşahidə olunur.

Beynəlxalq təcrübədə professor titulu çox zaman ali təhsil müəssisələrinin daxili qərarları əsasında – yəni vəzifə təyinatı kimi – müəyyən edilir. Bu isə həmin ölkələrdə elmi keyfiyyəti tənzimləyən güclü daxili institutların və akkreditasiya mexanizmlərinin mövcudluğu ilə bağlıdır.

Hazırda Azərbaycanda məqsədimiz sistem daxilində obyektivlik və şəffaflığı daha da gücləndirməkdir. Bu baxımdan, bir sıra əlavə tədbirlər nəzərdən keçirilir. Buraya nəşrlərin keyfiyyətinə dair sahəyə uyğun fərqləndirilmiş yanaşmaların tətbiqi, elmi rəhbərlik və pedaqoji fəaliyyətin sənədlərlə təsdiqlənməsi, universitetlərin daxili qiymətləndirmə nəticələrinin nəzərə alınması və elmi adların verilməsi prosesində izlənə bilən rəqəmsal platformaların istifadəsi daxildir.

Qeyd etmək lazımdır ki, professor elmi adı yalnız elmlər doktoru dərəcəsinə malik şəxslərlə məhdudlaşmır – bu ada fəlsəfə doktoru dərəcəsi ilə də iddia etmək mümkündür. Lakin bu halda meyarlar daha genişdir: iddiaçının dosent elmi adı aldıqdan sonra azı 5 il elmi və ya elmi-pedaqoji fəaliyyətlə qüsursuz məşğul olması, beynəlxalq bazalarda indeksləşən jurnallarda sahəyə uyğun olaraq azı 3 humanitar və ya 7 dəqiq elmlər üzrə məqalə dərc etdirməsi, H-indeks göstəricisinin müvafiq sahə üzrə azı 5 və ya 10 olması, elmi rəhbərliyi ilə azı 2 nəfərin fəlsəfə doktoru dərəcəsi alması və həm dərslik nəşri, həm də beynəlxalq elmi tədbirlərdə iştirakı tələb olunur. Burada siyahısı Komissiya tərəfindən müəyyən edilmiş xarici akademik nəşriyyatlarda dərc olunmuş monoqrafiya tələbi də mövcuddur. Bu yanaşma Komissiyanın elmi keyfiyyəti əsas meyar kimi qəbul etdiyini və professor adının yalnız dərəcə deyil, nəticə əsasında təqdim edilməsini təmin etdiyini göstərir. Professor elmi adı yalnız şəxsi karyera və nüfuz göstəricisi deyil, eyni zamanda, milli elmin keyfiyyətinin simvoludur. Buna görə də bu sahədə tətbiq olunan hər bir qayda həm elmi tutum, həm də ictimai etimad baxımından davamlı və əsaslandırılmış olmalıdır.

***(ardı var)***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 145** **Bakı şəhəri, 2 may 2025-ci il**

**“Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564 (Cild I); 2024, № 8, maddə 990, № 9, maddə 1068) aşağıdakı dəyişikliklər edilsin:

**1** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı” yeni redaksiyada verilsin (əlavə olunur).

**2** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin magistratura və rezidentura səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı” yeni redaksiyada verilsin (əlavə olunur).

**3** Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Azərbaycan Respublikasında ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla), əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində kadr hazırlığının maliyyələşdirilməsi Qaydaları”nın 4.7-ci bəndindən sonrakı “Qeyd” hissəsi aşağıdakı redaksiyada verilsin:

“Qeyd. Bu Qaydaların 4.7-ci bəndində “ixtisas” və “ixtisas qrupu” dedikdə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı”nda, “Ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə ixtisasların Təsnifatı”nda və “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı”nda qeyd olunan ixtisaslar və ixtisas qrupları nəzərdə tutulur.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 146** **Bakı şəhəri, 2 may 2025-ci il**

**“Azərbaycan Respublikasında mədəni və yaradıcı sənaye sahələrinə aid edilən iqtisadi fəaliyyət növlərinin siyahısı”nın, “Azərbaycan Respublikasında mədəni və yaradıcı sənaye sahələrinə aid edilən peşələrin (vəzifələrin) siyahısı”nın, “Azərbaycan Respublikasında istehsal olunan və mədəni və yaradıcı sənaye sahələrinə aid edilən məhsul və xidmətlərin siyahısı”nın və “Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyət üzrə mədəni və yaradıcı sənaye sahələrinə aid edilən mal və xidmətlərin siyahısı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın Tədbirlər Planının 1.1.14-cü yarımbəndinin 1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Azərbaycan Respublikasında mədəni və yaradıcı sənaye sahələrinə aid edilən iqtisadi fəaliyyət növlərinin siyahısı” təsdiq edilsin (əlavə olunur).

**2** “Azərbaycan Respublikasında mədəni və yaradıcı sənaye sahələrinə aid edilən peşələrin (vəzifələrin) siyahısı” təsdiq edilsin (əlavə olunur).

**3** “Azərbaycan Respublikasında istehsal olunan, mədəni və yaradıcı sənaye sahələrinə aid edilən məhsul və xidmətlərin siyahısı” təsdiq edilsin (əlavə olunur).

**4.** “Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyət üzrə mədəni və yaradıcı sənaye sahələrinə aid edilən mal və xidmətlərin siyahısı” təsdiq edilsin (əlavə olunur).

**5** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə və digər aidiyyəti dövlət qurumlarına tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, bu Qərarın 1-4-cü hissələri ilə təsdiq edilmiş siyahıların müvafiq məlumatların toplanılması, hesabatların tərtib edilməsi, təhlili və Azərbaycan Respublikasında iqtisadi fəaliyyətin nəticələrinin hesablanması zamanı nəzərdə tutulmasını təmin etmək üçün zəruri tədbirlər həyata keçirsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 147** **Bakı şəhəri, 2 may 2025-ci il**

**Gədəbəy Aşıq Məktəbinə Aşıq Ələsgərin adının verilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Gədəbəy Aşıq Məktəbinə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, el sənətkarı Aşıq Ələsgərin adı verilsin.

**2** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Gədəbəy Rayon İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 148** **Bakı şəhəri, 5 may 2025-ci il**

**“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun və “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 avqust tarixli 173 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun və “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 avqust tarixli 173 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli 181 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 975 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissənin ikinci abzasında “komissiyaya” sözü “müvafiq komissiyaya” sözləri ilə əvəz edilsin;

1.2. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Müsadirə edilmiş külli və xüsusilə külli miqdarda narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları Azərbaycan Respublikasının məhkəmə, prokurorluq orqanlarının və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupunun nümayəndələrindən ibarət tərkibdə yaradılmış külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya tərəfindən aktlaşdırılaraq məhv edilir.

Naxçıvan Muxtar Respublikasının ərazisində müsadirə edilmiş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi bu Qaydanın 4-cü hissəsinin birinci abzasında göstərilən orqanların (qurumların) fəaliyyət istiqamətləri üzrə səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən müvafiq orqanların (qurumlar) və struktur qurumların nümayəndələrindən ibarət tərkibdə yaradılmış külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyası tərəfindən həyata keçirilir.

Müsadirə edilmiş az və xeyli miqdarlarda olan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları Azərbaycan Respublikasının məhkəmə, prokurorluq orqanlarının və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, habelə bu orqanların fəaliyyət istiqamətləri üzrə səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən orqanların (struktur qurumların) rayonlarda (şəhərlərdə) fəaliyyət göstərən müvafiq struktur bölmələri, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikası Tibb Müəssisələrinin İdarəetmə Birliyinin) müəyyən etdiyi tabeliyindəki müvafiq tibb müəssisəsinin nümayəndələrindən ibarət tərkibdə yaradılmış rayon (şəhər) komissiyaları tərəfindən aktlaşdırılaraq məhv edilir.”;

1.3. 5-ci hissədə “Komissiya” sözü “komissiya” sözü ilə əvəz edilsin;

1.4. 6-cı hissənin doqquzuncu abzasının birinci cümləsinə “orqanlarında” sözündən sonra “(qurumlarında)” sözü əlavə edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 3, maddə 196 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 10-cu hissənin birinci abzasının birinci cümləsində “Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyasına” sözləri “müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaya” sözləri ilə əvəz edilsin;

2.2. həmin Qaydaya 4 nömrəli əlavə - “Kinoloji xidmət itlərinin narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərində istifadə olunan narkotik vasitələrin Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyasına təhvil verilməsi barədə AKT” üzrə:

2.2.1. adında “Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyasına” sözləri “müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaya” sözləri ilə əvəz edilsin;

2.2.2. mətndə “Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyasına” sözləri “müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə

________________________________________”
(komissiyanın adı)

sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 149** **Bakı şəhəri, 5 may 2025-ci il**

**“Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 44 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun və “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 avqust tarixli 173 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 44 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 307 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası”nın 2.1-ci bəndində “Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını məhvetmə komissiyası” sözləri “müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyalar” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 151** **Bakı şəhəri, 8 may 2025-ci il**

**“Helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər Tələblər”in təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər Tələblər” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 152** **Bakı şəhəri, 8 may 2025-ci il**

**Dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə minimum məbləğin həddinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 269 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə ümumi investisiyanın minimum məbləği 30 000 000,0 (otuz milyon) manat təsdiq edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 155** **Bakı şəhəri, 8 may 2025-ci il**

**“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, yerli flora növlərinin genefondunun qorunub saxlanılması və yaşıllıqların cins tərkibinin zənginləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab), maddə 715, № 10, maddə 1167, № 11, maddə 1252; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 aprel tarixli 105 nömrəli Qərarı) aşağıdakı məzmunda 4.37-ci bənd əlavə edilsin:

“4.37. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiqedici sənədinə əsasən, əkin məqsədilə ölkəyə gətirilən ağaclar, kollar, kolcuqlar, ot bitkiləri.”.

**2** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycanın Superkompüter Strategiyası: Rəqəmsal suverenliyə doğru

*Müsahibimiz Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun icraçı direktoru, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid Ələkbərovdur*



**– Rəşid müəllim, superkompüterlər IV sənaye inqilabının əsas atributlarından biri, müasir dövrün ən mühüm texnologiyalarından biri sayılır. Superkompüterlərin rolu, əhəmiyyəti, tətbiq sahələri barədə Siz nə deyə bilərsiniz?**

– Tamamilə doğru fikirdir. Superkompüterlər müasir dövrdə bir çox sahədə geniş tətbiq olunur və cəmiyyətin inkişafında mühüm rol oynayır. Müasir dövrdə böyük verilənlərin emalı və analizi artıq adi kompüterlərin imkanlarını aşır. Məhz bu səbəbdən superkompüterlər böyük verilənləri idarə etmək və onların əsasında süni intellekt sistemlərini formalaşdırmaq üçün zəruri infrastruktura çevrilir. Superkompüter çox güclü və sürətli kompüterdir, onlar böyük həcmdə məlumatı tez bir zamanda emal edə bilir. Onlar adi kompüterlərdən yüz minlərlə dəfə daha sürətlidir və çox böyük məlumatları qısa vaxtda hesablaya bilirlər. Superkompüter bütün fəaliyyət sahələrində uğurla tətbiq edilir və həmin sahələrdə problemlərin həllinə, sürətli inkişafa dəstək verir.

Məsələn, dövlət idarəçiliyində böyük verilənlərin süni intellekt və superkompüterlər vasitəsilə təhlili qərar qəbuletmə prosesini daha obyektiv və məlumatlı edir. Bu texnologiyalar əhali davranışlarını və sosial ehtiyacları analiz edərək resursların səmərəli bölüşdürülməsini və xidmətlərin optimallaşdırılmasını təmin edir. Superkompüterlər yüksək hesablama gücü ilə sürətli analiz və proqnozlar təqdim edərək təhsil, səhiyyə və sosial yardım sahələrində düzgün müdaxilə imkanları yaradır. Bu, dövlətin daha çevik, şəffaf və vətəndaşlara yönəlik idarəetmə aparmasına şərait yaradır. Nəticədə, vətəndaşlarla dövlət arasında daha yaxın, etibarlı və anlayışa əsaslanan münasibət qurulur.

Həmçinin tibb sahəsində hər gün böyük həcmdə və mürəkkəb struktura malik tibbi məlumatlar toplanır ki, bunların emalı ənənəvi sistemlər üçün çətinlik yaradır. Bu səbəbdən yüksək hesablama gücünə malik superkompüterlər səhiyyədə əhəmiyyətli rol oynayır. Onlar süni intellekt alqoritmləri vasitəsilə məlumatları analiz edərək onkoloji, ürək-damar və genetik xəstəliklərin erkən aşkarlanmasına və fərdi müalicə planlarının hazırlanmasına imkan verir. Pandemiyalar zamanı superkompüterlər xəstəliklərin yayılma dinamikasını modelləşdirmək və resursları idarə etmək üçün mühüm vasitəyə çevrilir. Ümumilikdə, səhiyyənin rəqəmsallaşması və dəqiq qərarların verilməsi superkompüter texnologiyalarının tətbiqi ilə sıx bağlıdır.

Superkompüterlərin böyük fayda gətirdiyi sahələrdən biri də kənd təsərrüfatıdır. Müasir kənd təsərrüfatında peyk təsvirləri, dron müşahidələri, torpaq analizləri və hava proqnozları kimi məlumatların toplanması və təhlili mühüm rol oynayır. Bu böyük və kompleks verilənlərin səmərəli emalı üçün superkompüterlərdən istifadə getdikcə genişlənir. Superkompüterlər torpaq münbitliyi, bitki sağlamlığı və aqrotexniki tədbirlər barədə dəqiq tövsiyələr verməyə imkan yaradır. Həmçinin məhsul itkisinə səbəb ola biləcək təbii fəlakətlərin proqnozlaşdırılması və qabaqlayıcı tədbirlərin görülməsi üçün aqrar iqlim modelləri qurulur. Nəticədə fermerlər daha düzgün qərarlar qəbul edir, məhsuldarlıq artır və kənd təsərrüfatı dayanıqlı rəqəmsal istehsala doğru inkişaf edir.

Rəqəmsal iqtisadiyyat şəraitində superkompüterlər süni intellekt modelləri ilə birlikdə milyonlarla tranzaksiya, bazar trendləri və istehlakçı davranışlarını təhlil edərək maliyyə sektorunda risklərin qiymətləndirilməsi və strateji qərarların verilməsində üstünlüklər yaradır. Bank və sığorta sahəsində bu texnologiyalar əməliyyatların optimallaşdırılması, saxtakarlıqların aşkarlanması və investisiya qərarlarının dəstəklənməsində effektivdir. Süni intellektlə birlikdə fərdiləşdirilmiş xidmətlər təqdim olunaraq müştəri məmnuniyyəti və sistem dayanıqlığı artırılır. Vergi və gömrük sahəsində isə böyük verilənlərin real vaxtda analizi vergidən yayınmaların vaxtında aşkarına və riskli əməliyyatlara nəzarətə imkan verir. Nəticədə fiskal siyasətin şəffaflığı artır və büdcə idarəçiliyi təkmilləşir.

Müasir şəhərlərdə nəqliyyatın idarə olunması artan əhali və avtomobil sayı fonunda daha da mürəkkəbləşmişdir. Bu situasiya superkompüterlərin tətbiqi ilə real vaxt rejimində böyük verilənlərin təhlilini tələb edir. Belə ki, superkompüterlər yol hərəkəti, ictimai nəqliyyat, hava proqnozu mərkəzi və digər mənbələrdən daxil olan məlumatları analiz edərək tıxacların proqnozlaşdırılması və alternativ marşrutların hazırlanması kimi qərarları sürətləndirməyə imkan verir. Bu texnologiyalar yalnız avtomobil yollarında deyil, hava limanları, dəmir yolları və limanlar kimi digər nəqliyyat sahələrində də koordinasiyanı və təhlükəsizliyi artırır. "Ağıllı şəhər və kənd" layihələrində superkompüterlər GPS və Əşyaların İnterneti qurğularından daxil olan məlumatları emal edərək şəhər nəqliyyatını daha çevik və davamlı hala gətirir. Beləliklə, nəqliyyatın rəqəmsallaşması enerji sərfiyyatını azaldır, ətraf mühitə təsiri minimuma endirir.

**– Azərbaycanda superkompüterlərin istifadəsi hansı vəziyyətdədir? Bu texnologiyanin tətbiqi ilə ölkəmizdə hansı işlər görülür?**

– Azərbaycan da rəqəmsal transformasiya dövrünü yaşayır və bu prosesin mühüm dayaqlarından biri süni intellekt texnologiyalarının iqtisadi sahələrdə tətbiqidir. Ölkədə həyata keçirilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", eləcə də, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" çərçivəsində bu məsələlərə xüsusi yer ayrılmışdır. Bu sənədlər çərçivəsində böyük verilənlərin analizi, avtomatlaşdırılmış qərarvermə sistemləri və qabaqlayıcı iqtisadi idarəetmə modellərinin yaradılması məqsədilə superkompüter infrastrukturlarının qurulması nəzərdə tutulur. Eyni zamanda, iqtisadi planlaşdırma və statistika sahəsində superkompüterlərin tətbiqi proqnoz modellərinin dəqiqliyini əhəmiyyətli dərəcədə artırır. Məsələn, əhali artımı, işsizlik səviyyəsi, regionlar üzrə inkişaf tendensiyaları və istehlak göstəriciləri üzrə məlumatlar təhlil edilərək, regionlara və sahələrə uyğun iqtisadi təşviq mexanizmləri hazırlanır. Azərbaycanın qeyri-neft sektorunun inkişafı baxımından xüsusilə kənd təsərrüfatı, sənaye və logistika sahələrində süni intellekt və superkompüter imkanlarından istifadə gələcəkdə rəqabətqabiliyyətli və yüksək məhsuldar iqtisadi sistemin qurulmasında mühüm rol oynayacaq. Bu texnologiyalar həm də "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin əsas texnoloji dayaqlarından biri kimi çıxış edir.

Azərbaycan dövləti bu zərurətləri nəzərə alaraq yaxın vaxtlarda superkompüter texnologiyalarının ölkəyə gətirilməsi və istifadəyə verilməsi istiqamətində mühüm addımlar atır. Cari ildə istifadəyə verilməsi nəzərdə tutulan superkompüter mərkəzi bu sahədə çalışan alimlərə, startaplara, dövlət və özəl qurumlara geniş imkanlar təqdim edəcək.

Superkompüterlər Azərbaycanın rəqəmsal gələcəyinin formalaşmasında, süni intellekt texnologiyalarının dayanıqlı şəkildə inkişaf etdirilməsində və müxtəlif sahələrdə generasiya olunan böyük verilənlərin səmərəli şəkildə emal edilməsində əsas dayaqlardan birinə çevriləcək. Superkompüterlər Azərbaycanın rəqəmsal gələcəyinin formalaşmasında mühüm rol oynayacaq. Bu texnologiyalar, ölkənin süni intellekt sahəsindəki inkişafını dəstəkləyərək, müxtəlif sahələrdə generasiya olunan böyük verilənlərin emalını daha səmərəli və sürətli şəkildə həyata keçirməyə imkan verəcək. Superkompüterlər həmçinin Azərbaycana dünya miqyasında rəqəmsal iqtisadiyyatda mövqeyini gücləndirməyə kömək edəcək, bu texnologiyaların tətbiqi isə Azərbaycanın texnoloji və iqtisadi inkişafına təkan verəcək.

Superkompüterlərin istifadəyə verilməsi, bir tərəfdən Azərbaycanın innovasiya və texnoloji inkişafına töhfə verəcək, digər tərəfdən isə ölkənin güclü rəqəmsal infrastrukturunun qurulmasına şərait yaradacaq. Bu addım həm də Azərbaycanı beynəlxalq səviyyədə qabaqcıl texnoloji ölkələrdən birinə çevirmək məqsədini güdür. Superkompüter mərkəzinin istifadəyə verilməsi, xüsusilə böyük verilənlərin təhlili, süni intellekt və maşın təlimi sahələrindəki tədqiqatların sürətləndirilməsinə imkan verəcək. Bu, həmçinin ölkə daxilində təhsil və tədqiqat sahəsindəki əməkdaşlığı artıracaq və milli sərvətlərin səmərəli idarə edilməsi üçün vacib bir texnoloji alət olacaq. Dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, startapların innovativ həllərinin inkişafı və yeni iş yerlərinin yaradılması da bu addımların bir hissəsi olacaq. Dövlətin bu sahəyə böyük diqqət ayırması, Azərbaycanın informasiya və rəqəmsal texnologiyalar sahəsində beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmaq və uzunmüddətli davamlı inkişaf üçün mükəmməl əsaslar yaratmaq məqsədini güdür. Superkompüter mərkəzinin fəaliyyəti həmçinin ölkənin texnoloji müstəqilliyini artıraraq xarici texnologiyalardan asılılığı minimuma endirəcək. Bu, həm də Azərbaycanın qlobal rəqəmsal iqtisadiyyatda öz mövqeyini möhkəmləndirməsinə töhfə verəcək.

**– Azərbaycanda elektron xidmətlərin göstərilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Bu uğurları davam etdirmək baxımından superkompüterlər hansı potensiala malikdir?**



– Bəli, son illər Azərbaycanda dövlət xidmətlərinin elektronlaşdırılması istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur. "Elektron hökumət" platforması, "ASAN xidmət" modeli, vergi sistemi, ədliyyə, təhsil və digər sahələrdə təqdim edilən elektron xidmətlər vətəndaşlara operativ, şəffaf və rahat xidmət imkanı yaradır. Bütün bu xidmətlərin arxasında güclü texnoloji infrastruktur dayanır və gələcəkdə bu infrastrukturun mərkəzində superkompüterlər dayanacaq. Elektron xidmətlərin fasiləsiz, sürətli və təhlükəsiz fəaliyyət göstərməsi üçün məlumatların böyük həcmdə emalı, saxlanması və paylaşılması zəruridir. Bu isə sadə server sistemlərindən daha artıq hesablama gücü tələb edir. Superkompüterlər məhz bu ehtiyacları ödəyən güclü texnoloji vasitələrdir.

Bulud əsaslı xidmətlər, yəni müxtəlif elektron platformalar üzərindən vətəndaşa təqdim edilən xidmətlər hər gün milyonlarla sorğunu eyni anda qəbul edir, emal edir və cavablandırır. Bu miqyasda yüklənmənin effektiv idarə olunması, verilənlərin real vaxtda təhlili və xidmətin gecikməsiz çatdırılması üçün superkompüterlər əvəzsizdir. Məsələn, "myGov", "E-sosial", "E-hökumət" portalı kimi platformalarda istifadəçilərin daxil etdiyi şəxsi və hüquqi məlumatların təhlükəsiz saxlanması və sürətli emalı superkompüterlərin hesablama gücü ilə daha da effektiv təmin edilə bilər.

Bundan əlavə, bu texnologiyalarla dövlət qurumları arasında məlumat mübadiləsi optimallaşdırılacaq, qərarvermə prosesi avtomatlaşdırılaraq daha çevik və dəqiq olacaq. Süni intellekt texnologiyalarının elektron xidmətlərə inteqrasiyası isə bu sahədə yeni mərhələnin başlanğıcıdır. Superkompüterlər sayəsində elektron platformalar üzərində çalışan süni intellekt sistemləri istifadəçilərin müraciət tarixçəsinə əsasən onların ehtiyaclarını əvvəlcədən təxmin edə, xidmətləri fərdiləşdirə və müraciətləri daha sürətli cavablandıra biləcək. Eyni zamanda, dövlət səviyyəsində kibertəhlükəsizlik sahəsində də superkompüterlərin rolu böyük olacaq. Böyük verilənlər içində potensial risklərin vaxtında aşkarlanması, təhdidlərin proqnozlaşdırılması və qabaqlayıcı tədbirlərin görülməsi bu texnologiyalarla mümkün olacaq.

Beləliklə, superkompüterlər Azərbaycanın rəqəmsal dövlət arxitekturasında yeni mərhələyə keçidi təmin edəcək, elektron xidmətlərin səmərəliliyini artırmaqla yanaşı, onların daha çevik, təhlükəsiz və vətəndaş yönümlü şəkildə inkişafına zəmin yaradacaq.

**– Azərbaycanın kibertəhlükəsizliyinin təmin edilməsində superkompüterlərin imkanlarından necə istifadə edilə bilər?**

– Superkompüterlər məlumatların ölkə daxilində saxlanmasını və idarə olunmasını təmin etməklə, Azərbaycanın informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyi baxımından üstün mövqeyini gücləndirir. Xarici bulud platformalarından asılılığın azaldılması və verilənlərin tam nəzarət altında olması dövlətin informasiya müstəqilliyini təmin edir. Bu texnologiyalar, ölkənin daxili məlumatlarının xarici serverlərdə saxlanması ilə bağlı yaranan riskləri aradan qaldırır və xarici bulud xidmətlərindən asılılığı azaldır. Bu, həmçinin ölkənin kibertəhlükəsizlik və verilənlərin qorunması sahəsində daha sərbəst və etibarlı mühit yaradır. Superkompüterlər, verilənlərin saxlanması və emalının ölkə daxilində həyata keçirilməsini mümkün edərək, informasiya suverenliyini qoruyur və ölkənin milli təhlükəsizliyinə xidmət edir.

Azərbaycanda son illərdə elektron hökumət sistemlərinin inkişafı, dövlət reyestrlərinin rəqəmsallaşdırılması, rəqəmsal arxivlərin yaradılması və vətəndaş xidmətlərinin onlayn formada təqdim edilməsi sahəsində böyük addımlar atılmışdır. Bu proseslər nəticəsində hər gün böyük həcmdə məlumat toplanır. Təkcə dövlət idarəetmə sistemlərində deyil, həmçinin təhsil, səhiyyə, iqtisadiyyat və digər sahələrdə də elektron məlumatlar daha çox artmaqdadır. Bu məlumatlar yalnız fiziki serverlərdə deyil, həm də uzaq məsafəli məlumat mərkəzlərində və bulud sistemlərində saxlanılır. Superkompüterlər yüksək hesablama gücünə malik olduqları üçün böyük həcmdə verilənlərin düzgün və təhlükəsiz şəkildə saxlanmasını təmin edir. Onlar verilənlərin sıxlığını idarə etmə və məlumat bazalarını fasiləsiz şəkildə yeniləmə xüsusiyyətlərinə malikdir ki, bu da məlumatların qorunmasına və təmizlənməsinə yardım edir. Eyni zamanda, dövlət xidmətlərinin daha sürətli və effektiv təklif edilməsi üçün superkompüterlərin tətbiqi, həm dövlət orqanlarının, həm də vətəndaşların faydalana biləcəyi geniş imkanlar yaradır. Superkompüterlər, verilənlərin böyük həcmli məlumat bazalarına inteqrasiyası zamanı qarşılaşan çətinlikləri həll etməkdə mühüm rol oynayır.

**– Bəs Azərbaycanda kibersuverenliyin təmin edilməsində superkompüterlər hansı imkanlara malikdir?**

– Azərbaycanın dövlət informasiya resursları yalnız böyük həcmli deyil, həm də struktur etibarilə mürəkkəb verilənlərdən ibarətdir. Bu verilənlər müxtəlif formatlarda olur: mətn, şəkil, video, sənədlər, statistik məlumatlar və sair. Bu cür verilərin arxivləşdirilməsi, indeksləşdirilməsi və avtomatik təsnifatı yalnız ən müasir və güclü hesablama sistemləri vasitəsilə mümkün olur. Superkompüterlər məlumatları analiz etmək, mühüm məlumatları üzə çıxarmaq və avtomatik təsnifat funksiyalarını yerinə yetirərək bu mürəkkəb əməliyyatları sürətləndirməkdə və dəqiqləşdirməkdə vacib rol oynayır. Superkompüterlər, yalnız böyük verilənləri deyil, həm də həddindən artıq mürəkkəb məlumatları paralel şəkildə emal edərək və sistemi optimallaşdıraraq, məlumatların təhlilinə daha yüksək dəqiqliklə yanaşır. Bu, xüsusilə, dövlətin müxtəlif sahələrində qarşıya çıxan analitik tapşırıqları sürətlə və dəqiqliklə həll etməyə imkan verir.

Hazırda Azərbaycanda Milli Elektron Arxiv və digər rəqəmsal infrastrukturun yaradılması planlaşdırılır. Bu cür rəqəmsal arxivlər və məlumat bazaları yalnız geniş miqyasda verilənləri saxlamalı deyil, həm də gələcəkdə verilənlərə asan çıxış və analitik təhlillər üçün istifadə edilə biləcək sistemlərə çevrilməlidir. Bu məqsədlə superkompüterlər yüksək tutumlu yaddaş sistemləri ilə təmin edilərək verilənlərin arxivləşdirilməsi, yadda saxlanması və gələcəkdə istifadəyə verilməsi proseslərini həyata keçirir. Milli Elektron Arxiv sistemində verilənlərin qorunması, həmçinin qeydə alınması və saxlanması məsələləri yalnız bu texnologiyaların köməyi ilə təmin oluna bilər. Superkompüterlər, milli arxivlərin uzunmüddətli və təhlükəsiz saxlanması üçün ən yüksək səviyyədə yaddaş və hesablama tutumuna malik olmalıdır. Onlar həmçinin verilənlərə real vaxtda daxil olmaq, indekslərini yeniləmək və yenilənmiş məlumatların sistematik olaraq inteqrasiyasını təmin etmək kimi funksiyaları yerinə yetirə bilir.

Azərbaycanda verilənlərin ölkə daxilində saxlanması böyük əhəmiyyət kəsb edir. Superkompüterlər, Azərbaycanın informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində milli suverenliyi qorumağa imkan yaradır. Bu texnologiyalar, ölkənin daxili məlumatlarının xarici serverlərdə saxlanması ilə bağlı yaranan riskləri aradan qaldırır və xarici bulud xidmətlərindən asılılığı azaldır. Həmçinin ölkənin kibertəhlükəsizlik və verilənlərin qorunması sahəsində daha sərbəst və etibarlı mühit formalaşdırır. Superkompüterlər, məlumatların saxlanması və emalının yerli şəkildə həyata keçirilməsini mümkün edərək, informasiya suverenliyini qoruyur və ölkənin milli təhlükəsizliyinə xidmət edir.

Beləliklə, superkompüterlər Azərbaycanın rəqəmsal gələcəyinin formalaşmasında mühüm rol oynayacaq. Bu texnologiyalar, ölkənin süni intellekt sahəsindəki inkişafını dəstəkləyərək, müxtəlif sahələrdə generasiya olunan böyük verilərin emalını daha səmərəli və sürətli şəkildə həyata keçirməyə imkan verəcək. Superkompüterlər, həmçinin Azərbaycana dünya miqyasında rəqəmsal iqtisadiyyatda mövqeyini gücləndirməyə kömək edəcək, bu texnologiyaların tətbiqi isə Azərbaycanın texnoloji və iqtisadi inkişafına təkan verəcək.

*Müsahibəni qələmə aldı:*
***Fidan SALMANOVA***
***XQ***

# “Gələcəyin səmasında Azərbaycan imzası”



**Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatı və “EMEDIA GROUP” Media Təşkilatının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə və anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Gələcəyin səmasında Azərbaycan imzası” tədbiri keçirilib. Tədbirdə Azərbaycan Texniki Universitetinin tələbələri tərəfindən hazırlanmış “M.AERO H10” adlı innovativ dron layihəsinin təqdimatı olub.**

Dronun əsas texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, tam avtoritar rejimdə fəaliyyət göstərə bilən dron kəşfiyyat təyinatlı kamera sistemi, kamikadze funksiyası, yüksək manevr qabiliyyəti və amortizatorlu təkərlərə malikdir. Dronun bütün proqram təminatı - süni intellektdən idarəetməyə qədər – tələbələrin öz intellekt məhsuludur.



Qeyd olunub ki, layihə Ulu öndərin gənclərə olan diqqət və qayğısının, onun uzaqgörən siyasətinin bariz nəticəsidir. “H10” adının “Heydər Əliyev 10” kimi seçilməsi də təsadüfi deyil – bu, tələbələrin Ulu öndərə olan dərin sevgi və ehtiramının rəmzidir.

YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev keçirilən tədbiri gənclərə olan inam və etimadın təzahürü adlandırıb. “EMEDIA GROUP” Media Təşkilatının sədri Elşən Əliyev qeyd edib ki, tədbirin əsas məqsədi ulu öndər Heydər Əliyevin gənclərə aşıladığı dövlətçilik ideyalarının və texnoloji inkişafa yönəlmiş siyasətinin real nəticələrini nümayiş etdirməkdir.

Sonra layihədə əməyi keçən komanda üzvləri səhnəyə dəvət olunaraq ictimaiyyətə təqdim ediliblər: Layihə rəhbəri Rəşvin Şirəlizadə, mühəndis Anar Məmmədov, mexanik Adil Orucov, elektrik və elektronika mütəxəssisi İsmayıl Rəhimli, proqramçı Elmir Nəbiyev.

Bildirilib ki, müasir texnologiyaların tətbiqinin gətirdiyi üstünlükləri nəzərə alaraq iki ay əvvəl layihənin icrasına başlanılıb. Hazırladıqları dron haqqında danışan gənclər qeyd ediblər ki, kameraya xüsusi yazılmış proqramlar sayəsində çəkilişlər daha dəqiq və funksional şəkildə həyata keçirilir. Havadakı sabitliyi və uçuş dəqiqliyi özəl alqoritmlərlə tənzimlənir. Hərəkətləri zərif, amma qətiyyətlidir.

Sonda komanda üzvləri Fəxri fərmanlarla təltif olunublar.

*XQ*

# Hindistan niyə “dünya fabriki” ola bilmədi?

**Qlobal şirkətlər Çində istehsalı azaltmağa başlayanda, Hindistan vakant yeri doldurmağa hazır olduğunu ilk bəyan edənlərdən biri oldu. Yeni Delhi özünü növbəti qlobal istehsal mərkəzi kimi tanıtmağa can atdı. Lakin bu proses başlayandan illər sonra Hindistanın yeni “dünyanın fabriki” ola bilməyəcəyi məlum oldu. Bəs səbəblər nə idi? 2020-ci ildən başlayan ABŞ–Çin rəqabətinin artması və qlobal təchizat zəncirlərindəki fasilələr fonunda qlobal istehsalçılar aktivlərini aktiv şəkildə diversifikasiya etməyə başlayıblar. Vyetnam, Tayland və Malayziya kimi Cənub–Şərqi Asiya ölkələri yeni cazibə nöqtələrinə çevrilib. Ancaq Hindistan böyük bazarına, demoqrafik üstünlüyünə və “Hindistanda istehsal et” kimi siyasi şüarlarına baxmayaraq, investorların etibarını qazana bilmədi.**

Bəs uğursuzluğun əsas səbəbləri nədən ibarətdir? Mütəxəssislər ilk növbədə Hindistanda institusional çətinliklərin olduğunu vurğulayırlar. Bir çox beynəlxalq şirkət “fillər ölkəsində” qeyri-şəffaf və çaşdırıcı tənzimləmə sistemi ilə üzləşir. Torpaq xərclərinin yüksək olması, mürəkkəb lisenziyalaşdırma prosedurları, güclü bürokratiya, işçilərin işə götürülməsi və işdən çıxarılmasında çətinliklər real ciddi maneələrə çevrilib. Hindistanın Maliyyə komissiyasının sədri Arvind Panagariya bununla bağlı “Vaşinqton Post” qəzetinə deyib ki, hindlilər torpağı inanılmaz dərəcədə bahalaşdırıblar və əcnəbi iş adamlarının yerli vətəndaşlarla əmək müqaviləsini imzalama prosesini inanılmaz dərəcədə çətinləşdiriblər.



Səbəblər arasında infrastrukturun olmaması və ardıcıl olmayan siyasəti də göstərirlər. Məsələ ondadır ki, Hindistanda infrastruktura aqressiv investisiya qoyulmasına baxmayaraq, Yeni Delhi hələ də Cənub-Şərqi Asiyadakı ölkələrdən geri qalır. Məsələn, Vyetnam daha proqnozlaşdırıla bilən və mərkəzləşdirilmiş siyasət, uzunmüddətli planlaşdırma və müxtəlif hökumət səviyyələri arasında effektiv koordinasiya təklif edir. Hindistan və Vyetnamda çalışan əcnəbi iş adamlarından biri bununla bağlı deyir: “Hindistanda demokratiya və qeyri-mərkəzləşdirilmiş idarəetmə uyğunsuzluğa gətirib çıxarır. Bu, şirkətlərin axtardıqlarının tam əksidir”.

Eyni zamanda, 2020-ci ildə Çinlə gərginliyin artmasından sonra Hindistan Pekin investisiyalarına ciddi məhdudiyyətlər qoyub. Bu, qlobal şirkətlər, xüsusən də Çin tərəfdaşlığına ümid edən şirkətlər arasında ehtiyatlılığı artırıb. Nəticədə, əsas istehsalçılar istehsalı Pekinlə mürəkkəb də olsa, iqtisadi əlaqələrin mövcud olduğu Vyetnama köçürməyi seçdilər. Məsələn, “Vaşinqton Post” qəzeti yazır ki, Tayvanın bir neçə yarımkeçirici şirkəti Hindistandakı istehsal sahələrinə baş çəkib, lakin son nəticədə əməkdaşlıq etməkdən boyun qaçırıb. “Samsung” hələ 2018-ci ildə Hindistanın Asiyada ən böyük zavodunun vətəni olacağını bildirsə, şirkət sərmayəni daha çox Vyetnama yatırır. Maraqlıdır ki, Vyetnamın elektronika sənayesi hazırda 126 milyard dollar dəyərindədir ki, bu da Hindistanın elektronika sənayesinin dəyərindən üç dəfə çoxdur.

Hətta risk etmək qərarına gələn şirkətlər də tez-tez gözlənilməz problemlərlə qarşılaşırdılar. Məsələn, “Nippon Steel” gömrük xidməti vacib məhsulları bloklадıqdan sonra itkilərə məruz qalır. Hindistandakı Yaponiya Ticarət Palatasının baş katibi Kenji Suqinonun sözlərinə görə, Yeni Delhi ilə bağlı sorğu göndərən hər 10 yapon şirkətindən yalnız biri “nağıllar ölkəsi” ilə əməkdaşlıq etmək qərarına gəlir.

“General Motors” işçi qüvvəsini saxlamaq tələblərinə görə dörd ildir ki, Hindistandakı zavodunu sata bilmir. “Apple” oxşar problemlərlə üzləşir, məhsullarının yalnız 15 faizi Hindistanda istehsal olunur. Halbuki ABŞ nəhəngi bu göstərici 25 faiz səviyyəsinə yüksəltməyi planlaşdırırdı.

Digər səbəblərdən biri də odur ki, Hindistan hər il milyonlarla yeni işçi qəbul edə bilən istehsal sektorunu inkişaf etdirə bilmədi. Hər il təxminən 14 milyon insan əmək bazarına daxil olur, lakin ölkədə xüsusilə sənayedə kifayət qədər iş yeri yaradılmır.

Bütün bunların fonunda Hindistan hökuməti xarici şirkətləri cəlb etməyin yeni yollarını, o cümlədən komponentlərin istehsalı üçün subsidiyaları nəzərdən keçirir. Ən əsası, Yeni Delhi ümid edirdi ki, Tramp administrasiyası Hindistan ilə tarifləri aşağı salacaq və ölkədə istehsalı daha cəlbedici edəcək ticarət sazişi bağlayacaq. Lakin mayın 13-də məlum oldu ki, Hindistan ABŞ-yə 29 adda məhsulun ixracına rüsum tətbiq etmək qərarına gəlib. Yeni Delhi bu addımı Vaşinqtonun polad və alüminium tədarükünə tətbiq etdiyi tarifləri artırmasına cavab olaraq atıb. Bu isə o deməkdir ki, Modi hökuməti ABŞ ilə planlaşdırdığı sərfəli ticarət sazişini imzalaya bilməyəcək. Xatırladaq ki, ABŞ martın 12-dən Hindistandan polad və alüminium ixracına 25 faiz rüsum tətbiq edib.

Bir sözlə, Hindistanın ambisiyaları ilə real imkanları üst-üstə düşmür. Ölkə daxili problemlərini həll etməyincədək, Pakistan və Çin ilə münasibətlərini normallaşdırmayanadək, Vyetnam kimi daha sabit, proqnozlaşdırıla bilən və çevik rəqiblərə uduzaraq, “dünya fabriki” adı uğrunda əbədi iddiaçı olaraq qalacaq.

*Səbuhi MƏMMƏDOV,*
*XQ*

## SOSİAL XƏBƏRLƏR

### Həssas qrupların mənzillə təminatı tədbirləri davam edəcək



**Prezident İlham Əliyev “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” 2021-ci il 25 yanvar tarixli sənəddə dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**

Yeni sənədlə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov açıqlamasında bildirdi:

– Dəyişiklik 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün sərəncamda qeyd edilən 2021–2025-ci illər dövrü 2021–2030-cu illər olaraq müəyyən edilib. Yəni həssas qrupların mənzillə təminatında bu il son deyil və bu istiqamətdə işlər daha 5 il davam edəcək.

Gələn ildən etibarən, hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) bununla bağlı vəsait də nəzərdə tutulacaq. Mühüm sosial proqramlardan biri olan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra 5 dəfə genişlənib.

Onlara nazirlik tərəfindən postmüharibə dövründə 6 min 800, ümumən ötən dövrdə 16 min mənzil və fərdi ev təqdim edilib. Bu il isə daha 1000 mənzil verilməsi nəzərdə tutulub. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilən mənzillər həm paytaxtda, həm də bölgələrimizdə inşa edilən evlərdən olacaq.

### Ankarada əməyin mühafizəsi üzrə təlim




**Türkiyənin Əmək və Sosial Təminat Təlim və Tədqiqat Mərkəzi (ÇASGEM) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Əmək Müfəttişliyi Xidmətinin və Əməyin Mühafizəsi Mərkəzinin əməkdaşları üçün təlim təşkil edib.**

İki ölkənin nazirlikləri arasında icra edilən tədbirlər planına əsasən, təşkil olunan təlimlər əməyin mühafizəsi üzrə fəaliyyət göstərən mütəxəssislər üçün nəzərdə tutulub. Təlimlər ÇASGEM-in beynəlxalq sertifikatlı təlimçiləri tərəfindən keçirilib və “Fiziki risk amilləri”, “Kimyəvi risk amilləri”, “Erqonomika”, “Psixososial risk amilləri” və “Riskin idarə edilməsi və dəyərləndirilməsi” mövzularını əhatə edib.

### 4 ayda 17 mindən çox əlillik təyin olunub




**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2025-ci ilin yanvar–aprel ayları ərzində 17 min 100 şəxsə əlillik təyin edilib.**

Onlardan 7 min 300 nəfərə ilkin, 9 min 800 şəxsə isə təkrar əlillik təyinatı aparılıb. Əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilib. Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilib.

### Bu il 148,9 min şəxs məşğulluq tədbirlərinə cəlb edilib




**Dövlət Məşğulluq Agentliyi bu ilin yanvar–aprel aylarında 148 min 881 şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 44 min 100-ü münasib işlərlə təmin olunub, 5 min 400 şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

Qeyd olunan dövrdə agentlik tərəfindən 2 min 800 işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil olunub, 96 min 600 nəfərə isə peşəyönümlü xidmətlər göstərilib.

### Müfəttişlik işəgötürənlərə müraciət edib




**Dövlət Əmək Müfəttişliyi Xidməti əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi ilə bağlı işəgötürənlərə müraciət edib.**

“Əmək və məşğulluq” altsistemi üzərindən aparılan nəzarət zamanı bəzi işəgötürənlərin qüvvədə olan əmək müqavilələrini hələ də elektron sənəd formasına keçirmədiyi müşahidə olunub.

Əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi qanunvericiliyin tələbidir. Bu tələbin vaxtında və düzgün icrası, əmək qanunvericiliyinə riayət olunması, əmək münasibətlərində şəffaflığın təmin edilməsi və işçilərin hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bir daha işəgötürənlərin diqqətinə çatdırılıb ki, Nazirlər Kabinetinin qərarına əsasən, əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi mərhələlərinin son müddəti: Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər olan işəgötürənlər üçün 2025-ci il 1 yanvaradək (bu mərhələ üzrə müddət artıq bitib), iri, orta, kiçik və mikro sahibkarlıq subyekti olan, habelə sahibkarlıq subyekti olmayan işəgötürənlər üçün 2025-ci il 1 iyuladək, ailə kəndli təsərrüfatları və ailə müəssisələrinin işəgötürənləri üçün 2026-cı il 1 yanvaradək müəyyən edilib.

*Z.HÜSEYNOVA*
*XQ*

FİKRƏT QOCA – 90



# Gözəl şair, kamil ziyalı

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Qocanın anadan olmasının 90 illiyi haqqında sərəncam imzalayıb. Ötən əsrin 60-cı illərində Azərbaycan poeziyasına yeni ovqat gətirmiş novator şair kimi tanınan Fikrət Qoca yaradıcılığında milli şeir ənənələrinə və dünya bədii fikrinin nailiyyətlərinə söykənən söz ustalarındandır.**

Şairin həyat və zaman haqqında lirik-fəlsəfi ümumiləşdirmələrlə zəngin yaradıcılığında müasir insanın mənəvi-əxlaqi kamillik axtarışları özünün dolğun poetik əksini tapmışdır. Ədəbi fəaliyyəti boyunca yüksək ictimai amala sadiq qalan Fikrət Qoca doğma xalqının azadlıq ideallarının tərənnümünü daim diqqətdə saxlamış, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işinə öz töhfəsini vermişdir.

...43 il öncə – 1982-ci ildə Dövlət mükafatına təqdim olunan Fikrət Qoca ilə Sumqayıtdakı Kimya Sənayesi İstehsalat Birliyində görüş keçirilirdi. Universitetin jurnalistika fakültəsinin tələbəsi və çoxtirajlı "Kimyaçı" qəzetinin əməkdaşı kimi mənim də həmin görüşdə çıxışım nəzərdə tutulurdu. Növbəm çatanda həyəcanla çıxışıma başladım. Fikrət Qocanın, onunla birlikdə görüşə gəlmiş ünlü söz sahibləri Salam Qədirzadə, İshaq İbrahimov, Pənah Xəlilov, Vaqif İbrahim və başqalarının diqqətlə qulaq asdıqlarını görəndə bir qədər arxayınladım və "Babalarım" şeirini də əzbər söylədim:

*Biri qoçaq olub, mərd olub,*
*Biri qaçaq olub, mərd olub,*
*Bəs bu namərdlər hardandı?*
*Bax bu, mənə dərd olub.*

Sonra çay süfrəsi arxasında professor Pənah Xəlilov məni göstərərək: "Bu cavan oğlanın çıxışını çox bəyəndim", – deyəndə Fikrət Qoca da başı ilə təsdiqlədi (Doğrudur, həmin il Fikrət Qoca Dövlət mükafatı almadı, amma bir neçə il sonra bu şərəfə layiq görüldü). Təqdim edilən bu kollektiv şəkil isə həmin görüşün yadigarıdır.

Xalq şairi Rəsul Rza onun haqqında deyib: "Fikrət Qocanın şeirlərində məni sevindirən qüvvətli yenilik hissidir. Onun şeirlərində mədəni bir şairin, ürəyi sözlə dolu bir insanın nəyə isə məhəbbət, nəyə isə nifrət aşılamaq istəyən bir şairin səsini eşidirik".



Onunla eyni ad-soyadlı, həm də ağdaşlı olan bir şair də vardı, bəzən oxucular qarışıq salırdılar. Buna görə də Fikrət müəllim soyadından rus "yev"ini ixtisara salmalı olub. "Sabir poeziya günləri"ni ilk dəfə təşkil edən Rəsul Rza onu səhnəyə çağırıb: "Sözü verirəm Fikrət Qocaya". Zalda əyləşənlər gülüşüblər. Onda Rəsul Rza cavab olaraq deyib ki, baxmayın, familiyası Qocadır, özü cavandır. Elə şairin yaşı üstünə yaş gəlsə də, həmişə ruhu cavan, təbi rəvan qalıb.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar onu sağlığında belə xarakterizə edib: "Fikrət Qoca küləyin, yarpağın, suyun nəğməsini dilimizin ən zərif, ən həzin sözləriylə ifadə etməyi bacaran şairdir". Şairin vəfatından sonra isə deyib: "Fikrət Qoca mənim xatirimdə işıqlı insan, ən sadiq dost, ən gözəl şair, ən şərəfli ziyalı kimi qalacaq".

Fikrət Qoca insani duyğuları özünəməxsus sadə bir dillə ifadə etməyin ustası idi. Onun söylədiyi həqiqətlər öz poetik donunda gözəl görünürdü.

*Dünyanın ən ağır yolu gecədir,*
*Dünyanın ən böyük sevinci səhər.*
*Mənim çətinliyim mən ölüncədir,*
*Sonrası... sonrası hər şey düzələr.*

Şairin sevgi şeirləri də səmimiliyi, saflığı, fədakar ruhu ilə seçilir:

*Əgər çatılsaydı qaşın kamanı,*
*Kainat xətrinə dəysəydi əgər.*
*Elə silkələrdim mən asimanı*
*Ulduzlar tut kimi tökülərdilər.*

Fikrət Qocanın əsərləri neçə-neçə xarici dilə tərcümə olunub. 500-dən çox şeirinə musiqi bəstələnib. "Anacan, dostum evlənir", "Könlüm", "Günay", "Gəl, ey səhər", "Çiçək tapa bilmədim", "Gecə yaman uzundur", "Payız gəldi" və s. təravətini itirməyib, bu gün də müğənnilərin repertuarını bəzəyir, sevilə-sevilə dinlənilir.

Uzun illər AYB-nin I katibi olmuş Xalq şairi Fikrət Qoca 2021-ci il mayın 5-də 85 yaşında vəfat edib və I Fəxri xiyabanda dəfn olunub. "Şairlər ölmür, qara qələm kimi yazılıb qurtarır" – deyən Fikrət Qoca haqqında qeydlərimə yenə də onun özünün misraları ilə nöqtə qoyuram:

***Ölüm də, olum da, bunlar bir yana,***
***Bu adi qanunu mən də danmıram.***
***Şair nəğmə kimi gəlir cahana,***
***Nəğmə ölümünə mən inanmıram...***

***Əli NƏCƏFXANLI***
***XQ***

Polemik söhbət

**Yeni əsrdə informasiya texnologiyalarında baş verən sürətli dəyişikliklər dünyada sosial, iqtisadi və mədəni sahələri də əhatə etməsi ilə diqqət çəkir. Bu qaçılmaz texnoloji mənzərələr mədəniyyət sferasından kənarda çox solğun görünərdi. Buna görə də hazırda inkişaf etmiş və edən ölkələrdə mədəni mirasın müasir texnoloji-kiber vasitələrin köməyi ilə qorunması və gələcək nəsillərə etibarlı çatdırılması zərurətinə ciddi önəm verilir.**



# Mədəniyyətin rəqəmsal transformasiyası: Nə qədər hazırıq?

Bəs Avropa və Asiyanın qovuşuğunda yerləşən, minillikləri əhatə edən zəngin tarixi və mədəni irsi olan Azərbaycanda bu sahədə vəziyyət necədir? Doğrudur, idarəetmədə, iqtisadiyyatda, ekologiyada – "yaşıl" ətraf mühit yaradıcılığında, onlayn-distant təhsildə böyük uğurlar qazanılır. "Ağıllı" texnologiyalar, robot texnikaları və s. bacarıqla tətbiq olunur. Amma hələlik nağıl və dastanlarımız, digər folklor nümunələrimiz, xalq və klassik musiqimiz, teatr və kinomuz sənayeləşmə dalğalarında etibarlı təkamül mərhələsindən, radikal dəyişikliklərdən uzaqdır. Mədəniyyət sahələrində elektron platformalar, resurslar yox dərəcəsindədir. Bu vacib transformasiya, yumşaq desək, ləngiyir.

Bir zamanlar səhnə və ekran milli mədəniyyətimizin yeganə aynası idi. Orada xalq özünü tanıyır, ağlayır, gülür, dərdini və arzusunu ifadə edirdi. Amma bu gün o ayna, sanki, dəyişən dünyanın ritmini tutmaqda çətinlik çəkir. Yeni yanaşmalar gərəkdir. Mirzə Ələkbər Sabirin sözü olmasın, "Əcnəbi göydə balonlarda gəzir, biz hələ..."

Milli mədəniyyətin virtual mühitdə ifadəsinin çox az gözə çarpması düşündürücüdür. Niyə də qədim əlyazmalar, musiqi nümunələri, teatr tamaşaları və sənət əsərləri rəqəmsallaşdırılmasın, ya da müasir, keyfiyyətli formatda təqdim edilməsin? Uzağa getməyək, YouTube, Spotify, Netflix kimi platformalara baxaq: Azərbaycan mədəniyyətinə dair kontentlər çox zəif yüklənib, cüzi saydadır. Əsryarımlıq yaşı olan milli teatrımızın hamamı da, tası da çoxdankı deyilmi? Kökə bağlılıq, ənənəyə sadiqlik yaxşı haldır, amma sabaha da boylanmaq lazımdır, axı. Hanı yeni dramaturgiya, repertuar, çağdaş canlanma? 44 günlük Vətən müharibəsində Böyük Zəfərdən sonra sərhədlərimizdən o üzə aşa bilən sənədli dram janrında pyeslər yoxdur, immersiv (psixoloji ruhi hissi axın da demək olar) tamaşalar azdır. Kinomuzda müstəqil çəkilən, bir növ məhdud auditoriya üçün nəzərdə tutulan filmlər – "art-haus"lar varmı? Sonra da gileylənirik ki, dəbdəbəli premyeraları saymasaq, teatra, kinoya gedən yoxdur, tamaşaçı sayı azdır... Bəlkə də gənc yazarların, rejissorların önə çıxması üçün sistemli təşviqi gücləndirmək lazımdır.

Yeri gəlmişkən, inişil ölkəmizdə ədəbiyyat, teatr, kino forumları keçirilib, işgüzar müzakirələr aparılıb. Təkliflərin, təşəbbüslərin ümumiləşdirilərək "Azərbaycan mədəniyyəti – 2040" strateji Dövlət Proqramında əksini tapacağı bildirilib. Müsbət nəticələrin olacağına ümid edirik.

Bir məsələ də var ki, müasir texnologiyalara təqdiredici meyil göstərən gənclərimizin arasında klassik mədəniyyətə maraq azalıb. Çünki muğam, aşıq sənəti, xalq oyunları və s. yeni nəsillər üçün cəlbedici formada təqdim olunmur. Ənənəvi mədəniyyətin çağdaş formalarla (rəqəmsal incəsənət, installasiya, elektron musiqi) sintezi zəifdir. Ən yaxşı səviyyədə olsa belə, incəsənət nümunələri ən müasir, modern texnologiyalara uyğunlaşdırılmalıdır ki, intellektual ictimai maraq kəsb edə bilsin. Mədəniyyət Nazirliyinin alqışalayiq təşəbbüsləri olur – danmaq insafsızlıqdır – amma istifadə edilən köhnə texnologiyalar, konseptual yanaşmanın zəifliyi fonunda bunlar bəzən fraqmental və təsirsiz görünür.

Əlbəttə, demək olmaz ki, bizim milli kinomuz inkişaf etməyib. Kinomuzun təşəkkül tapdığı vaxtdan ötən 127 ildə çoxsaylı gözəl bədii filmlərimiz olub, hətta dünyanı gəzənləri də var. Elə indi də sanballı ekran əsərləri yaranır, bunlardan beynəlxalq festivallarda təqdir olunanları da az deyil. Amma hələ kommersiya və festival uğuru arasında gərəkli balans tapılmayıb, rəqəmsallaşma istənilən səviyyədə deyil. Müstəqil filmlər maliyyə çatışmazlığından əziyyət çəkir. Dövlət sifarişləri üzrə çəkilənlər çox vaxt sənətkarlıq baxımından keyfiyyətsiz olur. Sözsüz ki, gənc yazarların, rejissorların önə çıxması üçün sistemli təşviqi gücləndirmək lazımdır.

Yeri gəlmişkən, 5 ilə yaxın vaxt keçsə də, etiraf edək ki, "Dəmir yumruq" qüdrətini dünya səviyyəsində əks etdirən film çəkilməyib. Doğrudur, dövlət səviyyəsində bununla bağlı lazımi tapşırıqlar verilib, lakin hələ də ortada ciddi iş gözə dəymir. Amma məğlub Ermənistan kinematoqrafçılarının Qarabağ mövzusunda filmləri (hadisələri öz xeyirlərinə təhrif etsələr də) Kann festivalına qədər gedib çıxıb. Görünən budur ki, onlar reklamı daha yaxşı bacarırlar, müasir texnoloji imkanlardan daha səmərəli bəhrələnirlər. Bizsə ermənilərin Qarabağda törətdikləri vəhşiliklərin qanlı izlərini, onların faşist vandalizmini çəksək də, dünyada təbliğ edə bilmirik. Buna bir səbəb beynəlxalq kino gildiyaları ilə əməkdaşlığın zəifliyidirsə, digər səbəb, əlbəttə, elə rəqəmsallaşmanın, elektronlaşmanın da lazımi səviyyədə olmamasıdır.

İstəsək də-istəməsək də, dünya yeni mərhələyə daxil olub. Ayaqlaşmaq üçün, milli-mədəni miraslarımızı "korroziya" və "eroziya"ya məruz qoymamaq üçün rəqəmsal arxivləşdirməni adi normaya çevirməliyik. Çünki bu, sabaha aparan ən etibarlı körpüdür. Yönsüz keçid isə dirçəliş hədəfli, uğur amallı ola bilməz.

***Ə.DOSTƏLİ***
***XQ***

# Türkologiya Turan birliyinin təməl daşıdır

*(əvvəli qəzetin ötən sayında)*



– Bəllidir ki, türklərdə milli kimlik anlayışı tarixən müxtəlif aşamalardan keçir. İlk mərhələ 1072–74-cü ildən etibarən, yəni Mahmud Kaşğarinin "Divan"ından başlayır. Yeni dövrdə isə bunun iki qaynağı vardır. 1883-cü ildə İsmayıl bəy Qaspıralının irəli sürdüyü "Dildə, fikirdə, əməldə birlik" düsturu və 1905-ci ildə Əli bəy Hüseynzadə tərəfindən verilmiş sual: "Türklər kimdir və kimlərdən ibarətdir". Xatırlasaq ki, Kaşğari "Divan"ı türkoloji elmə yalnız 1915-ci ildən sonra bəlli olmuşdur, deməli, etiraf etməliyik ki, 1905-ci ilə qədər məsələnin bu şəkildə əsaslı qoyuluşu və nəzəri izahı olmayıbdır. Hüseynzadə "türklər kimdir?" sualını linqvistik, etnoqrafik, antropoloji, etnoloji, coğrafi, tarixi, ədəbi, eləcə də dinlər tarixi baxımından – şamanizmdən başlayaraq, buddizmə, lamanizmə, maniheizmə, siryanilərin nəsturi əqidəsinə, xristianlığa, islama qədər – ilk dəfə tədqiqata cəlb edirdi. Hüseynzadə türklərin əlifba sisteminə müxtəlif dövrlərdə tapındıqları dinlərin əsaslı təsir göstərdiyini də elmi dəlillərlə şərh edirdi. Bu baxımdan onun Uyğur əlifbası barədə fikirləri xüsusən önəmliydi.

Hüseynzadənin 1905-ci ildə yaratdığı düşüncə dalğası 1920–1925-ci illərdə Ziya Gökalpın "Türk törəsi" və "Türk mədəniyyət tarixi" kitablarında davam etdirildi.

Doğrudur, türk alimləri daha başqa tarixi ünvanları nişan verə bilərlər. Məsələn, Şəmsəddin Saminin "Qamusül alam", Əhməd Vefiq Paşanın "Şəcəreyi-Türki", "Ləhceyi Osmani", Nəcib Asimin uyğur, cığatay, osmanlı dilləri barədə tədqiqlərini xatırlada bilərlər. Yaxud kimsə deyə bilər ki, türk kimliyi humanitar dövriyyəyə XIX yüzildə Osmanlının milli şairləri tərəfindən qatılıb. Bunu əsaslandırmaq üçün Mehmet Emin Yurdaqulun "Türkcə şeirlər" kitabından XX yüzilin əvvəllərində təkcə Azərbaycanda deyil, Türküstan cədidçiləri arasında da kifayət qədər populyar olan "Mən bir türkəm, dinim, cinsim uludur" misraları ilə başlayan "Cəngə gedərkən" şeirini xatırlada bilər. Lakin bunlar ilk təşəbbüslər idi, modern çalışmalara bir vəsilə idi.

***– Azər müəllim, deyə bilərikmi ki, Əli bəy Hüseynzadəyə qədər "Türk kimdir?" sualı tam cavablandırılmamışdı?***

– Əlbəttə. Fikrimi bir az da aydınlaşdırım. Tutaq ki, Mehmet Emin "Mən bir türkəm" deyir. Ancaq o illərdə. Hüseynzadə deyirdi ki, içimizdə özbəklərin, qırğızların, başqırdların türk olduqlarını bilməyənlərlə yanaşı, türklükləri ilə iftixar etdikləri halda, türkün kim olduğunu bilməyənlər də çoxdur. Əli bəy Hüseynzadənin tarixçiliyi müasir olduğu qədər də elmi, həm də türkşünaslıq terminolojisinə rəvac verərək yaranan tarixşünaslıq idi. Onun "Türk kimdir?" sualı da, sualın cavabı da yeni idi. Belə ki, Hüseynzadənin "Türk kimdir?" sualına verdiyi cavabı Şəmsəddin Saminin "Qamus ül-alam" əsərindəki cavablarla qiyaslandırmaq olmaz. Hərçənd Hilmi Ziya Ülkenin "Türkiyədə çağdaş düşüncə tarixi" kitabında belə cəhdlər olmuşdur. Əslinə qalsa, Əli bəy Hüseynzadənin yazısında Şəmsəddin Saminin tatarlar, qırğızlarla bağlı qələmə aldığı bəzi yanlış mülahizələr də təshih olunurdu.

Məsələn, Şəmsəddin Sami yazır: "Qırğız lisanının ədəbiyyatı yoxdur. Qırğızlar bədəvidir". Şəmsəddin Samidən 14 il sonra Əli bəy Hüseynzadə onun bu fikrini təshih edir: "Qazaq qırğızlar "lirik" deyilən hissiyyat şeirlərinə, qəzələ rəğbət göstərdikləri halda, daha parlaq, daha möhtəşəm bir tarixi keçmişə, qəhrəmanlıq tarixinə malik bulunan qaraqırğızlar "epik" deyilən dastanlardan zövq alır, öylə şeirlər vücuda gətirməyə meyil göstərirlər!.. Qırğızların bu növ əşarı başlıca sarı noğay qəbiləsindən olan "Ər Manas" nam qəhrəmanın hünərlərini təsvir ediyor...".

Yuxarıda xatırlatdığım məqaləsində Hüseynzadə Azərbaycan manasşünaslığının əsasını qoyur, Manasın mənsub olduğu Sarınoğay əşirətindən söhbət açır, Çingizi, Teymuru məramlarına çatdıran qırğızlardan bəhs edir, Orta Asiya torpaqlarında təlatümlər, girdablar hasilə gətirən qırğızların bədii zövqünü təhlil edirdi...

Əli bəy Hüseynzadə 1905-ci ildə "Tatar milləti yoxdur, tatarlar kimi tanınan millət türk millətidir" qənaətinə gəlmişdi. "Türk var, moğol var, fəqət tatar yoxdur. Krımlılar, kazanlılar, oranburqlar və saira həp türk oğlu türkdürlər. Kəndilərinə nə qövmdən olduqları türkcə sual olunsa, "türküz", – deyə cavab verirlər. Bunlara başqa xalqlar tərəfindən bir yanlışlıq olaraq tatar denilmişdir...". 7 il sonra, 1912-ci ildə yazdığı "Tatar milləti" məqaləsində İsmayıl bəy Qaspıralı da Əli bəy Hüseynzadənin bu qənaətinə qoşuldu.

***– Çingizin, Teymurun milli kimliklərini, türklük üçün çalışdıqlarını şüurlarda ilk dəfə Hüseynzadə təsbit edib...***



– Elədir. Məlumdur ki, 1904-cü ildə osmanlı cəmiyyətində Çingizi, Teymuru türklərin iftixar qaynağı, hərb dahisi adlandırmaq milli humanitar fəlakət mislində anlaşıla bilərdi. Amma 1903-cü ildən etibarən Yusif Akçura və Əli bəy Hüseynzadə onları Türk böyükləri silsiləsinə əlavə etdilər. Türk birliyini onlarsız təsəvvür etmədilər və beləcə Osmanlıda türk milli düşüncəsinin, daha geniş miqyasda Turan düşüncəsinin əsasını qoydular.

Çıxışımda dedim ki, Türk dünyasında milli kimlik və kültürəl miras mövzusunda keçirilən bu konqresdən bir sıra yeni suallara cavab tapılmasını ümid edirik. Məsələn, milli kimlik anlayışı hansı mənanı ehtiva edir, ortaq türk dili, yoxsa ortaq milli kimlik daha önəmlidir? Milli kimlik hansı məzmunu qapsayır, problem ilk dəfə tarixin hansı mərhələsində sosioloji düşüncənin tədqiq predmetinə çevrilmişdir və sair.

Qeyd etdim ki, III Beynəlxalq Türkoloji Konqresi 2024-cü ildə İslam Dünyasının Mədəniyyət Paytaxtı elan edilmiş Şuşaya bir ərməğandır. Unutmayaq ki, ərəb-fars tərkibindən arıdılmış saf türkcə şeirlər ilk dəfə Vaqif tərəfindən Şuşada yaradılmışdır. Yaxud Şuşa Mədəniyyət Paytaxtıdırsa, o zaman alimlərimizin də öhdəsinə, tutaq ki, həm də belə bir suala cavab tapmaq düşür: Yurdaqulun "Mən bir türkəm, dinim, cinsim uludur" şeirinə 1907-ci ildə Şuşada musiqi yazan bəstəçi kim olub? Şuşalı xanəndələrin XX yüzilin ilk 10 ilində oxuduqları, yaxud plastinkaya, vala, yəni plaka yazdırdıqları həmin mahnının yaranma səbəbi hansı tarixi zərurətdən doğub?

İnanıram ki, milli kimlik probleminə həsr olunmuş konqres türkologiyanın yeni və ən aktual suallarına verdiyi yeni və obyektiv cavablarla yadda qalacaq, qarşıda geniş üfüqlər açacaqdır.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# "Ay alan!..Məmləkəti-Rey satıram..."

**Bu günlərdə Gəncənin M.Ə.Sabir küçəsində Fituri Əsmər Mehman qızına məxsus yaşayış evində reyd keçirilərkən burada gizli fəaliyyət göstərən saxta alkoqollu spirtli içki istehsal edildiyi aşkar olunub.**

Rəhmətlik şairimizin adına olan küçədəki evlərin birində 33 yaşlı qadının saxta araq düzəldib satdığı xəbərini eşidəndə, elə onun öz beyti yadıma düşdü.

**Mal mənim, məsləhəti-kar mənim,**
**Satıram, dövləti-Qacar mənim;**
**Kimə nə dəxli ki, mən şey satıram,**
**Ay alan!..Məmləkəti-Rey satıram!**



AQTA-nın və yerli polis idarəsi əməkdaşlarının birgə keçirdikləri bu yoxlama zamanı müxtəlif əmtəə nişanlı şüşə butulkaların yuyulub təmizlənərək, saxta üsullarla alkoqollu içkilərin qablaşdırıldığı müəyyən edilib. Burada 60-dan çox müxtəlif ölçülü şüşələrə doldurulan "Banketnaya Yubiley", "Organic Line", "Banketnaya", "Старый Доктор" əmtəə nişanlı satış məqsədilə qablaşdırılmış saxta alkoqollu içki, həmçinin müxtəlif yerli və xarici brend markalı içkilərə məxsus butulka və



qapaqlar, içərisində 25 litr su-spirt qarışığı olan plastik çəllək(şəkildə) aşkarlanıb.

Təbii ki, faktla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb, məhsullardan nümunələr götürülərək laborator müayinələrə cəlb edilib. Qanunsuz istehsal olunan alkoqollu içkilərin satış yerlərinin müəyyən edilməsi istiqamətində zəruri tədbirlər həyata keçiriləcək, bunlar öz yerində. Hələlik, 33 yaşlı bu qadın haqqında da bir söz deməyəcəyik, çünki hazırda araşdırma aparılır, sübut dəlillər toplanır. Bircə onu bildirək ki, bu, Əsmər Fituri ilə bağlı ilk fakt deyil. Onun buna bənzər əməlləri Daşkəsəndə, Gədəbəydə də aşkarlanıb və sonu nə ilə qurtarıb, deyə bilmərik.

Yaxşı, necə olur ki, son vaxtlar istər fərdi evlərdə, zirzəmilərdə, digər yerlərdə saxta araq düzəldib satanların, eləcə də başına 5–10 nəfər yığıb adını zavod, MMC qoyub ağına-bozuna baxmadan ucuz qiymətə spirtli içki istehsal edən bədnam " iş adamları"nın sayı nəzərəçarpacaq dərəcədə artıb? Bir il əvvəl Samuxda "Qara Çanaq" alkaqollu içkilərin istehsalı müəssisəsində aşkarlanan ciddi faktlar nəticəsində onun fəaliyyəti məhdudlaşdırılıb.Antisanitariya, normalara qətiyyən əməl olunmaması və digər çatışmazlıqlar bir daha sübut etmişdir ki, hər belə üzdəniraq müəssisələrin məhsullarını piştaxtalara yaxın belə buraxmaq olmaz. İstehsal sahəsi hörümçək toruna bənzəyir. Hamam vannası, primitiv cihazlar, çəlləklər...Digər müəssisələrin də adlarını çəkmək mümkündür. Amma məqsədimiz onların əl-qol açdığını və ölkədə sahibkarlıq fəaliyyəti ilə bağlı həyata keçirilən islahatlardan sui istifadə edərək insanların sağlamlığını təhlükə altına qoyanlardan söz açmaqdır. Özü də bir sıra hallarda ev şəraitində, yuxarıda qeyd etdiyimiz kimi, gizli şəkildə saxta spirtli içki hazırlayanlar məhz həmin müəssisələrlə də əlaqə yarada bilir, iş birliyi qururlar.

Sualımıza cavab verməyə çalışacağıq. Qeyd edək ki, 2019-cu ildə spirtli içkilərin istehsalı üçün lisenziyalar ləğv olundu. Daha sonra yoxlamalar, demək olar ki, keçirimədi və birdən-birə bazara 90-a qədər araq istehsalçısının daxil olmasına şərait yarandı. Halbuki buna qədər cəmi 5–6 araq istehsalçısı var idi. Lisenziyaların ləğvindən sonra isə cəmi bir şərab istehsalı müəssisəsi yaradıldı. Bilirsiniz niyə belə az? Çünki şərab istehsal etmək və bazara çıxmaq çox çətin, ağır bir iş, mürəkkəb prosesdir. Digər tərəfdən, şərabın saxta olduğu dərhal hiss olunur. Araq hazırlamaq isə asan başa gəlir. Təbii ki, əsl, tanınmış müəssisələri nəzərdə tutmuruq. Onlar rəhbərlik etdikləri müəssisəni modernləşdirir, ən müasir, bahalı avadanlıqlar alıb gətirir, hətta öz spirt zavodlarını qurur, məhsullarının şöhrətini yaymaq, xarici bazara çıxmaq üçün əllərindən gələni edirlər. İşbazlar, o cümlədən araqbağlayanlar isə haradansa mənşəyi məlum olmayan ucuz qiymətə spirt tapır, məşhur araqların etiketini şüşələrə yapışdırır və bazara, özü də ucuz qiymətə çıxarırlar.



İndi gəlin baxaq. Bir litrlik arağın təkcə aksizinin qiyməti 4 manat 80 qəpikdir. Bunun da üstünə18 faiz gəlir vergisi gələndə, bu arağın maya dəyəri 5 manat 66 qəpik edir. Yaxşı, onda necə olur ki, mağazada 5 manata, lap 7 manata araq satılır? Deməli, bunlar saxtadır, özü də yüz faiz! Heç alıcı da bilmir bu məhsulun yaxşı, ya pis olduğunu. Çünki həmin araqlar sexlərdə, evlərdə elə peşəkar şəkildə hazırlanır ki, yalnız zavod istehsalçısı içkinin saxta olduğunu ayırd edə bilər.

Dəfələrlə deyilib ki, keyfiyyətsiz, standartlara uyğun hazırlanmayan alkoqollu içkilər insan sağlamlığı üçün olduqca təhlükəlidir. Belə içkilərin hazırlanmasında daha çox metil spirtindən istifadə edilir. Çünki o ucuzdur. Daha heç kim fikirləşmir ki, ondan hazırlanan araq insanların ölümünə səbəb ola bilər. Bu yaxınlarda qardaş Türkiyənin paytaxtı Ankarada saxta içkilərdən ölənlərin sayı 100-ü keçdi. Ölkəmizdə də bununla bağı ölüm faktları qeydə alınıb. Belə spirtli içki hazırlayarkən onun tərkibinə qatılan su yumşaldılmır, kömürdən keçirilmir. Bundan əlavə, sanitar-gigiyenik norma və qaydalara əməl edilmir. İstehsalatda qida üçün yararlı olmayan, keyfiyyətsiz qablaşdırma materialları və tıxaclardan istifadə edilir. İşçilər heç bir tibbi yoxlamadan keçmədən istehsal prosesində iştirak edirlər. Bu da azmış kimi, spirti və suyu qarışdıraraq onu hətta isti günlərdə plastik çəlləklərdə saxlayırlar. Gəncədəki adıçəkilən ünvanda 25 litrlik su-spirt qarışığı olan çəlləyin (şəkildə) aşkar olunması dəhşət doğurur. Hətta təmiz spirti belə çəlləkdə saxlamaq, artıq zəhərlənmənin yarısıdır.

Suala bir də qayıdırıq. Bəs, necə etmək lazımdır ki, kustar üsulla hazırlanmış, adı araq olub, necə deyərlər, zəhər qatılmış üzdəniraq məhsulların bazara çıxmasının qarşısı alınsın? Əslində, cavab sadədir: mübarizə aparmaq!

Amma bu mübarizə təkcə hüquq-mühafizə orqanlarının, qida təhlükəsizliyi agentliyinin işi olmamalıdır. Onlar bu sahədə lazımi işlər görürlər. Hərçənd lazımi səviyyədə olmasa da bu mübarizə var və təqdirəlayiqdir. Lakin yaşayış yerlərində bu işin əməlli-başlı gücləndirilməsi tələb olunur. Uzağa getməyək. Elə Gəncə şəhərində bu bədxah əməllərlə məşğul olanların adlarını və ünvanlarını əksəriyyət bilir və təəssüf ki, "xatası məndən uzaq" mövqeyi bir çoxlarının əsas şüarıdır. Maraqlıdır ki, bəzi hallarda araq istehsalı ilə məşğul olan istehsalçıların özləri saxta araq ünvanlarını arayıb axtarır və tədbir görülmək üçün müvafiq qurumlara verirlər. Çünki bu vacib məsələyə kifayət qədər diqqət yetirilmədiyini görüb, özləri mübarizəyə başlayırlar. Özünüz fikirləşin, axı artıq öz məhsullarını nəinki daxili bazarda, hətta bir çox Avropa ölkələrində tanıdan müəssisənin rəhbərliyi necə razı ola bilər ki, onun əziyyəti yerə vurulsun, şöhrətinə xələl gətirilsin. Polisin hər yaşayış sahəsində müvəkkilləri var. Onların bir çoxu 15 –20 il, hətta daha uzun müddətdir ki, həmin sahələrin sakinləri ilə əlaqəli işləyir. Ola bilməz ki, saxta araq düzəldənlər yalnız reydlər zamanı aşkar edilsin. Eyni sözlər qida təhlükəsizliyi agentliyinə də aiddir.

Lisenziyaların ləğvindən və yoxlamaların dayandırılmasından sonra sürətlə artan, özünü zavod, MMC, firma, şirkət adlandıran, "On beş adama çörək verirəm" deyib saxta "istehsal müəssisəsi" yaradılan yerlər tam nəzarətə alınmaldır. Ola bilsin hay-küy salıb desinlər ki, iş adamlarına təzyiq olunur və sair. Qoy desinlər, onsuz da deyirlər. Amma nəzərə almaq lazımdır ki, insanların sağlamlıqları bu qaragüruhçuluqdan qat-qat üstündür.



Şəxsi qənaətimdir. Tədricən tələbatı ödəməyən, gələcəkdə isə fərdi üzüm təsərrüfatı, spirt zavodu, müasir texnologiyası olmayan müəssisələrin fəaliyyəti məhdudlaşdırılmalı və hətta dayandırılmalıdır. Onların bir çoxunun 50–60 kvadratmetrlik istehsal sahəsinə, döşəməyə düzülmüş qablarına, şüşələrinə, artıq süzülməkdən deşik-deşik olmuş süzgəclərinə, işçilərinin geyimlərinə, sanitariya vəziyyətinə baxanda məlum olur ki, "bu xına, o xınadan deyil".

Gəncə bölgəsində az da olsa şərabçılıq müəssisələri var ki, ora daxil olanda, sanki, ən inkişaf etmiş ölkənin şərab zavodundasan. Yaxud elə bil ki, hansısa məşhur tibb müəssisəsindəsən. Belə də olmalıdır. Çünki ortada insan amili var, bizim vətəndaş var, bizə inanan alıcı var. Gəlin, bunları yaddan çıxarmayaq.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Gəncə şəhəri**

# Yeni kitab

**Mərhum ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor, uzun illər AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri olmuş, Azərbaycan Yazıçılar Birliyinin üzvü Şirindil Alışanlının haqqında "Dünyada "Şirindil" imzası qaldı..." adlı məqalələr və xatirələr toplusu nəşr edilib.**

Kitaba AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Ön söz yazıb. Toplunu filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı və institutun əməkdaşı Dilarə Adilgil tərtib edib. 240 səhifəlik kitabda ədəbi və elmi ictimaiyyətin, Şirindil müəllimin həmkarlarının, dostlarının və yetirmələrinin xatirələri toplanıb. Xalq yazıçısı Elçin, Milli Məclisin deputatları Fazil Mustafa, Aqil Abbas, Elnarə Akimova, şair Qulu Ağsəs, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, elmlər doktorları Qorxmaz Quliyev, Vaqif Yusifli, Rafiq Yusifoğlu, Sara Osmanlı, Asif Rüstəmli, Vüqar Əhməd, Bədirxan Əhmədli, Aygün Bağırlı və başqaları Şirindil Alışanlını görkəmli alim, yorulmaz tədqiqatçı və naşir, vətənpərvər ziyalı, həqiqi dost, böyük insan kimi dəyərləndiriblər. Kitabda əks olunan çoxsaylı fotolar alimin AMEA-da işlədiyi 40 ildən artıq dövrü əhatə edir.

*XQ*





# Azərbaycan İlahiyyat İnstitutu

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 2025-ci il tarixli 275s nömrəli sərəncamı ilə təsdiq olunmuş plan əsasında 2025-ci il üçün fəlsəfə doktoru proqramları üzrə doktoranturaya

## QƏBUL ELAN EDİR

Fəlsəfə doktoru proqramları üzrə doktoranturaya sənəd qəbulunun 2025-ci il mayın 13-dən iyunun 2-dək həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Əlavə olaraq bildiririk ki, doktoranturaya sənəd qəbulunun "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilməsi planlaşdırılır.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər.

Əlaqə nömrəsi- +994 12- 436 -77 -66 (daxili: 118; 117).



# "Səba" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 16.00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda "Səba" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Səba" ASC-nin 2024-cü il üçün illik (maliyyə) hesabatlarının müzakirəsi və təsdiqi.

2. "Səba" ASC-nin təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyətlərin nizamnamə kapitalındakı payların və "Səba" ASC-nin təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyətlərin təsisçiliyi ilə yaradılmış hüquqi şəxslərin nizamnamə kapitalındakı payların satılması, həmin hüquqi şəxslər olan cəmiyyətlərin əmlaklarının (əsas vəsaitlərinin və digər aktivlərinin) satılması haqqında.

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar ümumi yığıncağın çağırılmasına 30 (otuz) gün qalmış gündəliyin layihəsinə aid təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil edilmiş bütün məsələlər barədə müvafiq sənədlərlə Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda tanış olmaq hüququna malikdirlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiqləyən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətləri barədə etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonu – (+99450) 201 20 15 – direktor
(+99455) 215 08 60 – hüquqşünas
Ünvan – Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60.

*"Səba" ASC-nin direktoru*



# "Azər-Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

15 iyun 2025-ci il saat 17.00-da səhmdarların növbəti illik ümumi iclası keçiriləcəkdir.

Gündəlikdəki məsələlər :

1. Cəmiyyətin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.

2. Təşkilati məsələlər.

3. Direktorlar (müşahidə) şurasının və sədrinin seçilməsi.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Ünvan – Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 85.

*"Azər-Avtonəqliyyat" ASC idarə heyəti*



# "Bakı Avtonəqliyyat–2" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-cü il saat 11.00-da "Bakı Avtonəqliyyat-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağının onlayn iclası keçiriləcəkdir.

İclasın gündəliyi:

1. "Bakı Avtonəqliyyat – 2" ASC-nin 2024-cü il üçün maliyyə hesabatının təsdiq edilməsi;

2. Cəmiyyətin idarəetmə orqanlarının yeni tərkibinin seçilməsi;

3. Digər məsələlər.

Ümumi yığıncağın onlayn şəkildə keçiriləcək iclasına qoşulmaq qaydaları:

• İnternetə qoşulmuş komputer, noutbuk, planşet və ya smart telefonla Zoom proqramını yükləmədən aşağıdakı link vasitəsilə birbaşa daxil olmaq mümkündür:

https://us04web.zoom.us/j/74231051141?pwd=O8mrLvi9XHM3VmYjDy4BbuF9cRkAqU.1

• İnternetə qoşulmuş komputer, noutbuk, planşet və ya smart telefona Zoom proqramını yüklədikdən sonra aşağıdakı ID kodu və şifrə vasitəsilə daxil olmaq lazımdır:

ID: 742 3105 1141
Şifrə: 1BqKjv
Əlaqə telefonu: +994502955594
Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

*"Bakı Avtonəqliyyat–2" ASC-nin idarə heyəti*



# "Quba Məişət Xidməti" ASC səhmdarlarının nəzərinə!

5 iyul 2025-ci il saat 11.00-da "Quba Məişət Xidməti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Telefon- 050 – 311 –86 – 06.

Ünvan- Quba şəhəri, Mərkəzi bazar, məişət cərgəsi.

# “Azərenerji” ASC-nin

# “Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu”

## 2025-ci il üçün doktorant və dissertant hazırlığı üzrə

## QƏBUL ELAN EDİR

“Azərenerji” ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları” və həmin qaydalarda dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli qərarı ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”na uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 2025-ci il tarixli 275s nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatlarının 2025-ci il üçün doktorant hazırlığı üzrə qəbul planları”na əsasən aşağıdakı ixtisaslar üzrə qəbul aparacaqdır:

3340.01 – Elektrotexniki sistemlər və komplekslər.

3341.01 – Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər.

3342.02 – İstilik elektrik stansiyaları (istilik hissəsi).

3344.01 – Yüksək gərginliklər texnikası.

“Fəlsəfə doktoru” proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına).
- kadrların şəxsi-qeydiyyat vərəqəsi.
- tərcümeyi-hal.
- iş yerindən xasiyyətnamə.
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə).
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış.
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat.
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə).
- xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, Cambridge English Qualifications, TestDaF, DELF, DALF, STANAG əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd.
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

“Elmlər doktoru” proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və “Fəlsəfə doktoru” (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

“Elmlər doktoru” proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına).
- kadrların şəxsi-qeydiyyat vərəqəsi.
- tərcümeyi-hal.
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə).
- iş yerindən xasiyyətnamə.
- əmək kitabçasından çıxarış.
- çap olunmuş elmi işlərin siyahısı.
- “Fəlsəfə doktoru” və ya “Elmlər namizədi” elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti.
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq olunmuş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə).
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Qeyd – xarici dil (ingilis, alman və fransız dillərindən biri) fənnindən imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Xarici dil imtahanından keçid balını toplayan şəxslər fəlsəfə fənni üzrə imtahanda, fəlsəfə fənni üzrə “məqbul” qiymət alan şəxslər isə ixtisas fənni üzrə imtahanda iştirak etmək hüququ əldə edirlər.

Doktoranturaya sənəd qəbulu https://portal.edu.az vasitəsilə 2025-ci il mayın 13-dən iyunun 2-si saat 18.00-dək həyata keçiriləcəkdir.

Əlaqə telefonu – 050-228-84-27, Ülviyyə Nəsibova.

Ünvan-AZ1122, Bakı şəhəri, Zərdabi prospekti 94.

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Bakı Slavyan Universiteti

*Dekan, kafedra müdiri, professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün:**

1. Şərqi Avropa və Balkanşünaslıq fakültəsi üzrə – 1 yer
2. Sosial elmlər və Regionşünaslıq fakültəsi üzrə – 1 yer

**Kafedralar üzrə müdir vəzifəsini tutmaq üçün:**

1. Qərbi Slavyan filologiyası kafedrası üzrə – 1 yer
2. Şərqi Slavyan filologiyası kafedrası üzrə – 1 yer
3. İnklüziv və adaptiv təhsil kafedrası üzrə – 1 yer

**Kafedralar üzrə professor vəzifəsini tutmaq üçün:**

1. Ümumi dilçilik kafedrası üzrə – 4 yer
2. Türkologiya kafedrası üzrə – 1 yer
3. Azərbaycan dili kafedrası üzrə – 1 yer
4. Azərbaycan ədəbiyyatı kafedrası üzrə – 2 yer
5. Slavyan xalqlarının ədəbiyyatı kafedrası üzrə – 1 yer

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

1. Ümumi dilçilik kafedrası üzrə – 13 yer
2. Türkologiya kafedrası üzrə – 4 yer
3. Azərbaycan dili kafedrası üzrə – 4 yer
4. Azərbaycan ədəbiyyatı kafedrası üzrə – 4 yer
5. Slavyan xalqlarının ədəbiyyatı kafedrası üzrə – 15 yer

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

1. Ümumi dilçilik kafedrası üzrə – 1 yer
2. Azərbaycan dili kafedrası üzrə – 6 yer

Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

Qeyd – BSU-da çalışan əməkdaşlar yalnız 1,4,5,6,7 və 8-ci bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil haqqında diplomun surəti.
5. Elmi dərəcə haqqında diplomun surəti.
6. Elmi ad haqqında diplomun surəti.
7. Elmi və elmi metodiki işlərin siyahısı.

Fakültə dekanının və kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Telefon – (012) 599-08-70 (d/n 208)

Ünvan – AZ 1014, Bakı şəhəri, S.Rüstəm küçəsi 33.

# “Şəmkir-Şərab – 1” ASC səhmdarlarının nəzərinə!

28 iyun 2025-ci il saat 15.00-da Şəmkir rayonunun Posanlı kəndində “Şəmkir-Şərab-1” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. “Şəmkir-Şərab-1” ASC-nin 2024-cü il üçün illik (maliyyə) hesabatlarının müzakirəsi və təsdiqi.

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, onlar ümumi yığıncağın çağırılmasına 30 (otuz) gün qalmış gündəliyin layihəsinə aid təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil edilmiş bütün məsələlər barədə müvafiq sənədlərlə Şəmkir rayonu, Posanlı kəndində yerləşən cəmiyyətin inzibati binasında tanış olmaq hüququna malikdirlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiqləyən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətləri barədə etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonu – (+99450) 626-62-22.

Ünvan – Şəmkir rayonu, Posanlı kəndi.

***İdarə heyəti***

# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

## 2025-ci il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul elan edir

| Elm sahələri və ixtisaslar | Şifrələr | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | |
|---|---|---|---|---|
| | | | əyani | qiyabi |
| **TARİX:** | | | | |
| Beynəlxalq münasibətlər tarixi | 5507.01 | 1 | 1 | - |
| **HÜQUQ ELMLƏRİ:** | | | | |
| İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ | 55614.01 | 1 | - | 1 |
| **SİYASİ ELMLƏR:** | | | | |
| Beynəlxalq münasibətlər | 5901.01 | 4 | 3 | 1 |
| Davamlı inkişafın idarə edilməsi | 5902.17 | 3 | 2 | 1 |
| Siyasi institutlar və sistemlər | 5904.01 | 4 | 3 | 1 |
| Siyasi nəzəriyyə | 5908.01 | 2 | 2 | - |
| Dövlət idarəçiliyi | 5909.01 | 5 | 3 | 2 |

Doktoranturaya sənəd qəbulu 2025-ci il iyunun 2-dək “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Xarici dil imtahanını (imtahanın 2025-ci il iyunun 22-də keçirilməsi nəzərdə tutulmuşdur) müvəffəqiyyətlə vermiş şəxslər üçün fəlsəfə fənni üzrə və ixtisas imtahanları sentyabr ayında keçiriləcəkdir.

**Telefon – (012) 492-65-52.**

**ÜNVAN – Bakı şəhəri, Lermontov küçəsi 74, Elm və beynəlxalq əlaqələr şöbəsi, 34-cü otaq.**

# Azərbaycan Milli Konservatoriyası

## *2025-ci il üçün doktorant hazırlığı üzrə qəbul elan edir*

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar cəmi | Fəlsəfə doktoru proqramı üzrə | | | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|---|
| | | dövlət sifarişli və ödənişli əsaslarla | | | |
| | | o cümlədən | | | |
| | | | əyani | qiyabi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Azərbaycan Milli Konservatoriyası** | | | | | |
| 6213.01 | Musiqi sənəti | 1 | | 1 | 2000 |
| | Cəmi: | 1 | | 1 | |

# “Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı” ASC səhmdarlarının nəzərinə!

“Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 28 iyun 2025-ci il saat 11.00-da Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda yerləşən inzibati binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

1. “Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı” ASC-nin maliyyə-təsərrüfat fəaliyyətinin 2024-cü il üçün hesabatı.
2. Digər təşkilati məsələlər.

Ünvan – Bakı şəhəri, Suraxanı rayonu, Şakir Ziyadov küçəsi 1 (Hövsan qəsəbəsi).

***Müşahidə Şurası***

# “Qəçrəş” ASC səhmdarlarının nəzərinə!

5 iyul 2025-ci il saat 13.00-da cəmiyyətin yerləşdiyi ünvanda “Qəçrəş” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri, saat 13.00-dək tanış ola bilərlər.

Telefon- 050-616-99-30.

Ünvan-Quba rayonu, Qəçrəş kəndi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 99 (30793) 15 may 2025-ci il, cümə axşamı

## İdman

### Dünya reytinqinə karateçimiz başçılıq edir



**Karate üzrə üçqat dünya çempionu İrina Zaretska (68 kq) dünya reytinqində liderliyini davam etdirir.**

Azərbaycan millisinin atletinin hesabında 6645 xal var. Analıq məzuniyyətindən sonra tatamiyə qayıdan idmançı Qahirədə Premyer Liqa mərhələsində iştirak edib. Zaretskanın 1/4 finala yüksələ bilməməsinə baxmayaraq, turnir ona 150 xal qazandırıb.

Qeyd edək ki, hazırda karateçimiz mayın 30-da Mərakeşin Rabat şəhərində start götürəcək analoji turnirə hazırlaşır.

### Faiq Həsənov 2-ci dəfə "Ginnesin Rekordlar Kitabı"nda



**Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov ikinci dəfə "Ginnesin Rekordlar Kitabı"na düşüb.**

O, 55 il 277 gün "Televiziya Şahmat Klubu" verilişinin müəllifi və aparıcısı kimi rekord müəllifi olub. "Televiziya Şahmat Klubu" "Ginnesin Rekordlar Kitabı" tərəfindən ən uzun müddət efirdə yayımlanan idman proqramı kimi təsdiqlənib.

Ötən ay Faiq Həsənov şahmat üzrə ən uzun müddətli kişi hakim kimi "Ginnesin Rekordlar Kitabı"nın xüsusi diplomuna layiq görülmüşdü.

*L.QURBANOVA*
*XQ*

## HAVA

### Abşeronda gündüz yağmursuz, gecə və axşam yağışlı, bölgələrdə yağıntılı və dumanlı

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 15-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Gecə və axşama doğru bəzi yerlərdə yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 14-16°, gündüz 18-21° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz olacaq.



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-16°, gündüz 16-21°, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Publisistik qeydlər



# Mayın al rəngi...

**Neçə-neçə illər əvvəl bir jurnalistin qələmə aldığı yazıda belə fikir yer almışdı: "Mənə elə gəlir ki, dünyada hər şeyin rəngi var. Rəngi olanları, gözlə görünənləri demirəm. Onsuz da bəllidir ki, pambıq ağdır, günəş dan yerindən boylananda qırmızıdır, dəniz mavidir, bahar yaşıldır. Mən deyirəm ki, səsin də rəngi var. Mən deyirəm ki, insan arzularının, uşaq təbəssümünün, insan xasiyyətinin də rəngi var. Məsələn, azadlığın, bu azadlıq uğrunda gedən mübarizənin rəngi, məncə, qırmızıdır. Bayraq kimi, qan kimi, torpağın sinəsini yarıb çıxan qıpqırmızı nar kimi!"**

Həqiqətdir, deyilmi? Müəlliflə yüzəyüz razılaşaraq demək istəyirəm ki, nəinki hiss və duyğuların, hətta həyatda ayrı-ayrı günlərin, ayların, bəlkə də hadisələrin də öz rəngi var. Məsələn, mənim nəzərimdə may ayının rəngi qırmızıdır. Təbii ki, may ayını mənim nəzərimdə qırmızı rəngə boyayan həm də gənclik illərimi yaşadığım sovet dövrünün bəzi bayram və hadisələridir...

Mayın birinci iki günü dünya zəhmətkeşlərini həmrəylik günü kimi qeyd olunan möhtəşəm bayram nümayişi keçirilərdi. Al-qırmızı geyinmiş



adamlar əllərində qırmızı bayraq və şarlar tutaraq nümayişə çıxar, öz səslərini dünya zəhmətkeşlərinin səsinə qatardı.

Bundan bir həftə sonra 20 milyon nəfərin al qanı hesabına başa gələn Qələbə bayramı qeyd olunardı. Sinəsi orden-medallı Böyük Vətən müharibəsi veteranları, əsgər və döyüşçülər mərkəzi tribuna önündən keçər, gəzintiyə çıxardılar.

Mayın 19-u boynu qırmızı qalstuklu məktəblilər pioner təşkilatının yaranması gününü bayram kimi qeyd edərdilər.

Təqvimdə qırmızı rəngə boyanmasa da, may ayında neçə-neçə digər bayramlar da var idi: sovet mətbuatı günü, radio günü, Afrikanın azadlığı günü, kimyaçı günü, sərhədçi günü...

Mayı qırmızı boyayan təkcə bunlardımı? Gömgöy çəmənliyin, yamyaşıl taxıl zəmisinin içində qırmızı bayraq kimi yellənən, alov dillərini xatırladan lalələr elə bil mayla əkiz doğulub. Şair ilhamı həmin lövhəni misralara çevirib:

*Çiçəklərin yanağına qonan şeh*
*Boz dumanın dodağının nəmidir.*
*Göy çəməndə dalğalanan lalələr*
*Elə bildim od vurulmuş zəmidir.*

Mayın axırlarında təzə-təzə dənzərən, barlı budaqları üstündə sığırçın və sərçələrin nəğmə dərsi başlanan gilas ağacı... Barlı budaqlardan sallanan qızılı-sarı meyvələr qır-qızıllarını boyun-boğazına taxmış toya gedən gəlini xatırladır.

Al-əlvan gül-çiçəklərin sərgi açdığı, qızılgülün xoş ətrinin bağ-bağçaya yayıldığı may ayı...

May ayı mənimçün rəngbərəng kəpənəklərin çəməndə güldən-gülə, çiçəkdən-çiçəyə qonduğu ılıq bir yaz günüdür.

May ayı çəhrayı çiçəkləri hasarlardan boylanan ərik ağacı, təzəcə biçilmiş ot qoxusu, sünbülləri dən tutan yamyaşıl buğda zəmisinin təmizliyi, saflığıdır:

*Şehli sünbüllərin əzizliyini*
*Suyunu bal kimi içəndə gördüm.*
*Dünyanın ən böyük təmizliyini*
*Zəmi qırağından keçəndə gördüm...*

May ayı – son dəfə çalınan məktəb zəngi, kim üçünsə irəlidə qırmızı yaylıq kimi yellənən tətil günləri, kimisə ilğım kimi çağıran həyat yollarıdır.

May ayı mənim nəzərimdə əlində bir dəstə gül tutan cavan bir oğlanın tələsdiyi ilk görüş, günəşin hərarətindən bir qədər yüngülləşmək üçün pəncəyin qolun üstünə atılması, həsrət, intizar dolu günlərdən sonra əsgərin evə dönməsidir.

May ayı divarlarına qırmızı gəbələr vurulmuş toy mağarı, həyətlərdə çalınan "Vağzalı" sədasıdır. İndi əsassız şəkildə yasaq qoyulan toy bu aya necə yaraşır!

Mənim nəzərimdə may ayı ılıq bir yaz günü doğum evindən çıxan cavan bir ata-ananın qucağındakı ağappaq bələyin içindəki körpədir. O cavan ata-ana mənim ata-anamdır, qucaqlarındakı körpə də mənəm. Bəlkə də elə mayda doğulduğuma görə bu ay mənə belə doğma gəlir...

Bir də may ayı evimizin kəllayı otağında qırmızı döşəmə üstünə yığılmış üstü qırmızı iplərlə bağlanmış hədiyyələrdir. Ağlım kəsəndən sonra ilk dəfə mənə keçirilən ad günü və qohum-qardaşın, dost-tanışın gətirdiyi bağlamalar...

Təqvimdəki may ayını mənimçün qırmızı rəngə boyayan onunla bağlı olan unudulmaz naxışlardır və görünür, vaxtilə qələmə aldığım misralar da elə bu hisslərdən doğulub:

*Axşam günəş batan çağı "qan ağlar",*
*Səhər-səhər dan üzüdü qırmızı.*
*Zirvəsində tonqal çatıb bu dağlar,*
*Şimşək-şimşək od-közüdü qırmızı.*

*Qayaların küləyin çap, yelin min,*
*Oxşayışı darağıdı təlimin.*
*Xətirinə kim dəyibdi laləmin –*
*Nişanlımın bənizidi qırmızı.*

*Boz qayanın zirvəsindən sürüşdüm,*
*Harayıma sal-sal daşı axışdı...*
*Ləpirləri qar üstündə naxışdı –*
*Yalquzağın qan izidi qırmızı.*

*Bu dağların dərəsi var bərəli,*
*Qəzəbi var ildırımlı-nərəli.*
*Yaylıq kimi, dəsmal kimi sərili*
*Yaşılyelən çöl-düzüdü qırmızı.*

*Laləli düz, güllü çəmən zərələr,*
*Xınalı daş cığırları dəstələr...*
*Günəşin də oxuduğu nəğmələr*
*Qırmızıdı, qırmızıdı, qırmızı...*

*Süleyman QARADAĞLI*

## Sağlamlıq

# Möcüzə yarpaq

**Təbiətin bizə bəxş etdiyi möcüzələrdən biri olan tut yarpağı təkcə meyvəsi ilə deyil, yarpaqları ilə də şəfa mənbəyidir. Sağlamlığını təbii yollarla qorumaq istəyənlər bilməlidirlər ki, tut yarpağının da çoxlu faydaları var. Təbii üsullarla müalicə həkimlərinin fikrincə, bu yarpaqlardan istifadə möcüzəvi təsir göstərir.**



**Qan şəkərini normada saxlayır:** Tut yarpaqları tərkibindəki xüsusi komponentlər sayəsində qan şəkərini balanslaşdırmağa kömək edir. Buna görə şəkər xəstələri tərəfindən xüsusilə seçilir. Mütəxəssislər yeməkdən əvvəl tut yarpağı çayının içilməsinin qan şəkərini nəzarətdə saxlaya biləcəyini deyirlər.

**İmmuniteti gücləndirir:** Antioksidantlarla zəngin olan tut yarpağı orqanizmi zərərli maddələrdən qoruyur. Mövsümi keçidlərdə tez-tez xəstələnənlərə, tut yarpağı çayı tövsiyə edilir.

**Xolesterolu azaldır:** Bəzi tədqiqatlar göstərir ki, tut yarpaqları pis xolesterolun azalmasına yardım edir. Daimi içildikdə ürək sağlamlığını qorumağa da köməyi dəyir.

**Soyuqdəymə üçün mükəmməldir:** Tut yarpağı çayı boğaz ağrısı və öskürək kimi soyuqdəymə əlamətlərinə qarşı da çox təsirlidir. İlıq içildikdə həm rahatlayır, həm də sağalma prosesini sürətləndirir.

**Həzmi yaxşılaşdırır:** Liflə zəngin olduğu üçün həzmi asanlaşdırır. Xüsusilə, qəbizlik problemi olanlar üçün təbii vasitə kimi tövsiyə edilir.

*Z.HÜSEYNLİ*
*XQ*



# Tovuza güclü dolu yağıb

**Tovuzda güclü dolu əkin sahələrinə və meyvə ağaclarına zərər verib. Dünən gecə saatlarında yağan güclü yağış rayonun Əhmədavad kəndində ciddi fəsadlar törədib. 10-15 dəqiqədən çox davam edən dolu əkin sahələrinə, meyvə ağaclarına ziyan vurub.**

Hava şəraitinə görə, kənd yollarında nəqliyyatın hərəkətində də çətinliklər yaranıb. Sel suları sakinlərin əkin sahələrinə dolub, təsərrüfatlara ziyan dəyib. Həmçinin elektrik enerjisinin verilməsində fasilələr yaranıb.

Tovuz 26 nömrəli "Yol İstismarı" MMC-nin texnika və canlı qüvvəsi əraziyə cəlb olunaraq yolda selin yaratdığı fəsadları aradan qaldırıb. Rayon icra hakimiyyətindən verilən məlumata görə, aidiyyəti qurumlar tərəfindən kənd sakinlərinə dəymiş ziyan hesablanır. Bölgədə yağıntılı hava şəraiti davam edir.

*XQ*

✓ 4 iyul 2023-cü il tarixdə Mərkəzi Bank tərəfindən Əliyev Vaqif Telman oğlunun adına verilmiş SA-0294 saylı sığorta agenti lisenziyası itdiyi üçün etibarsız sayılır.

✓ 2014-cü ildə Ə.D.Məlikov adına Bakı şəhəri 6 saylı birləşmiş şəhər xəstəxanası tərəfindən Ağayeva Gülnar İmamverdi qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi

**İLHAM ŞİRƏLİ OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3469
SİFARİŞ 979
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00